RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 78 (9533) 19 aprel 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qətiyyətin təntənəsi

## Sülhməramlılar ərazilərimizi vaxtından əvvəl tərk edirlər

**Ötən 20 il ərzində Azərbaycan hərtərəfli inkişaf mərhələsinə yüksələrək dünyanın sayılıb-seçilən ölkəsinə çevrilib, torpaqlarını işğaldan qurtararaq, suverenliyini tam təmin edərək onilliklərdir ki, milli hədəflərinə doğru gəldiyi çətin, sınaqlarla dolu, mübarizələrdən keçən yolunu zəfər zirvəsinə ucaldıb.**

Xalqımız, dövlətimiz, ümumilikdə Azərbaycan adına qazanılan tariximizdəki bu ən möhtəşəm qələbələrin müəllifi isə Qalib Lider İlham Əliyevdir. Məhz Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasət, həyata keçirdiyi aktiv diplomatiya, atdığı məntiqli, əsaslandırılmış və düşünülmüş addımlar sayəsində milli maraqlarımız qətiyyətlə təmin edilib. Azərbaycan işğal ölkəsindən zəfər ölkəsinə çevrilib, üçrəngli bayrağımız bütün torpaqlarımızda dalğalandırılıb, illər idi ki, Qarabağda qara yaraya çevrilmiş erməni separatizmi məhv edilib.

2024-cü il fevralın 14-də keçirilən prezident seçkilərində Müzəffər Sərkərdə İlham Əliyev, öz təbirincə desək, Xankəndidə seçki qutusuna atdığı bülletenlə erməni separatçılarının tabutuna son mismarı vurub. Bütün bunlar isə, "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik", - deyə bəyan edən Prezident İlham Əliyevin qarşısına qoyduğu milli məqsədlərə bir-bir çatmasının əyani təsdiqidir.

3

# ABŞ həqiqəti təkzib edir

### Brüsseldə Ermənistana ediləcək hərbi yardımı təsdiqləyən sənədin imzalanması Vaşinqton və Aİ-nin bütün yalanlarını ifşa etdi

Aprelin 5-də keçirilmiş Brüssel görüşündən sonra ABŞ Dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Cozep Borelin mətbuat qarşısında çıxışlarında bəyan edildi ki, Aİ 4 il ərzində Ermənistana 270 milyon avro qrant, Birləşmiş Ştatlar isə 65 milyon dollardan çox yardım edəcək. Amma diplomatlar Ermənistana "təhlükəsizlik təminatı" və ya hərbi yardım veriləcəyi barədə heç nə demədilər.

Amma yayılan yeni sənəd təsdiq edir ki, Brüssel görüşündə bağlı qapılar arxasında tərəflər arasında hərbi pakt bağlanıb. Bu əməkdaşlığa əsasən, ABŞ İrəvana Strateji Müdafiə İcmalının aparılması və Ermənistan üçün yeni hərbi doktrina hazırlanması üçün ekspert dəstəyi verəcək. Bu məqam Ermənistanla ABŞ arasında hərbi əməkdaşlığın əhəmiyyətli dərəcədə dərinləşməsindən xəbər verir. Strateji müdafiə baxışı və yeni hərbi doktrinanın hazırlanması təkcə cari müdafiə strategiyalarının nəzərdən keçirilməsinə deyil, həm də Ermənistanın milli təhlükəsizlik məsələlərinə yanaşmasının tamamilə yenidən baxılmasına hesablanıb.

ABŞ-nin təmsil etdiyi Ermənistanın Qərb tərəfdaşları öz təhlükəsizlik qüvvələrinin bütün aspektlərini və potensial zəifliklərini qiymətləndirməli, həmçinin erməni tərəfinə yeni geosiyasi reallıqlara, maraqlara uyğun doktrina formalaşdırmağa kömək etməli olacaqlar.

5

## *Avropa Şurası Nazirlər Komitəsinin sədri:*

# "Azərbaycan nümayəndə heyəti tezliklə Parlament Assambleyasında öz layiqli yerinə qayıdacaq"

**"Məndən xahiş olunub ki, Azərbaycanla bağlı həll yolu tapmaq üçün Nazirlər Komitəsinin nə edəcəyi barədə ətraflı məlumat verim. Bir daha vurğulamaq istərdim ki, əsas məqsədimiz ümumi ideyalarımızı qorumaq və təbliğ etmək üçün birliyi gücləndirməkdir. Xüsusilə də Avropa Şurasının 75 illik yubileyi üçün simvolik olaraq vurğulayaq ki, Şura Avropada insan hüquqlarının üstünlüyünü, demokratiyanı və hüquqi dövləti təşviq etmək üçün 46 üzv dövlətin hökumətləri və parlamentləri arasında çoxtərəfli əməkdaşlıq üçün unikal platforma təklif edir".**




AZƏRTAC xəbər verir ki, bu fikirləri qurumun Nazirlər Komitəsinin sədri, Lixtenşteynin xarici işlər, təhsil və idman naziri Dominik Hasler Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yaz sessiyasında çıxışında deyib.

Bildirib ki, Azərbaycan 2001-ci ildə üzv olduqdan sonra demokratik keçid prosesində Avropa Şurasının dəstəyindən yararlanıb. Həmçinin Avropa Şurası da Azərbaycanın dəyərlərinin təbliğinə və təsirinin artırılmasına verdiyi töhfədən bəhrələnib. Bu, zaman baxımından məhdud olmayan və şübhəsiz ki, yarımçıq qalan qarşılıqlı faydalı əməkdaşlıqdır.

Azərbaycanın quruma verdiyi töhfələri, nümayəndə heyətinin təşkilatdakı layiqli yerinə tezliklə qayıtmasına ümidvarlığını vurğulayan Dominik Hasler qeyd edib: "Düşünürəm ki, bir-birimizə ehtiyacımız var. Ümid edirəm, Azərbaycan nümayəndə heyəti tezliklə Parlament Assambleyasında öz layiqli yerinə qayıdacaq ki, bizi birləşdirən dəyərlərin qorunması naminə əməkdaşlıq və dialoq davam etsin. Mən Avropa Şurasının 75 il ərzində gördüyü nəhəng işi davam etdirmək imkanı vermək üçün ən məqbul həll yollarını təşviq etməyə hazıram və Parlament Assambleyasına, Nazirlər Komitəsinə, Baş katibə üçtərəfli görüş zamanı gözəl əməkdaşlığa görə bir daha təşəkkür etmək istəyirəm".

# Ermənistan hökumətinin unutduğu həqiqət...

Təəssüf ki, belə mürəkkəb, həssas bir dövrdə dünyanın böyük güc sahibləri hesab edilən bəzi ölkələr yeni münaqişə ocaqlarının yaranmasına da səylərini əsirgəmirlər. Tərəflərdən birini dəstəkləyərək, hətta silahlandıraraq problemlərin dərinləşməsinə yol açırlar. Əslində, elə dünyada cərəyan edən qarışıq proseslər, qanlı toqquşmalar həmin hegemon dövlətlərin, böyük güclərin qurduqları planlar əsasında gerçəkləşir.

Həmin ölkələrin Ermənistana dəstək vermək adı ilə, əslində, Cənubi Qafqaz regionunda, necə deyərlər, suyu bulandırmaq cəhdləri də göz önündədir. Otuz ilə yaxın davam etdirilən Qarabağ münaqişəsi başa çatıb. Azərbaycan öz ərazilərini işğaldan azad edərək suverenliyini tam bərpa edib.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının real göründüyü bir vaxtda regionda yenidən münaqişə yaratmaq, qanlı toqquşmalara rəvac vermək niyyətində olanlar isə hiylə dolu planlar qururlar. Cənubi Qafqazı hazırda dayandığı sülhün eşiyindən döndərməyə çalışırlar. Bununla ABŞ və Qərbin məqsədi ilk növbədə Rusiyanı Cənubi Qafqazdan çıxarmaqdır.

Qurulan məkrli planların reallaşmasına, regionun yenidən qanlı toqquşmalar meydanına çevrilməsinə imkan verməməyin yolu sülhə, sabitliyə nail olmaqdır. Bölgəmizdə sülhün yeganə təminatçısı olan Azərbaycan bu istiqamətdə məqsədyönlü işlər həyata keçirir, təhlükəsizliyin möhkəmləndirilməsinə çalışır.

6

# Şirvan kanalı bölgələrdə ekoloji tarazlığı və kənd təsərrüfatının inkişafını təmin edəcək

Kənd təsərrüfatı sahəsinin inkişafı bu gün bir çox dövlətlər, eləcə də ölkəmiz üçün olduqca vacibdir. Azərbaycan dünyadakı azsaylı ölkələrdəndir ki, bir çox kənd təsərrüfatı məhsullarını idxal etmir, əksinə, ölkəmiz meyvə və tərəvəzin ixracı ilə məşğuldur. İxracın əsas səbəbi də torpağımızın məhsuldar, xalqımızın zəhmətkeş olması ilə birbaşa bağlıdır.

3

# İlk rübün makroiqtisadi göstəriciləri açıqlanıb

### Rəqəmlər sosial-iqtisadi inkişafın dinamikliyindən xəbər verir

DSK-nın hesabatına görə, ilin ilk rübündə ÜDM-in 39,3 faizi sənaye, 9,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,9 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 5,9 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə, 20,4 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,9 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 2856,5 manat əlavə dəyər düşmüşdür. Rüb ərzində ölkə üzrə 15,7




milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ümumilikdə bu dövrdə məhsul istehsalı sənayenin qeyri-neft-qaz sektorunda 7,8, neft-qaz sektorunda 0,2 faiz artmışdır. Sənaye məhsullarının 64,5 faizi mədənçıxarma, 29 faizi emal, 5,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 6 faiz azalmış, əmtəəlik qaz hasilatı 5,4 faiz artmışdır.

7

# Makron bütün körpüləri yandırdı

### Fransanın növbəti prezidenti Azərbaycanla normal əlaqələrin bərpası üçün çox səy göstərməli olacaq

Ölkəmizin dialoq üçün açıqlığına, xoş niyyətlərlə əməkdaşlıq istəyinə baxmayaraq, Vətən müharibəsi ərəfəsində Emmanuel Makron "biz Ermənistanı tək qoymayacağıq" söyləyir, eyni zamanda Azərbaycanı, hətta Türkiyəni ittiham edirdi. İkinci Qarabağ savaşından sonra isə Makron dəfələrlə dövlətimizin başçısına zəng edərək absurd tələblər irəli sürməyə cəhdlər göstərir, öz ölkəsinin ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi statusunu özü darmadağın edirdi. Unutmayaq ki, vaxtilə rəsmi Bakı Fransaya bu statusu qərəzsizlik və obyektivlik zəmanəti müqabilində vermişdi. Obyektivlik naminə etiraf edilməlidir ki, Fransanın əvvəlki prezidentlərinin dövründə rəsmi Paris bu zəmanəti yerinə yetirmişdi.

Emmanuel Makron işğalçı dövlətin birmənalı müdafiəçisi mövqeyini tutaraq neytrallıqdan imtina etmək qərarına gəlib. Bu rolda öz gülünc və əsassız fantaziyalarını fakt kimi təqdim edən Makron ölkəmiz haqqında açıq-aşkar yalan danışmağa başlayıb və dövlət başçımızın ona yalanları sübut etmək tələblərini cavabsız qoyub. Bundan sonra təxribat siyasəti ilə seçilən Fransa Senatı müharibə zamanı Azərbaycandan qoşunlarını öz ərazilərimizdən çıxarmağı tələb edən qətnamə qəbul edib. Amma 30 ildə Fransa Senatı BMT-nin Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymayıb.

5

# Fransanın müstəmləkəçilik siyasəti Yeni Kaledoniyaya böyük faciələr gətirib



**Aprelin 18-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Naisseline Omayranın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri qeyd edib ki, Yeni Kaledoniya Konqresinin nümayəndə heyətinin Azərbaycana səfər etməsi parlamentlərimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün qarşılıqlı maraq və niyyət olduğunu göstərir. Nümayəndə heyətinin səfəri çərçivəsində keçiriləcək görüşlərin və müzakirələrin parlamentlərimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından faydalı olacağına dair inam ifadə olunub.

Spiker Sahibə Qafarova Yeni Kaledoniya Konqresinin sədri Rok Vamitanın ona məktub ünvanladığını və onun ailəsində baş vermiş bədbəxt hadisə səbəbindən ölkəmizə səfər edə bilməməsindən təəssüfləndiyini bildirib. O, bununla belə gələcəkdə əlaqələrin inkişafına dair fikir mübadiləsi aparmaq üçün daha çox imkanların olacağına inamını ifadə edib.

Milli Məclisin Sədri bu görüşün parlamentlər arasında ilk təmas olduğunu xatırladaraq vurğulayıb ki, əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanlar var. İlk növbədə əlaqələrin hüquqi bazasının formalaşdırılmasının vacibliyi diqqətə çatdırılıb. Bu çərçivədə iki parlament arasında imzalanan əməkdaşlığa dair memorandumun əhəmiyyəti qeyd olunub. Görüşdə həmçinin parlamentlərdə qarşılıqlı dostluq qruplarının təsis olunması, qarşılıqlı səfərlərin həyata keçirilməsi, qanunverici orqanlarımızın komitə və komissiyaları arasında əməkdaşlığın yaradılması məsələləri nəzərdən keçirilib.

Səmimi görüşə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Naisseline Omayranın Yeni Kaledoniyanın yerli xalqı - kanakların 170 il sürən fransız müstəmləkəçiliyi altında üzləşdiyi faciəvi aqibətindən söz açıb, ölkəsində insan haqlarının kobud şəkildə pozulması hallarının, davam edən təzyiq və təqiblərin, həmçinin son illərdə keçirilən seçkilərdə müşahidə olunan qanunsuzluqların Fransa hökumətinin bu ölkəyə qarşı həyata keçirdiyi məqsədyönlü siyasətin tərkib hissəsi olduğunu bildirib.

Qonaq Azərbaycanın Yeni Kaledoniyaya göstərdiyi dəstəyə görə təşəkkür edib.

Fransanın sülh və sabitlik pərdəsi adı altında sırımağa çalışdığı boş vədlərin uzun illər boyu onun ölkəsinə yalnız böyük faciələr gətirdiyini deyən qonaq, Fransa hökumətinin Numeya və Matinyon müqavilələrindən irəli gələn öhdəliklərini hələ də yerinə yetirmədiyini diqqətə çatdırıb. O qeyd edib ki, özünü dünyada azadlıq və demokratiya carçısı kimi qələmə verən Fransa insanların təməl hüquqlarını heçə sayaraq yürütdüyü müstəmləkəçilik siyasəti ilə Yeni Kaledoniyada qeyri-sabitliyə gətirib çıxaran prosesləri fəal şəkildə dəstəkləməkdədir.

Spiker Sahibə Qafarova Azərbaycanın beynəlxalq münasibətlər sisteminin fəal iştirakçısı kimi hər zaman sülh, əməkdaşlıq, qarşılıqlı etimad və anlaşma, davamlı inkişaf kimi meyarları əsas götürdüyünü vurğulayaraq diqqətə çatdırıb ki, bu məqamlar Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyətində, Qoşulmama Hərəkatına sədrliyində, ikitərəfli və çoxtərəfli əməkdaşlığında hər zaman ön planda olub. Azərbaycan bəşəriyyət üçün aktual olan məsələlərə diqqət ayırıb, ölkələrin və xalqların üzləşdiyi ədalətsizliklərin aradan qaldırılması istiqamətində fəal iş aparıb. Milli Məclisin Sədri xüsusilə qeyd edib ki, Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü təşəbbüslər həm hərəkatın institusional inkişafı, həm də hərəkata üzv ölkələrin maraqlarının beynəlxalq arenada müdafiəsi baxımından çox əhəmiyyətli olub.

Spikerin sözlərinə görə, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə diqqət yetirdiyi əsas məsələlərdən biri də neokolonializmə qarşı mübarizə olub. Spiker təəssüflə deyib ki, XXI əsrdə müstəmləkəçilik təfəkkürü hələ də davam etməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev neokolonializmi keçmişin utancverici mirası adlandırıb. Bu mirası davam etdirən ölkələrdən ən birincisi də Fransadır.

Görüşdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə yaradılmış Bakı Təşəbbüs Qrupunun fəaliyyətindən bəhs edilərək, Təşəbbüs Qrupunun Fransanın neokolonializm siyasətinin ifşası istiqamətində səyləri təqdir olunub. Milli Məclis bu fəaliyyətə dəstək verir.

Milli Məclisin Sədri qonaqların diqqətinə çatdırıb ki, keçmişdə öz müstəmləkələrində apardığı qeyri-qanuni fəaliyyətlərə, törətdiyi cinayətlərə görə üzr istəmək əvəzinə, Fransa öz müstəmləkə siyasətini yeni formalarla, metodlarla davam etdirir, özünün dənizaşırı ərazilərindəki xalqların azadlıq istəklərinə, müstəqil olmaq hüquqlarına hörmət etmir, bütün vasitələrlə onların qarşısını almağa çalışır.

Sahibə Qafarovanın sözlərinə görə, neokolonializm siyasətinin əsasında irqçilik, ksenofobiya, özünü, öz hüquqlarını, mənafelərini digərlərindən üstün tutmaq dayanır.

Yeni Kaledoniyada əhalinin yarıdan da çoxunun iştirakı olmadan keçirilmiş referendumun nəticələri və törədilən əngəllər barədə danışan Milli Məclisin Sədri XXI əsrdə Fransanın belə primitiv vasitələrə əl atmaqla xalqların hüquqlarını kobud şəkildə pozmasının qəbuledilməz olduğunu deyib.

Cənubi Qafqazda cərəyan edən proseslərdən danışan spiker Sahibə Qafarova bildirib ki, Fransa öz tarixində qara ləkə olan kolonializmi yalnız öz keçmiş müstəmləkələrində, zor gücünə öz hakimiyyəti altında saxladığı ərazilərdə deyil, həm də digər regionlarda, həmçinin Cənubi Qafqaz regionunda davam etdirmək niyyətindədir.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalı dövründə münaqişənin həlli ilə məşğul olan Minsk qrupunun üzvü kimi yarıtmaz fəaliyyət göstərmiş Fransa təəssüf ki, bu gün də Cənubi Qafqazda sülh səylərini, sabitliyi pozmağa yönəlmiş siyasət həyata keçirir. Fransa regionda gərginliyi artırır, militarizmi təhrik edir. O, təəssüflə Fransanın bu gün Azərbaycana qarşı bütün müstəvilərdə hücuma keçdiyini, beynəlxalq platformalarda mümkün vasitələrdən istifadə edərək ölkəmizə qarşı qarayaxma kampaniyası apardığını diqqətə çatdırıb.

Görüş zamanı vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin də dediyi kimi, Azərbaycan müstəqil və güclü ölkədir. Heç kim bizə təzyiq göstərə bilməz. Ölkəmizin siyasəti yalnız sülhün, əməkdaşlığın təşviqinə, ədalətsizliyə qarşı mübarizəyə yönəlibdir. Sahibə Qafarova deyib ki, Azərbaycan parlamentinin üzvləri Fransanın ikiüzlü siyasətini qətiyyətlə pisləyir və bu ölkənin neokolonializm siyasətinin ifşası istiqamətində səylər göstərir.

Söhbət zamanı Azərbaycan parlamentinin dünyanın bir çox ölkələrinin parlamentləri ilə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından söz açılıb, 2021-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Parlament Şəbəkəsinin fəaliyyəti haqqında məlumat verilib.

Görüşdə Yeni Kaledoniya nümayəndə heyətinin rəhbəri ölkəsinin üzləşdiyi iqlim dəyişikliklərindən yaranan çağırışlar barədə də danışaraq Azərbaycanın evsahibliyi ilə keçiriləcək COP29-un dünyada bu istiqamətdə mövcud olan problemlərin həllinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə həmçinin humanitar sahədə əməkdaşlıq, gənclər arasında əlaqələrin genişlənməsinin xalqların daha da yaxınlaşmasına töhfələri barədə də fikirlər ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan Milli Məclisi ilə Yeni Kaledoniya Konqresi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sənədi Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova və Yeni Kaledoniya Konqresinin sədri Rok Vamitanın adından Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Naisseline Omayra imzalayıblar.**



İmzalanma mərasimində spiker Sahibə Qafarova deyib ki, bu sənəd parlamentlərimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün hüquqi bazanın formalaşdırılması baxımından vacib əhəmiyyətə malikdir və əməkdaşlığımızın çərçivəsini müəyyən edəcək.

Qeyd edək ki, memorandumda bir sıra vacib məqamlar əks olunub. Sənəddə Azərbaycan Respublikası və Yeni Kaledoniya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi naminə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi niyyəti ifadə olunub. Bu məqsədlə qanunvericilik orqanlarımızın komissiyaları, komitələri və orqanları arasında daimi əlaqələrin yaradılmasına kömək göstərilməsi, həmçinin parlament və beynəlxalq fəaliyyət təcrübələrinin öyrənilməsi və bölüşülməsi məqsədilə parlament üzvlərindən ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili nəzərdə tutulub.

Sənəddə tərəflər arasında əməkdaşlığı inkişaf etdirmək üçün deputatlardan ibarət müvafiq qrupun yaradılması və bu qrupun fəaliyyətinin hər vasitə ilə təşviq edilməsi öz əksini tapıb. Bunlarla yanaşı, Azərbaycan Respublikası ilə Yeni Kaledoniya arasında beynəlxalq parlament arenasında əməkdaşlığın müxtəlif istiqamətlərinin araşdırılması, nəzərdən keçirilməsi, inkişaf etdirilməsi və həyata keçirilməsi üçün fəal səylərin göstərilməsi nəzərdə tutulur. Tərəflər qanunvericilik orqanlarının səmərəli fəaliyyətinə müsbət töhfə verə biləcək təcrübə mübadiləsinin aparılması məqsədilə Azərbaycan Respublikası Milli Məclisinin Aparatı ilə Yeni Kaledoniya Konqresinin Bürosu arasında daimi əlaqələrin yaradılmasına da razılıq veriblər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Milli Məclisdə *"Yeni Kaledoniya: Tarix, müasir çağırışlar və gözlənilən gələcək"* mövzusunda elmi konfrans keçirilib



**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirin moderatoru Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc aparılacaq müzakirələrin əhəmiyyətindən söz açıb. Son illər ölkəmizin müasir müstəmləkəçilik əleyhinə hərəkatın önündə getdiyini təqdirlə vurğulayan komitə sədri Azərbaycan Respublikasının Milli Məclisi ilə Yeni Kaledoniya Konqresi arasında əməkdaşlıq haqqında memorandumun imzalanmasının parlamentlərimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün hüquqi bazanın formalaşdırılması baxımından əhəmiyyətini qeyd edib.**

Zahid Oruc 44 günlük Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsindən sonra Fransanın ölkəmizə qarşı aşkar ədalətsiz mövqe tutmasının onun müxtəlif diplomatik-siyasi pərdələrlə örtülən çirkin imperialist siyasətini ifşa etdiyini bildirib. Ölkəmiz əleyhinə kampaniya aparan rəsmi Parisin Cənubi Qafqazda hər bir vəchlə mənzillənmək cəhdləri, Ermənistandan alət kimi faydalanmaq planı onun müstəmləkə siyasətinin mahiyyətindən irəli gəlir. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev neoimperial siyasətlərə qarşı əzmlə və qətiyyətlə dayanıb. Bu məqsədlə yaradılan Bakı Təşəbbüs Qrupu dövlətimizin siyasi iradəsinin nümayişidir.

Tədbirin moderatoru çıxışında özlərini insan hüquqlarının məbədi sayan bəzi Qərb dairələrinin, xüsusən Fransanın müasir dövrdə də müstəmləkəçiliyi davam etdirməsindən danışıb. Yeni Kaledoniyanın müstəqillik mübarizəsinin canlanmasında Azərbaycanın Vətən müharibəsində qazandığı parlaq Qələbənin təsirini qeyd edən Zahid Oruc diqqətə çatdırıb ki, Fransa nə qədər belə təşəbbüslərin qarşısını almağa çalışsa da, Azərbaycanın antikolonializm siyasətinin parlaq nəticələr verəcəyinə şübhə ola bilməz.

Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Naisseline Omayra hazırda Yeni Kaledoniya adasını öz müstəmləkəsi kimi idarə edən Fransanın yerli kanak xalqına qarşı yürütdüyü imperialist siyasətindən, hüquqlarının pozulmasından söz açıb, onların azadlıq mübarizəsindən və bu mübarizədə üzləşdiyi çətinliklərdən bəhs edib. O bildirib ki, Fransa Yeni Kaledoniya xalqının öz müqəddəratını özünün təyin etməsi və müstəqil olması ilə bağlı üzərinə götürdüyü öhdəliklərə əməl etmir, konstitusiyaya, seçki qanunvericiliyinə müdaxilə edərək yerli xalqın hüquqlarını məhdudlaşdırmağa çalışır.

Naisseline Omayra Yeni Kaledoniyanın apardığı azadlıq mübarizəsinə verdiyi dəstəyə görə Azərbaycana minnətdarlığını bildirib, tədbirin keçirilməsinə görə Milli Məclisə təşəkkür edib. O deyib ki, parlamentlərimiz arasında bağlanan əməkdaşlıq memorandumu Yeni Kaledoniyaya bir çox sahələrdə yeni qapılar açacaq.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanın Qarabağ zəfərinin müasir dünyaya xalqların rifahının və hüquqlarının təmin edilməsinin daha bir nümunəsini göstərdiyini bildirib. O vurğulayıb ki, Fransanın Azərbaycana qarşı ədalətsiz mövqeyi, öz imperialist siyasəti ilə Yeni Kaledoniya kimi dövlətləri əsarətdə saxlaması demokratiya prinsiplərinə və insan hüquqlarının aliliyinə ziddir.

Komitə sədri belə bir inam ifadə edib ki, vaxt gələcək, Yeni Kaledoniya xalqı da müstəqillik mübarizəsindən qalib çıxacaq və müstəmləkəçiliyə son qoyacaq.

Tədbirdə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Azərbaycan Respublikasının beynəlxalq arenada dekolonizasiya prosesini təşviq etməsindən, müstəmləkəçilikdən əziyyət çəkən xalqların haqlı mübarizəsini dəstəkləməsindən danışıb, rəhbərlik etdiyi qurumun fəaliyyəti, kolonializmlə mübarizə istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verib.

Konfransda Milli Məclisin deputatları Musa Qasımlı, Tural Gəncəliyev, Anar İsgəndərov, Cavanşir Feyziyev, Hikmət Məmmədov, Elşən Musayev, Şahin İsmayılov, Elman Nəsirov, Yeni Kaledoniya parlament nümayəndə heyətinin üzvləri - senatorlar Ludovik Bula və Moris Vimian, Mare şəhərinin bələdiyyə müşaviri Janin Guaenere, Senat Katibliyinin əməkdaşı Jan İv Poedi, AMEA-nın Tarix və Etnologiya İnstitutunun baş direktoru Kərim Şükürov, həmçinin Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini Eynulla Mədətli, BDU-nun dekanı Rahim Məmmədov çıxış ediblər. Çıxış edənlər Fransanın yeni müstəmləkəçilik siyasəti, xalqları əsarətdə saxlaması, onların təbii sərvətlərini talan etməsi və digər məsələlər barədə fikirlərini bildiriblər.

Yeni Kaledoniya parlament nümayəndə heyətinin üzvləri Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi onların ədalət və azadlıq uğrunda apardıqları haqlı mübarizədə göstərdiyi ardıcıl dəstəyə və konfransın ölkəmizdə təşkilinə görə minnətdarlıqlarını ifadə ediblər.

Konfransda Milli Məclisin deputatları - Asim Mollazadə, Pərvin Kərimzadə, Könül Nurullayeva, Sevil Mikayılova, Aqiyə Naxçıvanlı, Əziz Ələkbərov, parlament Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov, Yeni Kaledoniya parlamentinin nümayəndə heyəti, akademik dairələrin, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin təmsilçiləri və digər şəxslər iştirak ediblər.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Yeni Kaledoniya Konqresinin nümayəndə heyətinin ölkəmizə səfərinin yekunlarına dair mətbuat konfransı keçirilib

**Aprelin 18-də ölkəmizdə səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin yekunlarına dair Milli Məclisdə mətbuat konfransı keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, nümayəndə heyətinin rəhbəri onun ölkəsinin azadlıq mübarizəsində verilən dəstəyə görə Azərbaycan hökumətinə, Qoşulmama Hərəkatına və Bakı Təşəbbüs Qrupuna öz təşəkkürünü bildirib. Qonaq diqqətə çatdırıb ki, bu gün Azərbaycan Respublikasının Milli Məclisi ilə Yeni Kaledoniya Konqresi arasında imzalanmış Əməkdaşlıq haqqında Memorandum daha səmərəli əməkdaşlığa öz töhfəsini verəcək.

Mətbuat konfransında jurnalistlərin suallarını cavablandıran xanım Naisseline Omayra Yeni Kaledoniyanın müstəqillik uğrunda mübarizəsi və bu ölkənin BMT ilə əməkdaşlığı, 1980-ci illərdən müstəmləkədən azad edilməli dövlətlər siyahısına salınmasına baxmayaraq, öz müqəddəratını təyinetmə məqsədilə keçirilmiş referendumlara Fransanın müdaxilə edərək nəticələri saxtalaşdırması, bu ölkənin öz müstəmləkəsi hesab etdiyi xalqların azadlıq mübarizəsini boğması və bu məqsədlə qanunvericiliyə dəyişikliklər etməyə çalışması, imzalanmış sazişlərə baxmayaraq, Fransanın öz öhdəliklərinə əməl etməməsi barədə fikirlərini açıqlayıb. O bildirib ki, keçirilmiş referendumun nəticələrinə üçüncü baxışın düzgün aparılmaması ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə müraciət olunub. Çünki bu, Kaledoniya xalqı üçün mühüm əhəmiyyət kəsb edir.

Mətbuat konfransında jurnalistlərin suallarına cavab verən Yeni Kaledoniya Konqresinin nümayəndə heyətinin üzvləri Jan-İv Poedi, Moris Vimian Fransanın assimilyasiya siyasətini tənqid ediblər. Onlar Kaledoniya xalqının milli mənsubiyyətini, mədəniyyətini qoruması üçün gördüyü tədbirlər, bu ölkədə müstəqillik tərəfdarı olan hərəkatların fəaliyyəti, gələcək nəsillərin öz milli kimliyinə bağlı insanlar kimi tərbiyə olunması üçün tədris proqramlarının əhəmiyyəti barədə fikirlərini bölüşüblər.

*"Azərbaycan"*

# Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti Bakı Təşəbbüs Qrupunun ofisində olub

**Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 18-də Bakı Təşəbbüs Qrupunun ofisində olub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov nümayəndə heyətini bu qurumun fəaliyyət istiqamətləri, məqsədləri və gələcək planları barədə məlumatlandırıb.

Söhbət zamanı Yeni kaledoniyalı parlamentarilər iki ölkənin nümayəndələri arasında fikir mübadiləsinin genişləndirilməsi üçün yaratdığı şəraitə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını ifadə ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonda nümayəndə heyəti tərəfindən Bakı Təşəbbüs Qrupunun ofisinə xatirə hədiyyəsi təqdim olunub.

*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 213

## QƏRAR

Bakı şəhəri, 17 aprel 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 fevral tarixli 112 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "8711 10 000 0" alt yarımmövqeyinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8711 10 000 | - - mühərrikinin silindrlərinin işçi həcmi 50 sm³-dən çox olmayan porşenli daxiliyanma mühərrikli: | | |
| 8711 10 000 1 | - - - konstruksiyası ilə (və ya texniki göstəriciləri ilə) müəyyən olunan maksimal sürəti saatda 50 km-dən çox olan | əd | 15 |
| 8711 10 000 9 | - - - digərləri | əd | 15 |

1.2. "8711 60 900 0" alt yarımmövqeyinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8711 60 900 | - - digərləri: | | |
| 8711 60 900 1 | - - - konstruksiyası ilə (və ya texniki göstəriciləri ilə) müəyyən olunan maksimal sürəti saatda 50 km-dən çox olan | əd | 15 |
| 8711 60 900 9 | - - - digərləri | əd | 15 |

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qətiyyətin təntənəsi

## Sülhməramlılar ərazilərimizi vaxtından əvvəl tərk edirlər



*Əvvəli 1-ci səh.*

### Qətiyyətli siyasətin nəticəsi

Prezident İlham Əliyevin ölkəmizlə bağlı əldə etdiyi bu misilsiz nailiyyətlər həm də Cənubi Qafqazda reallıqları tamamilə dəyişib, zamana uyğun yeni gerçəkliklər diktə edib. Bunlardan biri də Azərbaycan və Rusiya ali rəhbərliklərinin qərarı ilə Rusiya Federasiyasının sülhməramlı kontingentinin ölkəmizi zamanından əvvəl tərk etməsidir. Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən üçtərəfli Bəyanat imzalanıb. Bəyanata əsasən bir vaxtlar erməni separatçılarının mövcud olduğu Qarabağda Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilmişdi. Həmçinin bəyanatda sülhməramlı kontingentin qalma müddətinin 5 il olduğu öz əksini tapmışdı.

2023-cü ilin sentyabrında Azərbaycanın həyata keçirdiyi 23 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağdakı erməni separatçılarının mövcudluğuna son qoyuldu, suverenliyimiz tam təmin edildi. Bununla həm faktiki olaraq Ermənistan tərəf kimi bu prosesdən tamamilə kənarda qaldı, həm də Rusiya sülhməramlılarının fəaliyyətinə bölgədə ehtiyac qalmadı. Bu, rəsmi şəkildə də təsdiqini tapdı və vaxtından əvvəl Rusiya sülhməramlı kontingenti Azərbaycan ərazilərini tərk etməyə başladı.

Xüsusi qeyd edək ki, Rusiya sülhməramlılarının ərazilərimizdən çıxarılmasında Prezident İlham Əliyevin şəxsi səyləri var. Hətta 10 noyabr Bəyanatında sülhməramlıların 2025-ci ilə qədər müvəqqəti olaraq yerləşdirilməsi maddəsinin əksini tapmasını məhz Prezident İlham Əliyev israr etmişdi.

Sözügedən bəyanatda "müvəqqəti" şərtinin qoyulması və prosesin məntiqi sonluğuna çatdırılması dövlət başçısı İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsidir.

### Sülhməramlıların çıxarılması niyə ABŞ-ni qane etmir?!

Azərbaycan ilə Rusiya arasında olan münasibətlər sülhməramlıların ərazilərimizdən çıxarılmasından sonra daha da inkişaf edəcək. Artıq Qarabağ münaqişəsi həll olunub və bu vəziyyətdə həmin ərazidə qoşunlarını saxlamağın mənasız olduğunu Rusiya da anladığı üçün bu addım atıldı. Bu baxımdan artıq münasibətlərdən hərbi komponentin çıxarılması daha yaxşı əməkdaşlıq üçün imkanlar açır. İki ölkə liderinin şəxsi münasibətlərinin ölkələrarası əlaqələri gücləndirən xüsusi faktor olduğu da danılmaz gerçəklikdir.

Ancaq Cənubi Qafqazda hadisələrin bu məcrada gedişi, sülhməramlıların ərazilərimizi tərk etməsi, konkret olaraq barış üçün bölgədə yaranan şərait başda ABŞ və Fransa olmaqla, Qərb dairələrini qane etmir. Bunu ABŞ Dövlət Departamentinin nümayəndəsinin sülhməramlıların çıxarılması ilə bağlı şərhində də aydın görmək mümkündür. Belə ki, Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel Rusiya sülhməramlı kontingentinin "daha dinc və sabit Cənubi Qafqaz regionuna töhfə verdiyini göstərən heç nə görmədiklərini" deyərək, Rusiyanın "etibarsız müttəfiq olduğuna" vurğu edib.

Gözlənildiyinin əksinə ABŞ-nin sülhməramlıların çıxarılmasını təqdir etmək əvəzinə, əks yöndə şərh etməsi Vaşinqtonun riyakarlığını bir daha ortaya qoyur.

Təzada baxın, indiyədək dünyanın bütün bölgələrindən Rusiyanı sıxışdırmağa çalışan ABŞ Qarabağdakı sülhməramlıların Azərbaycandan çıxarılmasına əks mövqe ilə yanaşır. Məsələn: ABŞ dəfələrlə Rusiyanı Dnestryanı, Abxaziya və Cənubi Osetiyadan sülhməramlı kontingenti çıxarmağa çağırıb, 2022-ci ilin yanvarında KTMT qüvvələrinin Qazaxıstandan çıxarılmasını alqışlayıb, amma mövzu Azərbaycan olanda nədənsə ABŞ-dən eyni reaksiyanı görmürük...

Hətta 2023-cü il sentyabrın 17-də İstanbulda Qarabağla bağlı gizli ABŞ-Rusiya-Aİ görüşünün timsalında ABŞ və Qərbin Azərbaycana qarşı hətta öz rəqibləri Rusiya ilə sövdələşməyə belə razı olduqları kimi riyakar və çirkin faktlar da var.

Bütün bunlar onu göstərir ki, ABŞ, ümumilikdə isə qərəzli Qərb dairələri bölgədə münaqişənin başa çatmasını yox, əksinə, savaşın başlamasını istəyirlər.

Lakin Azərbaycan öz milli maraqlarına təhdid olan bütün çirkin planları məhv etmək, məkrli ittifaqları darmadağın etmək gücündədir və bunu istər siyasi, istər diplomatik, istərsə də hərbi müstəvidə dəfələrlə sübut edib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Hərbi pilotlar təlim-məşq uçuşlarını yüksək peşəkarlıqla icra ediblər

**Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri təlim-məşq uçuşlarını icra ediblər.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb. Hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra praktiki uçuşlar yerinə yetirilib. Ssenariyə uyğun olaraq Su-25ML və Su-25 tipli təyyarələrdən müəyyən edilmiş marşrutlar üzrə gündüz vaxtı havaya qalxma, yerə enmə, həmçinin müxtəlif hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra edilib.



Hərbi pilotların döyüş hazırlığının təkmilləşdirilməsi məqsədilə keçirilən təlim-məşq uçuşları zamanı qarşıya qoyulan tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib.

# Şirvan kanalı bölgələrdə ekoloji tarazlığı və kənd təsərrüfatının inkişafını təmin edəcək

**Ölkəmizdə həyata keçirilən infrastruktur layihələr bir çox sahələri əhatə edir. Bu layihələr zəruriliyinə və miqyasına görə xüsusi əhəmiyyət kəsb edir, nəqliyyat, enerji, su, yol da daxil olmaqla, əhatə olunan sahələrin inkişafı ölkəmiz üçün olduqca vacibdir.**



Xüsusilə də işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən layihələr sürətinə və keyfiyyətinə görə dünyada icra olunan oxşar məzmunlu layihələrdən seçilir. Nəticə etibarı ilə Ermənistanın daşı-daş üstündə qoymadığı ərazilərə həyat qayıdır, evlər, xəstəxanalar, məktəblər tikilir, avtomobil yolları, enerji təchizatını təmin edən müəssisələr açılır. Qarabağda və Şərqi Zəngəzurda aparılan irimiqyaslı tikinti işləri ilə yanaşı, ekoloji tarazlığın qorunması və kənd təsərrüfatının inkişafı dövlət başçısının gündəliyində mühüm yer tutur.

Kənd təsərrüfatı sahəsinin inkişafı bu gün bir çox dövlətlər, eləcə də ölkəmiz üçün olduqca vacibdir. Azərbaycan dünyadakı azsaylı ölkələrdəndir ki, bir çox kənd təsərrüfatı məhsullarını idxal etmir, əksinə, ölkəmiz meyvə və tərəvəzin ixracı ilə məşğuldur. İxracın əsas səbəbi də torpağımızın məhsuldar, xalqımızın zəhmətkeş olması ilə birbaşa bağlıdır.

Lakin bu gün dünyada baş verən ekoloji tarazlığın pozulması fonunda ölkəmizdə də su ehtiyatlarında azalmalar baş verir. Quraqlığın artması gələcəkdə torpaqların şoranlaşmasını, sahələrdən səmərəli istifadə üçün yarana biləcək təhlükələri qaçılmaz edir.

Belə bir vəziyyətdə dövlət başçısı tərəfindən Şirvan suvarma kanalının əsasının qoyulması barədə imzalanmış sərəncam və eləcə də ölkə Prezidentinin bu kanalın təməlqoyma mərasimində iştirakı bu sahədə baş verə biləcək problemlərin qarşısını almağa xidmət edir. 1958-ci ildə əsası qoyulmuş Yuxarı Şirvan kanalı torpaqməcralı olması səbəbindən ötən illər ərzində öz məhsuldarlığını itirmiş, nəticədə ciddi su itkiləri yaranmışdır. Belə bir vəziyyətdə kanalın inşası olduqca ümidverici bir layihədir, belə ki, yeni kanal özündən əvvəlkindən həm məhsuldarlığına, həm də daha çox ərazini əhatə etməsinə görə fərqlənəcək.

Yuxarı Şirvan kanalı 8 rayonu əhatə etməklə 120 kilometrlik ərazidə idisə, yeni salınacaq kanal 10 rayonu əhatə edərək, əvvəlkindən 2 dəfəyə qədər böyük olacaq, ümumilikdə 200 kilometrdən artıq əraziyə xidmət edəcək. Bu ölkəmizdə meliorasiya sahəsində həyata keçirilən meqalayihədir.

Kanalın əsas təyinatı kənd təsərrüfatının inkişafını, suvarma işlərinin aparılmasını təmin etməkdən ibarətdir. Kanalın salınması ilə həm də Hacıqabul gölünün ekosisteminin yenidən qurulacağı proqnozlaşdırılır. Belə ki, bu göl 10 ildən artıqdır ki, quruyub və bu, özündə həm də ekosistemin məhvinə gətirib çıxarıb.

Ümumiyyətlə, bu sahələrə göstərilən diqqət, ekoloji tarazlığın qorunması, meliorasiya işlərinin aparılması istiqamətində görülən işlər kənd təsərrüfatının daha da inkişafına təsir göstərir. Əvvəllər açılışları həyata keçirilmiş kanallar, eləcə də su anbarları bölgənin hərtərəfli inkişafına töhfə verir. Növbəti il isə inşası planlaşdırılan Qarabağ kanalı kanalın əhatə edəcəyi ərazilərdə inkişafı sürətləndirəcək.

Torpaqlarımızın bir hissəsi işğal altında olduğu dövrdə Ermənistanın su resurslarını daim zəhərləməsi, habelə bu sahədə də yaratdığı əngəllər nəticəsində Ağdam, Tərtər və ətraf rayon və kəndlərimiz susuzluqdan əziyyət çəkirdilər, yekunda torpaqlar şoranlaşır, əkin-biçində çətinlik çəkirdilər.

Şanlı Zəfərimizlə başa çatan Vətən müharibəsi və antiterror tədbirləri ilə torpaqlarımızın düşmən işğalından azad olunması ilə həm də bu problem həllini tapdı. Belə ki, bu gün ölkəmizin su ehtiyatlarının 25 faizinin Qarabağ və Şərqi Zəngəzurun ərazisinə düşməsi kənd təsərrüfatının və sənayenin inkişafına xüsusi stimul verəcəkdir.

Sözügedən sahələrə diqqətin ayrılması həm məhsuldarlığın inkişafına, həm də ekologiyaya yüksək töhfə verəcək, yaxın gələcəkdə bu layihələrin uğurlarının şahidi olacağıq.

***Adil ƏLİYEV,***
***Milli Məclisin Sədr müavini***

# Dünya diplomatiyasında ən müsbət nümunələrdən biri

## Rusiya sülhməramlılarının Azərbaycan ərazilərindən vaxtından əvvəl çıxarılması tamamilə məntiqlidir

**2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya sülhməramlılarının ölkəmizdən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. Qərara əsasən, rusiyalı hərbçilərin Azərbaycan ərazilərindən çıxarılması prosesinə başlanılıb. Bu istiqamətdə hər iki ölkənin müdafiə nazirlikləri tərəfindən müvafiq tədbirlər həyata keçirilir.**



Qeyd edək ki, uzun müddətdir Rusiya sülhməramlı kontingentinin işğaldan azad olunmuş ərazilərdə fəaliyyəti müzakirə predmetinə çevrilmişdi. Xüsusən 2023-cü ilin sentyabrında Azərbaycanın keçirdiyi uğurlu antiterror tədbirlərindən sonra onların bütün ərazilərində suverenliyini bərpa etmiş ölkədə qalmasına ehtiyac olmadığı vurğulanırdı. 2020-ci il noyabr Bəyanatına əsasən sülhməramlıların 5 il müddətinə müvəqqəti yerləşdirilməsi qərarı bu prosesin 2025-ci ilə qədər uzanacağı təsəvvürünü formalaşdırmışdı. Amma iki ölkənin ali rəhbərliyi tərəfindən rusiyalı hərbçilərin Azərbaycan ərazilərindən vaxtından əvvəl çıxarılması ilə bağlı qərar qəbul olunmuşdur.

Mövzu ilə əlaqədar Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması iki ölkə arasında qəbul edilmiş razılığa əsasən həyata keçirilib.

Deputat vurğulayıb ki, bu, tamamilə məntiqlidir: "Rusiya silahlı qüvvələri 2020-ci ildən Azərbaycan ərazisində fəaliyyət göstərirdi. Bu gün onların ölkəmizin ərazisində qalması üçün hər hansı bir səbəb yoxdur. Beləliklə, üçüncü ölkənin müdaxiləsi olmadan iki ölkə bu məsələni öz aralarında həll etmək qərarındadırlar".

A.Mirzəzadə qeyd edib ki, bu, eyni zamanda Azərbaycanla Rusiya arasında qarşılıqlı etimadın yüksək olduğunu, bir-birinin ərazi bütövlüyünə, milli maraqlarına hörmətlə yanaşdığını, istənilən məsələnin öz aralarında danışıqlar, diplomatik yolla həllinin mümkünlüyünü göstərdi. Bu razılaşma dünya diplomatiyasında ən müsbət nümunələrdən biri kimi təqdir edilə bilər. Digər ölkələr də özlərinin daxili siyasətlərinə aid məsələləri Azərbaycan kimi həll etsələr, daha yaxşı olar. "Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması iki ölkə münasibətlərinin daha yüksək səviyyəyə çatdığını, bundan sonra da əlaqələrin mehriban qonşuluq münasibətləri şəraitində olacağını göstərir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# ABŞ Dövlət Departamenti AZƏRTAC-ın sorğusunu cavablandırıb

**ABŞ Dövlət Departamentinin Mətbuat xidməti aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli görüşündə Ermənistana geniş hərbi dəstəyin göstərilməsi məsələlərinin əksini tapdığı sənədin mətbuatda yayılmış fotosu ilə bağlı AZƏRTAC-ın ABŞ bürosunun sorğusunu cavablandırıb.**

"Bu sənəd sırf dezinformasiyadır, təhlükəsizlik məsələləri gündəmdə olmayıb. Biz sizin diqqətinizi aprelin 5-də Brüsseldə keçirilmiş üçtərəfli görüşün yekununda Avropa İttifaqı və Ermənistan ilə birlikdə qəbul etdiyimiz press-relizə yönləndirmək istərdik. Avropa İttifaqı və Ermənistan ilə birlikdə keçirilmiş Brüssel görüşündə diqqət yalnız ticarət tərəfdaşlıqlarını şaxələndirməyə və humanitar ehtiyaclarını həll etməyə çalışan Ermənistanın iqtisadi dayanıqlılığına, o cümlədən Ermənistanda demokratiya və qanunun aliliyi kimi sahələrdə davam edən islahatları dəstəkləməyə yönəlib", - deyə Dövlət Departamentinin Mətbuat xidmətinin sorğuya cavabında qeyd olunub.

Xatırladaq ki, Brüsseldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli görüşü ilə bağlı sənədlərdən birinin ötən gün fotosu yayılıb. Azərbaycan ictimaiyyətində geniş narahatlıq doğuran həmin fotodan da göründüyü kimi, üçtərəfli görüşlə bağlı daha əvvəldən verilən açıqlamaların əksinə, həmin sənəddə həm ABŞ-nin, həm də Avropa İttifaqının Ermənistana geniş hərbi dəstək göstərməsi əks olunub. AZƏRTAC məsələ ilə bağlı ABŞ Dövlət Departamentinə sorğu ünvanlayıb.

# Azərbaycanın və Ukraynanın COP29 ilə bağlı əməkdaşlığı müzakirə edilib

**Azərbaycan və Ukrayna Bakıda keçiriləcək COP29 ilə bağlı əməkdaşlıq məsələlərini müzakirə edib.**

AZƏRTAC xəbər verir ki, Ukraynanın ətraf mühitin mühafizəsi və təbii sərvətlər naziri Ruslan Strilets Azərbaycanın bu ölkədəki səfiri Seymur Mərdəliyevlə görüşündə hər iki tərəf COP29 çərçivəsində əməkdaşlığa hazır olduğunu bildirib.

Görüşdə qeyd olunub ki, Azərbaycan Ukraynanın Bakıda keçiriləcək COP29-da layiqli iştirakını dəstəkləməyə hazırdır.

Nazir həmçinin Ukraynanın "EcoZagroza" tətbiqinin fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, ekoloji məlumatların rəqəmsallaşdırılması təkcə Ukrayna deyil, həm də tərəfdaşlarımız üçün prioritet məsələdir.

Müzakirələr zamanı COP29 üçün birgə təşəbbüslərin hazırlanması məqsədilə əməkdaşlığın vacibliyi vurğulanıb.

# "Qida təhlükəsizliyi sistemi və onun vahid sağlamlıq konsepsiyasında rolu" mövzusunda dinləmə keçirilib



**Aprelin 18-də Milli Məclisin Aqrar siyasət komitəsində "Qida təhlükəsizliyi sistemi və onun vahid sağlamlıq konsepsiyasında rolu" mövzusunda ictimai dinləmə keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Rzayev bildirib ki, Milli Məclisin Sədri Sahibə Qafarova deputatlar tərəfindən səsləndirilən təklifləri, ictimaiyyətin marağını, qida təhlükəsizliyinin təmin edilməsinin vacibliyini nəzərə alaraq, belə bir dinləmənin təşkilini məqsədəuyğun hesab edib.

Tahir Rzayev dünyada baş verən iqlim dəyişikliklərinin, digər problemlərin müəyyən çətinliklər yaratdığını, qida çatışmazlığının, qida zəhərlənmələrinin insanların səhhətinə ciddi təsir göstərdiyini söyləyib. Vurğulayıb ki, ölkəmizdə qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində ardıcıl olaraq həyata keçirilən tədbirlər dövlət başçısının bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Komitə sədri son illərdə ölkədə qida təhlükəsizliyinin təmin edilməsi, qida məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, əhalinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyinin daha da artırılması istiqamətində təqdirəlayiq işlərin görüldüyünü bildirib. Qida Təhlükəsizliyi Agentliyinin yaradılması, "Qida təhlükəsizliyi haqqında" qanunun qəbul edilməsi, bununla bağlı qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində atılan addımlar, beynəlxalq əməkdaşlığın inkişafı bu sahədə fəaliyyətin dövlətin diqqət mərkəzində olduğunu və ictimaiyyət tərəfindən təqdir edildiyini deyib.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli qida təhlükəsizliyinin ölkədə yaradılan tarladan və fermadan süfrəyə qədər qida zəncirinin bütün mərhələlərini əhatə edən nəzarət sistemi olduğunu söyləyib. Bildirilib ki, ölkə Prezidentinin 29 aprel 2019-cu il tarixli 1143 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Proqramın icrası üçün təyin olunmuş 71 tədbirin ötən dövr ərzində 60 faizi həyata keçirilib.

Qeyd edilib ki, BMT-nin Azərbaycan Respublikası ərazisində son iki il ərzində qida zəncirinə nəzarətin qiymətləndirilməsi ilə bağlı apardığı monitorinqin nəticələrinə görə, Milli Məclisdə qəbul edilmiş "Qida təhlükəsizliyi haqqında" qanun son 10 ildə dünyada qəbul olunmuş ən mütərəqqi qanun kimi qiymətləndirilib.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov insan sağlamlığının təmin edilməsi üçün düzgün qidalanmanın ən zəruri amillərdən olduğunu bildirib. Bir sıra dünya ölkələrində sağlamlıq proqramlarının həyata keçirildiyini deyib. Müxtəlif xəstəliklərin əmələ gəlməsinin səbəblərindən birinin zərərli qidalanma ilə bağlı olduğunu söyləyib. Qida istehsalı və emalı sahəsində təhlükəsizlik qaydalarına əməl edilməsinin vacibliyini qeyd edib. İqlim dəyişikliklərinin fəsadlarının da ərzaq məhsullarına mənfi təsir etdiyini bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qida təhlükəsizliyi məsələsinin milli təhlükəsizliyin tərkib hissəsi olduğunu vurğulayıb. Bu sahənin hər zaman dövlətin diqqətində olduğunu qeyd edib. Bildirib ki, qida təhlükəsizliyi sahəsində dövlət siyasətinin düzgün həyata keçirilməsi əhalinin sağlamlığının qorunması baxımından böyük əhəmiyyət daşıyır. Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan qida məhsullarında dünyada "yaşıl" qalan az sayda olan ölkələrdən biridir.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, qida təhlükəsizliyi anlayışı insanların qidaya olan ehtiyaclarını, o cümlədən onların qidanı həm fiziki, həm də iqtisadi baxımdan əldə edə bilmək imkanını özündə ehtiva edir. Ölkə başçısı tərəfindən həyata keçirilən sosial siyasət bu imkanların əldə edilməsi üçün lazımi şəraitin yaradılmasını təmin edir. Komitə sədri qida istehsalının, qida məhsullarından səmərəli istifadənin əhəmiyyətindən danışıb, bununla bağlı maarifləndirmə işinin vacibliyini qeyd edib.

Mövzu ilə bağlı kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, Dövlət Gömrük Komitəsinin sədr müavini Cavad Qasımov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, İqtisadiyyat Nazirliyinin Antiinhisar və istehlak bazarına nəzarət Dövlət Xidmətinin rəis müavini İlqar Həsənov, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov, Səhiyyə Nazirliyinin İctimai səhiyyə və sanitar-epidemioloji nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova çıxış ediblər.

Milli Məclisin deputatları Fəzail Ağamalı, Məlahət İbrahimqızı, Azər Badamov, Jalə Əliyeva, Razi Nurullayev, Tahir Kərimli, Emin Hacıyev mövzu ilə bağlı fikir və qeydlərini açıqlayıblar.

Dinləmənin sonunda komitə sədri Tahir Rzayev çıxış edərək mövzu ətrafında səmərəli fikir mübadiləsinin aparıldığını söyləyib, iclas iştirakçılarına müzakirələrdə fəallıq göstərdiklərinə görə təşəkkürünü ifadə edib.

*"Azərbaycan"*

# Azərbaycan ilə Çin Baş prokurorluqları arasında hüquqi sahədə əməkdaşlıq genişlənir

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 57-ci iclasında iştirak etmək üçün Çin Xalq Respublikasının Makau Xüsusi İnzibati Bölgəsinə işgüzar səfərə gedib.**



Baş Prokurorluqdan verilən məlumata görə, aprelin 18-də Kamran Əliyev Çinin Ali Xalq Prokurorluğunun baş prokurorunun birinci müavini Tonq Cianminq və Makaunun baş prokuroru İp Son Sanq ilə ikitərəfli görüş keçirib.

Baş prokurorun birinci müavini və Makaunun baş prokuroru Azərbaycan və Çinin dost dövlətlər olduğunu bildirərək, bir çox sahəni əhatə edən uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayıblar.

Baş prokuror Kamran Əliyev qonaqpərvərliyə görə minnətdarlığını bildirərək ölkələrimiz arasında əsrlərboyu mövcud olan ikitərəfli əlaqələrin tarixindən danışıb. Müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyevin, hazırda isə Prezident İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycanın vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü daim dəstəklədiyini vurğulayıb.

Baş prokuror bu il sentyabrın 29-dan oktyabrın 2-dək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının ölkəmizdə keçiriləcəyini və bununla bağlı həmkarına dəvət məktubu ünvanladığını bildirib.

Daha sonra tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Elə həmin gün ölkəmizin baş prokuroru Kamran Əliyev Çinin Makau Xüsusi İnzibati Bölgəsinin İcra Hakimiyyətinin başçısı Ho İat Senqlə görüşüb.

Baş prokuror keçirdiyi görüşlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığını bildirərək bu proseslərdə Çin şirkətlərinin də yer aldığını qeyd edib.

Kamran Əliyev həmçinin dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyi barədə həmkarlarına məlumat verib.

Nümayəndə heyətinin Çin Xalq Respublikasına işgüzar səfəri davam edir.

*"Azərbaycan"*

# Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş rəsm sərgisi açılıb

**Aprelin 18-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş rəsm sərgisi açılıb. Sərginin açılış tədbirində rəsmi şəxslər, Naxçıvanda fəaliyyət göstərən rəssamlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



Əvvəlcə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, əməkdar rəssam Ülviyyə Həmzəyeva bildirib ki, sərgidə 2012-ci ildən Naxçıvanı dünyada tanıtmaq məqsədilə keçirilən "Naxçıvan - Bəşəriyyətin beşiyi" Beynəlxalq rəsm festivallarında iştirak etmiş xarici və yerli rəssamların əsərləri nümayiş etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvanın muxtariyyəti xalqımızın və dövlətimizin tarixi nailiyyətidir. Naxçıvanın muxtariyyəti digər sahələrlə yanaşı, bölgənin mədəni inkişafına da töhfələr verib. İstər Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində biz bu töhfələrin şahidi olmuşuq. Bugünkü tədbirin muxtariyyətin 100 illiyinə həsr olunması da Naxçıvan mədəniyyətinə və incəsənətinə mühüm töhfədir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən "Naxçıvan - Bəşəriyyətin beşiyi" Beynəlxalq rəsm festivallarının keçirilməsi də bu sahədə ilklərdən olub, diyarımızın qədim tarix və mədəniyyətinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edib.

Ali Məclisin Sədr müavini qeyd edib ki, incəsənət hər bir dövr üçün vacib sahədir. Texnologiyanın sıçrayışı dövründə belə incəsənət bizim həyata baxışımızı formalaşdıran sənət növüdür. Həm indiki dövrün hadisələrini gələcəyə çatdırmaq, həm də gələcək nəsillərin estetik zövqünü formalaşdırmaq baxımından faydalıdır. Doğma diyarımızın qədim tarixinin, zəngin mədəniyyətinin belə əsərlər vasitəsilə nümayiş etdirilməsi muxtariyyət tariximizə mühüm töhfə və gələcək nəsillərə dəyərli ərməğandır.

Anar İbrahimov Naxçıvanda fəaliyyət göstərən rəssamlara bu yolda uğurlar arzulayıb, sərginin təşkilinə görə təşəkkür edib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya Türkiyə və Azərbaycan arasındakı sarsılmaz dostluq və qardaşlıq münasibətlərindən, mədəni əlaqələrimizin davamlılığından danışıb, Naxçıvan Muxtar Respublikasının 100 illiyinin Türkiyədə müxtəlif tədbirlərlə və rəsm sərgiləri ilə qeyd olunmasını yüksək qiymətləndirib.

Rəssamlar Birliyinin sədri, əməkdar rəssam Ülviyyə Həmzəyeva Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş şüşə üzərində döymə əsərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Anar İbrahimova hədiyyə edib.

Baxış zamanı məlumat verilib ki, sərgidə "Naxçıvan - Bəşəriyyətin beşiyi" Beynəlxalq rəsm festivalının müxtəlif illərdə iştirak etmiş 52 rəssamın 54 əsəri nümayiş olunur. Əsərlərdə Naxçıvan təbiəti, abidələri, milli-mənəvi dəyərlərimiz rənglərin dili ilə dolğun şəkildə ifadə olunub.

Sərgi aprelin 20-dək davam edəcək.

# Azərbaycan QHT-ləri, Qarabağ və Şərqi Zəngəzur sakinləri Norveç Nobel Komitəsinə açıq məktub ünvanlayıblar

**Azərbaycanın qeyri-hökumət təşkilatları (QHT), Qarabağ və Şərqi Zəngəzur sakinləri Norveç Nobel Komitəsinə açıq məktub ünvanlayıblar. AZƏRTAC məktubu təqdim edir:**

"Hörmətli Norveç Nobel Komitəsinin rəhbərliyi və üzvləri.

Biz - Azərbaycan QHT-lərinin, Qarabağ və Şərqi Zəngəzur sakinlərinin təmsilçiləri olaraq, Ruben Vardanyanın Nobel Sülh Mükafatına namizəd kimi irəli sürülməsi barədə mediada yayılmış xəbərləri hiddətlə qarşılayır, bu barədə Azərbaycan ictimaiyyətinin qəti mövqeyini diqqətinizə çatdırmaq istəyirik.

Ruben Vardanyanın həyat və fəaliyyəti Nobel Sülh Mükafatının rəhbər tutduğu ideal və dəyərlərə təhqir səciyyəsi daşıyır, bu adların yanaşı çəkilməsinin özü belə bu ali mükafatın dünyada qəbul edilmiş yüksək nüfuzuna ləkə gətirə, beynəlxalq ictimaiyyəti çaşdıra bilər.

Çirkli pulların yuyulması ilə sərvət toplamış kriminal ünsür, terrorçuluğu maliyyələşdirən sima kimi Ruben Vardanyan barədə ağır ittihamlar var. O, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış və sonradan özünü buraxmış qondarma separatçı rejimin - hərbi xuntanın bir müddət aparıcı rəhbər şəxslərindən biri olub.

Həmin dövrdə onun məhz sülhə əngəl olmaq niyyəti ilə Qarabağa gəlişi və ardıcıl yaydığı təxribat xarakterli açıqlamalar vəziyyəti artan xətt üzrə gərginləşdirib, o, Azərbaycan və Ermənistan arasında normallaşma prosesini pozmağa çalışıb.

Beynəlxalq hüququn normalarını heçə sayan Vardanyan Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təhdid edib, fəaliyyəti ilə Azərbaycan ərazisində "boz zona"nın saxlanmasını təşviq edib, azərbaycanlı məcburi köçkünlərin Xankəndiyə, Xocalıya və digər yaşayış məntəqələrinə qayıdışına mane olub.

Ruben Vardanyan kimiləri üçün çirkli pullardan müqəddəs heç nə yoxdur. Onu həmin dövrdə Qarabağa gətirmiş əsas motivlərdən birinin də məhz Ermənistan ordusunun Qarabağdakı tör-töküntülərini yenidən təşkilatlandırmaq yolu ilə Azərbaycanın bu ərazilərdəki qızıl və mis-molibden yataqlarını qanunsuz istismar etmək və daşımaq olması istisna deyil.

Ruben Vardanyan 2023-cü ilin sentyabrında Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Qarabağdan qaçmaq istəyərkən saxlanılıb. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin terrorçuluğu maliyyələşdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə maddələri ilə ittiham olunur. Hazırda barəsində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Ruben Vardanyanın bir çox ölkələrdə qaranlıq maliyyə fəaliyyətinə dair ciddi şübhələr var. 2019-cu ildə OCCRP (Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi) Vardanyanın qanunsuz fəaliyyəti ilə bağlı "Troyka Camaşırxanası" adlı araşdırma hesabatını dərc edib. Bu hesabatda Ruben Vardanyanın da iştirak etdiyi iddia edilən qeyri-qanuni fəaliyyətlərdən ibarət mürəkkəb şəbəkə ifşa edilib. 2019-cu ilin martında Avropa Parlamentinin üzvləri Avropa Komissiyasının sədrinə məktub yazaraq, "Troyka Dialoq"un keçmiş sahibi Ruben Vardanyana və "Troyka Dialoq"un "offşor sistemi" ilə əlaqəsi olan digər şəxslərə qarşı sanksiyaların tətbiq edilməsinin zəruriliyini bildiriblər. Məktubu Böyük Britaniya, İsveç, Almaniya və digər ölkələri təmsil edən 22 avropalı deputat imzalayıb.

Çirkli pullarla biznes imperiyası qurmuş beynəlxalq maliyyə fırıldaqçısı Ruben Vardanyanın əli dünyada günahsız insanların qanına bulaşıb, o, qanunsuz yollarla qazanc götürmək istədiyi hər yerdə terrorçuluğu maliyyələşdirməkdə iştirak edib.

Nobel Sülh Mükafatı özündə Alfred Nobelin təşviq etmək istədiyi sülh, barışıq və beynəlxalq əməkdaşlıq ruhunu təcəssüm etdirir. Biz Norveç Nobel Komitəsini çoxsaylı cinayətlərdə ittiham olunan Ruben Vardanyanla əlaqədar məsələyə yanaşmada Azərbaycan ictimaiyyətinin bu şəxs barədə aydın və qəti mövqeyini nəzərə almağa çağırırıq.

**İmzalar:**

1. Fatma Səttarova - Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının İdarə Heyətinin sədri;
2. Ramil İskəndərli - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri;
3. Azər Allahverənov - "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri;...

**Cəmi 206 imza**

# MDB PA-nın Sosial siyasət və insan hüquqları daimi komissiyasının iclası keçirilib

**Aprelin 18-də MDB PA-nın Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvləri - MDB PA-nın Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının sədri Nizami Səfərov, komissiyanın üzvü Anatoliy Rafailov iştirak ediblər.

Milli Məclisin deputatı Nizami Səfərovun sədrlik etdiyi onlayn iclasda parlamentarilər VIII Sankt-Peterburq Beynəlxalq Əmək Forumunun yekunları, pandemiya dövründə miqrasiya proseslərinin qanunvericiliklə tənzimlənməsinə dair tövsiyələrin layihəsi və gündəliyin digər məsələləri ətrafında müzakirələr aparıblar, həmçinin MDB ölkələrində model qanun yaradıcılığının 2023-2025-ci illər üzrə perspektiv planına təklifləri nəzərdən keçiriblər.

Tədbirin sonunda komissiyanın növbəti iclasının gündəliyi və tarixi müəyyənləşdiriblər.

*"Azərbaycan"*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

# ABŞ həqiqəti təkzib edir

## Brüsseldə Ermənistana ediləcək hərbi yardımı təsdiqləyən sənədin imzalanması Vaşinqton və Aİ-nin bütün yalanlarını ifşa etdi



**ABŞ Dövlət Departamenti aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli görüşündə Hayastana geniş hərbi dəstəyin göstərilməsi məsələlərinin əksini tapdığı sənədi "dezinformasiya" adlandırıb.**

Departament iddia edib ki, həmin görüşdə təhlükəsizlik məsələləri gündəmdə olmayıb, guya diqqət yalnız ticarət tərəfdaşlıqlarını şaxələndirməyə və humanitar ehtiyaclarını həll etməyə çalışan Ermənistanın iqtisadi dayanıqlılığına, o cümlədən bu ölkədə demokratiya və qanunun aliliyi kimi sahələrdə davam edən islahatları dəstəkləməyə yönəlib.

### Ağ Evin "qara siması"

Görəsən, Dövlət Departamenti konkret fakt kimi yayılan sənədi niyə təkzib edir? Axı Brüsseldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli görüşü ilə bağlı yayılan sənədlərdən birinin fotosundan da göründüyü kimi, üçtərəfli görüşlə bağlı daha əvvəldən verilən açıqlamaların əksinə, həmin sənəddə həm ABŞ-nin, həm də Avropa İttifaqının Ermənistana geniş hərbi dəstək göstərməsi əks olunub.

Hadisələrin bu cür inkişafı ABŞ-nin geosiyasi ambisiyalarını nəzərə alsaq, təəccüblü deyil və kifayət qədər gözləniləndir.

Bir qədər əvvələ qayıdaraq aprelin 5-də keçirilmiş Brüssel görüşündən sonra ABŞ Dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Cozep Borelin mətbuat qarşısında çıxışlarında bəyan edildi ki, Aİ 4 il ərzində Ermənistana 270 milyon avro qrant, Birləşmiş Ştatlar isə 65 milyon dollardan çox yardım edəcək. Amma diplomatlar Ermənistana "təhlükəsizlik təminatı" və ya hərbi yardım veriləcəyi barədə heç nə demədilər.

Amma yayılan yeni sənəd təsdiq edir ki, Brüssel görüşündə bağlı qapılar arxasında tərəflər arasında hərbi pakt bağlanıb. Bu əməkdaşlığa əsasən, ABŞ İrəvana Strateji Müdafiə İcmalının aparılması və Ermənistan üçün yeni hərbi doktrina hazırlanması üçün ekspert dəstəyi verəcək. Bu məqam Ermənistanla ABŞ arasında hərbi əməkdaşlığın əhəmiyyətli dərəcədə dərinləşməsindən xəbər verir. Strateji müdafiə baxışı və yeni hərbi doktrinanın hazırlanması təkcə cari müdafiə strategiyalarının nəzərdən keçirilməsinə deyil, həm də Ermənistanın milli təhlükəsizlik məsələlərinə yanaşmasının tamamilə yenidən baxılmasına hesablanıb.

ABŞ-nin təmsil etdiyi Ermənistanın Qərb tərəfdaşları öz təhlükəsizlik qüvvələrinin bütün aspektlərini və potensial zəifliklərini qiymətləndirməli, həmçinin erməni tərəfinə yeni geosiyasi reallıqlara, maraqlara uyğun doktrina formalaşdırmağa kömək etməli olacaqlar.

Təbii ki, hərbi doktrinada bu cür dəyişikliklər ABŞ-nin aktiv maliyyə və texniki dəstəyi ilə müşayiət olunacaq ki, bu da Qərbin Cənubi Qafqazda sabitliyə təsir edən proseslərdə fəal iştirak etmək istəyini təsdiqləyir. Deməli, görüşdə açıqlanan 65 milyon dollar "aysberqin görünən hissəsidir".

### ABŞ və Aİ İrəvana hansı hərbi yardımları göstərəcəklər?!

Həmin sənədə əsasən, Birləşmiş Ştatlar Ermənistanın hərbi və müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə inkişaf etdirmək, İranla sərhədə xüsusi diqqət yetirməklə, sərhəd nəzarətini və təhlükəsizliyi gücləndirmək üçün lazımi yardım göstərəcək.

Bu məsələ Ermənistan-İran sərhədinin Rusiya sərhədçiləri tərəfindən mühafizəsi kontekstində xüsusilə aktualdır.

Söhbət ABŞ-nin Ermənistan ərazisindən kəşfiyyatı üçün məhdudlaşdırıcı amil olan Rusiya sərhədçilərinin yaxınlaşan dəyişdirilməsindən gedir. Bu baxımdan İranın reaksiyası maraq doğurur. Ehtimal etmək lazımdır ki, İranın ali rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayətinin ABŞ və NATO-nun regionun işlərinə qarışmaq istəməsi ilə bağlı son bəyanatından da göründüyü kimi, Tehran İrəvanın oyununu anlayıb. Vilayətinin sözlərinə görə, NATO-nun Brüsseldə keçirilmiş sammiti çərçivəsində bəyan edilmiş məqsəd "sülhün bərqərar olması" olduğu halda, Qafqaz regionunun işlərinə qeyri-qanuni müdaxilə barədə qərar qəbul edilib: "Bu davranış göstərir ki, bu qrup ölkələr gərginliyi artırmaq istəyir və region ölkələrinin təhlükəsizliyi və müstəqilliyi bahasına hərbi mövcudluğa bəhanə yaradırlar".

Maraqlıdır, görəsən, bundan sonra İranın Ermənistana qarşı münasibətlərində bir dəyişiklik olacaqmı?!

Sənədə əsasən, ABŞ Ermənistanın KTMT-nin Birgə Hava Hücumundan Müdafiə sisteminə inteqrasiyasını nəzərə alaraq, hava qüvvələrinin və hava hücumundan müdafiə imkanlarının yerində qiymətləndirilməsi üçün Ermənistana analitik qruplar göndərəcək. Birləşmiş Ştatlar Ermənistanın qabaqcıl hərbi texnika və yeni texnologiyalara çıxışını asanlaşdırmaq üçün xarici hərbi maliyyələşdirmə (FMF) vəsaiti ayıracaq.

Bundan əlavə, ABŞ Silahlı Qüvvələri qarşılıqlı fəaliyyətin təmin edilməsi üçün Ermənistan Silahlı Qüvvələri ilə birgə hərbi təlimlərdə iştirak edəcək. ABŞ Beynəlxalq Hərbi Təhsil və Təlim (IMET) proqramı vasitəsilə Ermənistanın müdafiə qabiliyyətini gücləndirəcək. ABŞ bütün Ermənistan ərazisində GPS texnologiyasının geniş tətbiqini sürətləndirməyə çalışacaq.

### Ermənistana öldürücü silahların verilməsinə dair razılığa gəliblər

Eyni zamanda Avropa İttifaqı Ermənistan Silahlı Qüvvələrinə dəstək məqsədilə Avropa Sülh Fondu (AƏF) çərçivəsində yardım paketini qəbul edəcək. Bu paket Ermənistanın müdafiə sektorunda milli təhlükəsizliyini, sabitliyini və dayanıqlılığını gücləndirmək məqsədi daşıyır. O həmçinin əməliyyat səmərəliliyini artıracaq, Aİ və NATO standartlarına uyğunluğu sürətləndirəcək və Ermənistan silahlı qüvvələrinin qarşılıqlı fəaliyyətini təmin edəcək. Yardım paketi həmçinin Ermənistan Silahlı Qüvvələrinin Aİ-nin Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (CSDP) çərçivəsində əməliyyat və missiyalarda iştirak imkanlarını gücləndirmək məqsədi daşıyır.

ABŞ və Avropa İttifaqı Ermənistanın müdafiə və təhlükəsizlik davamlılığı proqramının həyata keçirilməsini əlaqələndirmək üçün birgə hərbi və müdafiə işçi qrupu yaradacaq.

Aprelin 5-də Brüsseldə razılaşdırılan bir mühüm məqam isə Aİ və ABŞ-nin Ermənistana öldürücü silahların verilməsinə dair razılığa gəlinməsidir. Üstəlik, hücum silahlarının tədarükü gözlənilir. Nəticədə İrəvan Qərbin Gürcüstana belə vermədiyini və uzun illər Ukraynaya verməkdən imtina etdiyini alacaq.

### İlham Əliyev dəfələrlə söyləmişdi axı...

Həm Blinken, həm Lyayen görüşdən əvvəl Prezident İlham Əliyevlə telefon danışıqlarında dövlət başçısını əmin etməyə çalışırdılar ki, görüşdə Azərbaycana qarşı yönəlməyən və yalnız iqtisadi komponentə təsir edəcəyi ilə bağlı faktlar əksini tapacaq.

Məlum oldu ki, Cənubi Qafqazda yeni bastion və gərginlik mənbəyi yaradılır. Bunun arxasında bilavasitə ABŞ dayanır. ABŞ dövlət xətti ilə də Ermənistanda genişmiqyaslı militarizasiya proqramının həyata keçirilməsinə başlayıb.

Ümumiyyətlə, Ermənistan ordusunun yenidən qurulması, xüsusi xidmət orqanlarının fəaliyyətinin təşkili (bu orqanların əməkdaşları ABŞ, Fransa və digər Qərb ölkələrində hazırlanacaq, onlar üçün xüsusi bazalar təşkil ediləcək) Ermənistana yeni silahların, hərbi təyinatlı texnologiyaların verilməsi və onun Azərbaycana, Türkiyəyə, İrana qarşı müharibəyə hazırlanması deməkdir.

Bütün bu faktlar İlham Əliyevin söylədiyi fikirlərin təsdiqidir. Azərbaycan Prezidenti keçirdiyi görüşlərdə bu məkrli planları ifşa edərək deyirdi ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər. Əlbəttə ki, ABŞ və Qərbin regionda növbəti təhlükə mənbəyi yaratmaq cəhdləri Azərbaycanın da maraqlarına ziddir və bölgədə sülhün təminatına birbaşa təhdiddir.

İndi ABŞ Dövlət Departamenti yayılmış ciddi sənədi "dezinformasiya" adlandırmağa cəhd edir. Fakt qarşısında qalanda ən asan yol doğrunu yalan kimi qələmə vermək olur. Sənəddə əks olunan məqamlar onu deməyə əsas verir ki, hərbi yardım məsələsi ABŞ ilə Ermənistan arasında açıq şəkildə müzakirə olunub. 5 aprel görüşünə qədər də müzakirələr davam edib, sadəcə Azərbaycanın ciddi narahatlığına görə Brüssel görüşündə bu komponenti ört-basdır ediblər. İndi də bunu "dezinformasiya" adlandraraq gündəlikdən çıxarmaq istəyirlər. Azərbaycanın müdaxiləsindən sonra 5 aprel görüşündə məsələ gizlədilsə də, ortada real gizli pakt var. Bu sənəd göstərir ki, real müzakirələr aparılıb və addımlar atılıb.

Bir sözlə, bütün yalanlar ifşa olunur. Bəlli olur ki, İlham Əliyevin söylədiyi kimi, Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Əlbəttə ki, bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür. Bu həm də onu deməyə əsas verir ki, Ermənistanın silahlı forpost kimi formalaşdırılması cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Makron bütün körpüləri yandırdı

## Fransanın növbəti prezidenti Azərbaycanla normal əlaqələrin bərpası üçün çox səy göstərməli olacaq

**"Fransa rəhbərliyi "Bakının hərəkətlərinin ikitərəfli münasibətlərə xələl gətirdiyi" qənaətində olduğu üçün ölkənin Azərbaycandakı səfirini məsləhətləşmələr üçün geri çağırmaq qərarına gəlib, amma onu narazı salan hərəkətlərlə bağlı təfərrüatları açıqlamayıb. Yalnız Fransa Prezidenti Emmanuel Makronun səfir Anne Buayon ilə görüşdüyünü bildirib".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat xatırladıb ki, ötən ilin yanvarında Prezident İlham Əliyev səfir Buayonun etimadnaməsini qəbul edərək, görüşdə Fransanın hazırkı rəhbərliyinin ölkəmizə qarşı qərəzli və qeyri-obyektiv hərəkətlərinə, bəyanatlarına və sənədlərinə rəğmən Azərbaycan ilə Fransa arasında diplomatik münasibətlərin zəngin tarixə malik olduğunu, qarşıdakı dövrün ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişafı baxımından daha səmərəli olacağına ümidvarlığını bildirib: "Ölkəmizin dialoq üçün açıqlığına, xoş niyyətlərlə əməkdaşlıq istəyinə baxmayaraq, Vətən müharibəsi ərəfəsində Emmanuel Makron "biz Ermənistanı tək qoymayacağıq" söyləyir, eyni zamanda Azərbaycanı, hətta Türkiyəni ittiham edirdi. İkinci Qarabağ savaşından sonra isə Makron dəfələrlə dövlətimizin başçısına zəng edərək absurd tələblər irəli sürməyə cəhdlər göstərir, öz ölkəsinin ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi statusunu özü darmadağın edirdi. Unutmayaq ki, vaxtilə rəsmi Bakı Fransaya bu statusu qərəzsizlik və obyektivlik zəmanəti müqabilində vermişdi. Obyektivlik naminə etiraf edilməlidir ki, Fransanın əvvəlki prezidentlərinin dövründə rəsmi Paris bu zəmanəti yerinə yetirmişdi".

K.Bayramov bildirib ki, Emmanuel Makron işğalçı dövlətin birmənalı müdafiəçisi mövqeyini tutaraq neytrallıqdan imtina etmək qərarına gəlib. Bu rolda öz gülünc və əsassız fantaziyalarını fakt kimi təqdim edən Makron ölkəmiz haqqında açıq-aşkar yalan danışmağa başlayıb və dövlət başçımızın ona yalanları sübut etmək tələblərini cavabsız qoyub. Bundan sonra təxribat siyasəti ilə seçilən Fransa Senatı müharibə zamanı Azərbaycandan qoşunlarını öz ərazilərimizdən çıxarmağı tələb edən qətnamə qəbul edib. Amma 30 ildə Fransa Senatı BMT-nin Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymayıb. "Sonra Fransa Senatı daha bir təxribatçı addım atdı. Ermənistanın kapitulyasiyasından iki həftə sonra "Dağlıq Qarabağın tanınması" haqqında qətnamə qəbul etdi. Bəli, ikiüzlülük, yalan, riyakarlıq, manipulyasiya, məlum faktların inkarı, separatizmin dəstəklənməsi - bütün bunları Fransa Senatı edib. Amma bu təxribatların vəziyyətə real təsiri olmayıb, qətnamə kağız parçası olaraq lazımi yerə atılıb. Niyə? Çünki ötən ilin sentyabrında Azərbaycan Ordusu Qarabağ bölgəsində parlaq antiterror tədbirlərini həyata keçirərək, erməni qanunsuz silahlı birləşmələrini darmadağın edib ölkənin suverenliyini beynəlxalq normalara uyğun tam şəkildə bərpa edib. Qarabağ xuntası ləğv olunduğunu elan edib, onun bir çox keçmiş liderləri həbs olunaraq Bakıya gətirilib", - deyə o əlavə edib.



Deputat vurğulayıb ki, bu cür şillədən sonra Fransa Prezidenti uzun müddət özünə gələ bilməyib. Sonra isə Makronun Azərbaycana qarşı BMT-nin Təhlükəsizlik Şurasında qətnamə qəbul etdirmək və sanksiyalar tətbiq etdirmək cəhdləri müşahidə olunub. Cəhdlər nəticəsiz olub. Bu da Makronun növbəti diplomatik fiaskosu idi.

Bundan sonra da təxribatların davam etdiyini deyən K.Bayramov bildirib ki, Emmanuel Makronun prezidentliyi dövründə Fransa neytrallıq prinsipindən geri çəkilərək Ermənistana siyasi, maliyyə və hərbi yardımı göstərib və indi də bunu davam etdirir: "Məhz Makronun dövründə Fransa vasitəçi statusundan məhrum olundu, Cənubi Qafqazı itirdi. Səfir Anne Buayonun geri çağırılması isə Makronun ümidsizliyi, acizliyi və məğlubiyyətidir. Həqiqət ondadır ki, makronlar gəlib gedəcək, amma ölkələr arasında münasibətlər qalacaq. Fransanın növbəti prezidenti isə Azərbaycanın etimadını qazanmaq və etibarı bərpa etmək üçün hələ çox səy göstərməli olacaq. Bu arada isə Azərbaycan milli maraqlarına cavab verən siyasətini uğurla davam etdirəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Rusiyalı ekspert:* "Parisin Bakıdakı səfirini geri çağırması Fransada zərərli siyasi təfəkkürün əlamətidir"

"Səfirin məsləhətləşmələr üçün geri çağırılması beynəlxalq münasibətlərdə nəzəri və praktiki nöqteyi-nəzərdən çox ciddi diplomatik demarşdır. Adətən belə addımlar üç halda atılır: birincisi, dövlətin siyasi rəhbərliyinin öz səfirinin yerləşdiyi ölkədəki fəaliyyətinin səmərəli olmasından narazılığı, bu cür vəziyyət onun geri çağırılması və ya istefası ərəfəsində yaranır; ikincisi, dövlətin siyasi rəhbərliyi səfiri qəbul edən ölkəyə münasibətini kəskin şəkildə dəyişmək niyyətindədir və səfir xarici siyasət prioritetlərində belə bir dəyişikliyin nəyə səbəb ola biləcəyini rəhbərliyə izah etməlidir; üçüncü, ölkə rəhbərliyi artıq səfiri qəbul edən ölkə ilə diplomatik münasibətlərin səviyyəsini aşağı salmaq qərarına gəlib və o, yalnız səfirlik əməkdaşları arasından müvəqqəti işlər vəkili təyin etməklə, diplomat qayıtdıqdan sonra bunu elan etmək üçün geri çağırılır. Təbii ki, Yelisey sarayının Azərbaycandakı səfirini "məsləhətləşmələr üçün" geri çağırarkən hansı prinsipi rəhbər tutduğunu bilmirəm. Lakin dünya praktikası və son bir neçə ildə Fransa-Azərbaycan münasibətlərinin inkişafının məntiqi göstərir ki, bu, heç də yaxşı nəticəyə gətirib çıxarmayacaq".

Bu fikirləri AZƏRTAC-a rusiyalı tarixçi-qafqazşünas, tarix elmləri namizədi Oleq Kuznetsov Fransanın Azərbaycandakı səfirini geri çağırmasını şərh edərkən söyləyib.



Onun sözlərinə görə, Fransa çox uzun müddətdir ki, unudulmuş ATƏT-in Minsk qrupunun üzvü olmaqla, əslində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tərəfi olub, işğalçılıq siyasətində rəsmi İrəvanı tam dəstəkləyib, hətta bunun xüsusi sirrini də açıb. "Emmanuel Makronun prezidentliyi illərində rəsmi Bakının münasibətləri normallaşdırmaq üçün bütün səylərinə baxmayaraq, Fransanın Cənubi Qafqazdakı ermənipərəst siyasəti ən yüksək zirvəsinə çatıb. Lakin bu, arzuolunan effekti vermədi. Fransız siyasətçiləri ənənəvi müstəmləkəçilik təfəkkürünə uyğun olaraq, nədənsə beynəlxalq məsələlərdə ədəb-ərkanı özlərinin adi dünya anlayışı səviyyəsində zəiflik kimi qəbul edirlər. Öz illüziyalarının əsiri olan rəsmi Paris Azərbaycan hakimiyyətinə meydan oxumağı mümkün hesab edir. Mən bu məsələni Makronun şəxsi ambisiyalarının təzahürü deyil, nəhayət, gözümüzün qarşısında xarabalığa çevrilən Fransa müstəmləkə imperiyasının şüur səviyyəsini həmin dövrün stereotiplərindən azad ola bilməyən Fransada zərərli siyasi təfəkkür tərzində görürəm", - deyə ekspert bildirib.

Eyni zamanda həmsöhbətimiz Yelisey sarayının bu diplomatik demarşının Cənubi Qafqaz regionu üçün heç bir yaxşı nəticəyə gətirib çıxarmayacağına əminliyini ifadə edib. O.Kuznetsov sözlərinə yekun vuraraq deyib: "Bu addımın Azərbaycanın Ermənistanı öz qanuni tələblərini dinc və ya hərbi yolla yerinə yetirməyə məcbur etməsinə mane olacağını düşünmək sadəlövhlükdür. Ola bilsin ki, rəsmi Parisin hərəkətləri İrəvandakı siyasi elitanın bəzi nümayəndələrində Fransanın siyasi təsir gücü və ya silahı ilə bağlı təhlükəsizlik illüziyası yaradacaq. Amma faktiki olaraq, Parisin hərəkətləri əks nəticəyə gətirib çıxaracaq: Fransa hakimiyyəti regiondakı vəziyyətlə bağlı Bakı ilə siyasi və diplomatik dialoqdan imtina etməklə, həm də ona regionu öz maraq və iradəsinə uyğun yenidən qurmaqda sərbəstlik verir. Deməli, bu addım nə Parisə, nə də İrəvana heç bir üstünlük vermir. Bunu başa düşməyən ya sarsaqdır, ya da təxribatçıdır".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransa özünü gülünc vəziyyətə salıb

**"Fransanın öz səfirini geri çağırması bu ölkənin Azərbaycana qarşı qərəzli münasibətini bir daha sübuta yetirir. Ermənistanın silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransanın bu addımları regionda vəziyyəti gərginləşdirməyə xidmət edir. Gün kimi aydındır ki, Paris revanşistləri təşviq edən bu hərəkətləri ilə Azərbaycanla Ermənistan arasında sülh prosesinin formalaşmasına mane olmağa çalışır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. Deputat qeyd edib ki, Fransa elə 25 ilə yaxın vasitəçilik etdiyi müddətdə də ölkəmizə qarşı davamlı riyakarlıq nümayiş etdirib, işğalçının müdafiəsinə qalxıb: "Lakin 2020-ci il Vətən müharibəsində və 2023-cü il antiterror tədbirlərində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Fransanın anti-Azərbaycan mövqeyi daha kəskin xarakter alıb. Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı yaydığı bəyanatda da qeyd olunduğu kimi, Fransanın BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə sənəd layihələrinin təşəbbüskarı olması bu ölkənin bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübuta yetirib. Son vaxtlar Azərbaycanın Fransa müstəmləkəçiliyindən azad olmaq istəyən xalqlara dəstəyi, fransız casus şəbəkələrinin tərəfimizdən ifşa olunması bu ölkəni daha da aqressivləşdirib. Çünki Makron hakimiyyəti xüsusilə kiçik dövlətlərin onların sözü ilə oturub-durmasına öyrəşib".

Deputatın sözlərinə görə, səfirin geri çağırılması Fransanın Azərbaycanla münasibətləri korlamaq üçün atdığı addımlardan biridir: "Əzəldən münasibətlərin pozulmasına yönəlmiş bütün addımları atan Parisin indi "küskün" obraz yaratmaq cəhdləri gülüncdür. "Təhdid, təzyiq dili ilə danışmaq Fransaya heç nə qazandırmayacaq. Azərbaycan öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirləri görəcəyini dəfələrlə bəyan edib. Riyakar və qərəzli dövlət və ya təsisatların Ermənistanı militarlaşdırmaq, revanşistləri həvəsləndirmək cəhdləri nəticə verməyəcək", - deyə Cavanşir Paşazadə vurğulayıb.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

## Ermənistan hökumətinin unutduğu həqiqət...

**Dinc, günahsız insanları yaşamaq haqqından məhrum edərək kütləvi ölümlərə, fəlakətlərə ən çox səbəb olan müharibələrdir. Dünya hər dəfə savaş meydanına çevriləndə şəhərlər, rayonlar, qəsəbələr, kəndlər xarabalıqlara dönür. Açılan atəşlər, yağdırılan bombalar illərboyu ağır zəhmətlə, əziyyətlə tikilmiş evləri, infrastrukturları bir anın içərisində dağıdır, yandırıb kül edir. Və məhv edilən hər isti ocaqla bərabər, neçə-neçə bitib-tükənməz arzular, ümidlər, xəyallar da yox olur. Haqlının, ya da haqsızın, ədalətli olanın, yaxud ədalətsizin qalib gəlməsindən asılı olmayaraq, ağır müharibələrin dünyaya gətirdiyi son mənzərələr belədir...**

Əsr dəyişib, ancaq nə Birinci Dünya müharibəsinin, nə də İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu zərbələr unudulub, açdığı yaralar sağalıb. Ən ağrılısı da odur ki, bəşər övladlarının bir çoxu tarixdən ibrət dərsləri almayaraq, nəticə çıxarmayaraq, qanqada gətirən savaşlardan imtina edərək sülhə, sabitliyə meyil göstərmirlər.

Bu gün yenə dünyanın bir sıra yerlərində müharibələr, terror aktları tüğyan edir. Dünya siyasətində böyük söz sahibi olan ABŞ və bəzi Avropa ölkələri münaqişələrin həlli istiqamətində heç bir addım atmır, əksinə, onların daha da alovlanmasına, daha da genişlənməsinə şərait yaradır.

Rusiya-Ukrayna müharibəsində, Yaxın Şərqdə İsrail-Qəzza münaqişəsində baş verən qanlı toqquşmaların sonu gəlmir. Afrikadakı gərginlik bitmir. İranla İsrail arasında münasibət normallaşmır. Bəşəriyyət daha böyük fəlakətə - üçüncü dünya müharibəsinə sürüklənir...

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş Təhlükəsizlik Şurasının iclasında diqqətə çatdırdı ki, Yaxın Şərq regionu genişmiqyaslı münaqişə astanasındadır, vəziyyətin gərginliyini azaltmaq üçün dərhal tədbirlər görülməlidir. BMT-nin Baş katibi gərginliyin və eskalasiyanı azaltmağın vaxtının çatdığını, Yaxın Şərqdə bir çox cəbhədə böyük hərbi qarşıdurmaya səbəb ola biləcək hər hansı hərəkətlərdən qaçmağın həyati əhəmiyyət kəsb etdiyini vurğuladı: "Yaxın Şərqdə bir çox cəbhədə hərbi qarşıdurmaya səbəb ola biləcək istənilən addımdan çəkinmək lazımdır. Nə region, nə də dünya yeni bir müharibəyə tab gətirə bilər".

Təəssüf ki, belə mürəkkəb, həssas bir dövrdə dünyanın böyük güc sahibləri hesab edilən bəzi ölkələr yeni münaqişə ocaqlarının yaranmasına da səylərini əsirgəmirlər. Tərəflərdən birini dəstəkləyərək, hətta silahlandıraraq problemlərin dərinləşməsinə yol açırlar. Əslində, elə dünyada cərəyan edən qarışıq proseslər, qanlı toqquşmalar həmin hegemon dövlətlərin, böyük güclərin qurduqları planlar əsasında gerçəkləşir.

Həmin ölkələrin Ermənistana dəstək vermək adı ilə, əslində, Cənubi Qafqaz regionunda, necə deyərlər, suyu bulandırmaq cəhdləri də göz önündədir. Otuz ilə yaxın davam etdirilən Qarabağ münaqişəsi başa çatıb. Azərbaycan öz ərazilərini işğaldan azad edərək, suverenliyini tam bərpa edib.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının real göründüyü bir vaxtda regionda yenidən münaqişə yaratmaq, qanlı toqquşmalara rəvac vermək niyyətində olanlar isə hiylə dolu planlar qururlar. Cənubi Qafqazı hazırda dayandığı sülhün eşiyindən döndərməyə çalışırlar. Bununla ABŞ və Qərbin məqsədi ilk növbədə Rusiyanı Cənubi Qafqazdan çıxarmaqdır.

Qurulan məkrli planların reallaşmasına, regionun yenidən qanlı toqquşmalar meydanına çevrilməsinə imkan verməməyin yolu sülhə, sabitliyə nail olmaqdır. Bölgəmizdə sülhün yeganə təminatçısı olan Azərbaycan bu istiqamətdə məqsədyönlü işlər həyata keçirir, təhlükəsizliyin möhkəmləndirilməsinə çalışır.



Prezident İlham Əliyev aprelin 5-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edərkən bir daha diqqətə çatdırdı ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir: "Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər".

Hazırda Azərbaycan təhlükəsiz bir ölkədir. Prezident İlham Əliyev ölkəmizi sabitlik adasına çevirib. Və heç kim bu sabitliyi pozmaq iqtidarında deyil. Milli maraqlarımıza qarşı çıxanlar isə dövlətimizin sərt təpkisini alacaqlar.

Cənubi Qafqazda yenidən faciəli hadisələrin baş verməsində maraqlı olan dövlətlər və beynəlxalq təşkilatlar Ermənistandan alət kimi istifadə edirlər. Nikol Paşinyan hökuməti bir həqiqəti unudur ki, Cənubi Qafqaz yenidən münaqişə oduna bürünərsə, bundan ən çox zərər çəkən Ermənistan olacaq.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

## Azərbaycan tarixinin ən qürurlu dövrünü yaşayır

**"Rusiya sülhməramlı qüvvələrinin Azərbaycandan çıxarılması iki ölkə arasında normal münasibətlərdən xəbər verir. 2020-ci ilin noyabrında sülhməramlıların ölkəmizin ərazisində yerləşdirilməsi zərurətdən doğurdusa, bu gün onların Azərbaycan torpaqlarında qalmasına heç bir lüzum yoxdur. Sülhməramlıların çıxarılması həmçinin Rusiya və Azərbaycan prezidentləri arasında yüksək etimadın göstəricisidir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat bildirib ki, Azərbaycan xalqı tarixinin ən şərəfli və qürurverici dövrünü yaşayır: "Orta əsrlərdən bəri millətimizə və regionumuza qarşı yürüdülən siyasəti, təxminən 300 il əvvəl qurulan planları darmadağın edən Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımızın və dövlətimizin həyatında yeni mərhələ başlayıb. Dünya hər zaman Prezident İlham Əliyevin qətiyyətliliyinin və prinsipiallığının şahidi olub. Torpaqlarımız işğaldan azad edilib, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub. Nəzərə almaq lazımdır ki, bu vaxta qədər dövlət müstəqilliyimiz bərpa edilsə də, Azərbaycan heç bir zaman dövlət sərhədlərinə nəzarəti həyata keçirə bilməmişdi. 2023-cü il aprelin 23-də bütün dövlət sərhədlərimiz üzərində nəzarətin qurulması tariximizdə bir ilk idi".

Deputat əlavə edib ki, ötən il həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçı rejim diz çökdü, ağ bayraq qaldırdı. Bu, Prezidentin hər şeyi dəqiq ölçüb-biçdiyini, əvvəlcədən planlaşdırdığını və dəqiqliklə həyata keçirdiyini göstərdi. Azərbaycan ərazisində separatçılığın kökü tamamilə kəsildi. Bu, Prezident İlham Əliyevin millət və dövlət qarşısında tarixi xidmətidir.

Musa Qasımlı bildirib ki, sülhməramlıların ölkəmizdən çıxarılması da Azərbaycan Prezidentinin xüsusi bacarığının nəticəsidir: "Unutmaq olmaz ki, 10 noyabr üçtərəfli Bəyanatında sülhməramlıların 2025-ci ilə qədər müvəqqəti olaraq yerləşdirilməsi məhz Prezident İlham Əliyevin israrı hesabına yer almışdı. Sülhməramlıların Azərbaycandan getməsi, həm də vaxtından əvvəl tərk etməsi də qarşılıqlı etibar və etimadı göstərir. Elə bunu da dövlətimizin mehriban qonşuluq siyasətinin nəticəsi hesab etmək olar". Deputatın fikrincə, xüsusilə son 4 ilə yaxın müddətdə baş verən hadisələr Prezident İlham Əliyevin liderliyi altında dövlətimizin və millətimizin çox gözəl gələcəyinin olacağını təsdiq edir.

Müsahibimiz onu da vurğulayıb ki, Azərbaycan real siyasət yürüdür: "Bəzilərinin Vətən müharibəsində qazanılan qələbəyə, Xankəndidə bayrağımızın ucaldılmasına və ölkəmizin ərazisində separatizmin kökünün kəsilməsinə laqeyd yanaşmaları təəssüf doğurur. Bu, tamamilə antimilli mövqedir. Hesab edirəm ki, millətin və dövlətin maraqlarını təmin edən, xəyallarını gerçəkləşdirən Prezident İlham Əliyevin səyləri yüksək qiymətləndirilməlidir".

*N.QABİLQIZI, "Azərbaycan"*

## Paris Cənubi Qafqazda suları bulandırmağa çalışır

**Fransa anti-Azərbaycan fəaliyyətində növbəti addım ataraq ölkəmizdəki səfiri Ann Buayonu məsləhətləşmələr üçün geri çağırıb. Parisin bu addımı onun Azərbaycana qarşı qərəzli siyasətini davam etdirdiyini göstərir.**

Necə deyərlər, Fransa köhnə mərəzindən əl çəkmək istəmir. Hadisələrin gedişatı aydın göstərir ki, Fransanın həyata keçirdiyi xarici siyasət kursu bu ölkənin beynəlxalq münasibətlər sistemində nüfuzunu getdikcə aşağı salır. Bizim üçün ən çox təəssüf doğuran odur ki, Fransa son illər Cənubi Qafqazda sülh və davamlı sabitliyin təmin olunmasına yönəlmiş faydalı təşəbbüslərə əngəl törədir. Paris regionda gərginliyin qalmasında olduqca maraqlı görünür. Bunun arxasında isə həyata keçirmək istədiyi çirkin məqsədlər dayanır.

Bir anlıq geri dönüb ötən illər ərzində Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün Fransanın atdığı addımlara nəzər salanda görürük ki, bu ölkə proseslərə xeyirdən çox zərər verib. Daim Ermənistanın tərəfini saxlayıb, sülh üçün heç bir təşəbbüs göstərməyib. Həmişə danışıqlar prosesinə əngəl törətməyə çalışıb. Amma Azərbaycan rəhbərliyinin qətiyyətli addımları nəticəsində geri addım atmalı olub. Bu gün Fransa yenə də anti-Azərbaycan siyasətini davam etdirir. İki ölkə arasında münasibətlərin korlanmasına gətirib çıxaran hərəkətlərdən çəkinmir. Fransa bu gün səfirini ölkəmizdən geri çağırmaqla yanlış siyasi kurs götürdüyünü sübut edir. Parisin səfirini geri çağırmasının ölkəmiz üçün heç bir əhəmiyyəti yoxdur. Burada yenə də itirən Fransa olacaq. Bəlkə də Fransa Azərbaycandakı səfirini geri çağırmağını diplomatik gediş hesab edir. Ola bilər ki, Paris burada başqa məqsədlər də güdsün. Amma siyasətçilər bunu düzgün olaraq ağılsız qərar, səhv bir gediş hesab edirlər. Fransa münasibətləri normallaşdırmaq üçün siyasətində dəyişiklik etməlidir. Çünki səhv atılan belə addımlar Parisin gələcək siyasətinə ağır zərbələr vuracaq.

Rusiyalı politoloq Sergey Markov hadisə ilə bağlı fikrini açıqlayaraq deyib ki, Azərbaycan Fransa casuslarından ibarət şəbəkəni ifşa edib. Bundan əlavə, Fransa ilə Azərbaycan arasındakı münasibətlər Parisin günahı ucbatından pisləşir. Bu şəraitdə Fransa öz səfirini bundan sonra hansı siyasəti həyata keçirəcəklərini müəyyənləşdirmək üçün geri çağırıb.

Azərbaycanla münasibətləri gərginləşdirmək xəttini tutan Parisdir. Fransa parlamentinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyini sual altına qoyan, artıq mövcudluğuna son verilmiş separatçı rejimə dəstək ifadə edən qərarları, eləcə də bu ölkənin müxtəlif səviyyəli dövlət rəsmilərinin səsləndirdiyi qərəzli bəyanatlar Parisin günahı ucbatından iki ölkə arasında münasibətləri getdikcə soyutmuşdur. Azərbaycan hər zaman tərəfdaşları ilə əlaqələrdə səmimi və açıq olub. Ölkəmizin beynəlxalq münasibətlər sistemində rolunu gücləndirən, regional proseslərə təsir imkanlarını əhəmiyyətli dərəcədə artıran əsas amillərdən biri də məhz etibarlı tərəfdaş olmasıdır. Parisin siyasi kursunda isə bunların heç biri müşahidə olunmayıb. Fransa haqq-ədalətə göz yumaraq daim erməni separatizmini, işğalı dəstəkləyib. Son 3 il yarım ərzində Makron hökumətinin Cənubi Qafqazla bağlı yürütdüyü siyasət göstərir ki, Fransa işğalçı dövlətin yanındadır, onun arxasında dayanır. Təbiidir ki, Parisin atdığı səhv addımlar hadisələri belə bir məcraya gətirib çıxarıb.

Azərbaycanın Xarici İşlər Nazirliyinin sözçüsü Ayxan Hacızadə Fransanın Azərbaycandakı səfirini məsləhətləşmələr üçün geri çağırmasına münasibət bildirərək deyib ki, bu ölkənin BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə sənəd layihələrinin təşəbbüskarı olması onun bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübut edib: "Məhz Fransada hakim partiyanın nümayəndələrinin təşəbbüsü ilə parlamentdə Azərbaycana qarşı çoxsaylı əsassız ittihamlar, təhqir və təhdidlərin əks olunduğu qətnamələr qəbul olunub ki, bu sənədlərdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi sual altına qoyulub. Bu müddət ərzində Fransada azərbaycanofob mühit yaranıb. Nəticədə səfirliyimizə dəfələrlə hücumlar edilib, səfirliyin binasına zərər yetirilib. Nəhayət, ağlasığmaz addım kimi XIX əsr görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın büstünə qarşı vandallıq aktlarının törədilməsi və hökumət tərəfindən bunun qarşısının alınması üçün tədbirlər görülməməsi Fransanın Azərbaycan əleyhinə kampaniyasının tərkib hissələridir. Eyni zamanda Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyini və evsahibliyini hədəf alan çağırışlar edən Fransanın Azərbaycanı birtərəfli addımlarda təqsirləndirməsi tam əsassızdır.

Aparılan müşahidələr onu göstərir ki, Azərbaycan İkinci Qarabağ müharibəsində Ermənistan üzərində həlledici hərbi-strateji qələbə qazandıqdan sonra Fransa regional siyasətini xeyli radikallaşdırıb. Paris Ermənistana dəstək olmaqla Azərbaycana qarşı ən müxtəlif təxribatlardan çəkinməyib. Avropa məkanının ən müxtəlif platformalarında ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirib. Amma bütün bunların da heç bir nəticəsi olmayıb. Çünki Azərbaycan öz haqq işi uğrunda, tarixi əraziləri uğrunda mübarizə aparıb. Parisin yürütdüyü səhv siyasətə görə bu gün münasibətlər korlanıb, körpülər uçurulub. Azərbaycan-Fransa münasibətlərinin pozulmasına yönəlmiş bütün addımların səbəbkarı Parisdir. Yelisey sarayında tərtib edilən planlar çirkin məqsədlərə xidmət edir. Paris daim Cənubi Qafqazda suları bulandırmağa çalışır. Azərbaycan isə yürütdüyü qətiyyətli, düzgün və şəffaf siyasəti ilə Parisin bütün çirkli planlarının qarşısını alır. Regionda söz sahibi olduğunu dünyaya göstərir.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

## Regionda sülhün olması Qərbin maraqlarına uyğun deyil

**"Ermənistan vaxtaşırı təxribatlar törətməklə sülh prosesini gecikdirir. Havadarlarının saxta vədləri hesabına İrəvanın törətdiyi təxribatlar son zamanlar müntəzəm xarakter almağa başlayıb. Çünki Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması Fransa başda olmaqla bir sıra dövlətlərin maraqlarına uyğun gəlmir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, Qərb Azərbaycanla Ermənistan arasındakı vəziyyətin dondurulmuş halda qalmasının tərəfdarıdır: "Otuzillik işğal dövründə danışıqları uzadaraq ermənilərə dəstək nümayiş etdirən qüvvələr bu gün də eyni ssenarini davam etdirirlər. Görünür, Qərb Cənubi Qafqazda hərbi və siyasi mövcudluğa nail olmaq istəyir. Amma onlar da yaxşı başa düşürlər ki, müharibə başlayacağı halda Ermənistanın dövlətçiliyi sual altında qalacaq. Ona görə də hələlik daha optimal variantdan - sərhədyanı bölgələrdə təxribatlara əl atmaq vasitəsindən istifadə edirlər".

Deputatın sözlərinə görə, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təhlükə altına aldıqlarına görə əsas məsuliyyət, əlbəttə ki, Ermənistan və himayədarlarının üzərinə düşür. Nəzərə almaq lazımdır ki, Nikol Paşinyan Ermənistanın, yəni atəş açan dövlətin rəhbəridir. Əgər onun ordusunun hansısa üzvü Azərbaycan əsgərinə atəş açırsa, deməli, buna görə Ermənistan dövləti məsuliyyət daşıyır. Azərbaycan isə istənilən təxribatın qarşısını almaq gücündədir, bunu 44 günlük Vətən müharibəsində və 23 saatlıq antiterror tədbirləri zamanı da bütün dünyaya nümayiş etdirib.

Müşfiq Cəfərov vurğulayıb ki, sülhə aparmayan, əksinə, regionda vəziyyəti gərginləşdirən belə addımlar təcili surətdə aradan qaldırılmalıdır: "Dünya düzəninin dəyişdiyi, geosiyasi proseslərin təhlükəli hal aldığı bir vaxtda qonşu ölkələrdə yeni münaqişə ocaqlarının yaranması heç bir dövlətin xeyrinə deyil. Ermənistan Fransa və Hindistandan hücum xarakterli silahlar alaraq ordusunu gücləndirməklə tərəqqiyə nail ola bilməyəcək".

Müsahibimiz onu da deyib ki, baş verən son hadisələr bir daha göstərir ki, Ermənistan sülh müqaviləsi imzalamaq niyyətində deyil: "Bu ölkə havadarlarının verdiyi yalan vədlərə aldanıb, yenə də xam xəyallara qapılıb. İrəvandan alət kimi istifadə edərək regiona müdaxiləyə cəhd edən qüvvələr Ermənistana sülh müqaviləsi imzalamağa icazə vermirlər. Bu, Ermənistan-Azərbaycan münasibətlərinə, regionda sabitliyə fayda verməyəcək. Prezident İlham Əliyev də dəfələrlə vurğulayıb ki, dövlət maraqlarında heç kimə güzəştə gedilməyəcək. Ermənistanın bu prinsipial siyasətin qarşısında tab gətirməsi mümkün deyil".

*N.QAFARZADƏ, "Azərbaycan"*

1923 *Azərbaycanın özü qədər əbədi* 2024

**Tarixi şəxsiyyət hüququ qazanmış hər bir lider zamanın və insanların yaddaşında öz yaratdıqları ilə əbədi yaşayır. Heydər Əliyev də belə şəxsiyyətlərdəndir. Heydər Əliyev mənalı bir ömür sürüb.**



# Mənalı ömür yolu ilə daim işıq saçan dahi

Qısa zaman kəsiyində o, xalqını əsrlərboyu yolunda çarpışdığı arzusuna, ali məqama, müstəqilliyə qovuşdurdu. Dünya xalqlarına millətimizin layiqli mövqeyini qətiyyətlə nümayiş etdirdi. Heydər Əliyev xəyalları gerçəkləşdirmək qüdrətinə malik bir siyasətçi idi və bunu dəyərli layihələri ilə dəfələrlə sübut etdi. Heydər Əliyev planetin əlçatmaz mərtəbəsinə yüksələn tək-tək şəxsiyyətlərdən biri oldu.

Tarixşünaslıq Ulu Öndər Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini tədqiq edir. Məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinski demişdi: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir". Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb yüksək nailiyyətlərə imza atdı. Dahi lider haqqında Böyük Britaniyanın sabiq baş naziri Toni Bleyer yazırdı: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər..."

Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, diqqət və başqa cəhətlər Ulu Öndər Heydər Əliyevin fərdi keyfiyyətləri idi. Dahi lider böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətlə sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişini öncədən görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.

1993-cü il iyunun 9-da xalqın təkidi ilə Bakıya qayıdan Ulu Öndər fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı. Məhz bu xilaskarlıq missiyasının nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçdi, bununla da ölkəmiz davamlı və dönməz inkişaf yoluna qədəm qoydu. Ulu Öndər Heydər Əliyev 1993-cü il oktyabrın 10-da keçirilmiş andiçmə mərasimində "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən birinci növbədə Azərbaycan zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm" deyərək, müstəqil Azərbaycanın milli inkişaf strategiyasını irəli sürərək onun həyata keçirilməsinə başladı.

Ümummilli Lider Heydər Əliyev bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Heydər Əliyev qısa zamanda özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, sosialyönümlü mahiyyət daşıyan siyasət, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. Həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş strateji məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının qeyri-mümkünlüyünü nəzərə alan, sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu önə çəkən Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına strateji məsələ kimi yanaşmışdır. XX əsrin qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtarışında olan müasir dünyanın yeni geoiqtisadi xəritəsinin müəyyənləşməsinə əsaslı təsir göstərən "Əsrin müqaviləsi" Azərbaycanın siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinə, beynəlxalq iqtisadi münasibətlər sisteminə sürətli inteqrasiyasına da təkan vermişdir.

Ömrünün böyük və mənalı hissəsini milli-mənəvi dəyərlərimizin qorunmasına, dövlətçiliyimizin inkişafına həsr edən Ulu Öndər Heydər Əliyev mənəvi dəyərlərimizə əsaslanan azərbaycançılıq məfkurəsini ən ümdə vəzifə kimi müəyyən etmişdir. "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" fikirlərini söyləyən Ulu Öndər Heydər Əliyev xalqını, vətənini sevən xilaskar liderdir və o, bunu öz əməli fəaliyyəti ilə sübut etdi.

Məhz Ulu Öndərin gərgin səyi nəticəsində müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyuldu, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirildi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarına əsaslı təminat yaratdı.

Ümummilli Liderin siyasəti milli maraqlar üzərində qurulmuşdu. Onun mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirirdi.

Heydər Əliyev apardığı siyasət və gördüyü işlərlə yeni inkişaf modeli - Yeni Azərbaycan modeli yaratmışdır. Bu inkişaf özünü hər sahədə göstərirdi. Bura sahibkarlığı, kənd təsərrüfatını, sənayeni, neft sənayesini, magistralları, bank sahəsini, vergi sahəsini, nəqliyyatı və başqa sahələri daxil etmək olar. Bu sahələrin inkişafı artdıqca onların başqa xarici dövlətlərlə iqtisadi münasibətləri güclənirdi. Bu, Azərbaycanın get-gedə güclənməsinə gətirib çıxardı. Heydər Əliyev həmişə deyirdi: "Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz". Buna görə də Heydər Əliyev çalışırdı ki, Azərbaycan başqa dövlətlərlə iqtisadi əlaqələri qurmaq üçün müəyyən inkişaf sahəsinə malik olsun. Heydər Əliyevin yaratdığı yeni model 1996-cı ildən Azərbaycanın inkişafını sürətləndirdi. Bu dövrdə bir çox irimiqyaslı müqavilə bağlanmış, mühüm əhəmiyyət kəsb edən sənədlər və aktlar imzalanmışdır. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və artırılması üçün dövlət tərəfindən müxtəlif dövrlərdə qəbul olunmuş "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" Azərbaycanda sahibkarlığın inkişafına təkan verdi. 1996-cı il iyulun 16-da "Torpaq islahatı haqqında" mühüm qanunlar qəbul edildi. Ümumiyyətlə, 1995-2004-cü illərdə aqrar sahə ilə bağlı 100-dən çox normativ-hüquqi akt qəbul olunmuşdur. "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-ci illər)"nın həyata keçirilməsi aqrar sahədə uğurlar qazanılmasına imkan yaratmışdır.

Bu gün əminliklə demək olar ki, müstəqil Azərbaycanın hazırkı böyük uğurları Heydər Əliyevin dövlətçilik və siyasi idarəçilik konsepsiyasına istinad edərək yeni-yeni zirvələrə doğru irəliləyir. 2003-cü ildən ölkəyə inamla rəhbərlik edən cənab İlham Əliyev mütərəqqi inkişaf strategiyasını davam etdirməklə yanaşı, onu yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır. Dövlət başçısı İlham Əliyevin prezidentliyi dövründə məhz bu istiqamət əsas götürülmüş və Azərbaycan vətəndaşının sosial rifahı və iqtisadiyyatın dinamik inkişafı həyata keçirilən çoxşaxəli islahatların əsas ağırlıq mərkəzini, nüvəsini təşkil etmişdir.

Əbədiyaşar liderin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi, bütün ömrü boyu sədaqətlə xidmət etdiyi doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Ümummilli Lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Belə də oldu. Tarixi zaman baxımından çox qısa dövr keçdi, işğal altındakı torpaqlarımız azad olundu. Dahi şəxsiyyətin bu arzusunu, vəsiyyətini onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və müdrikliyi ilə rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi.

Tarixi qələbəyə gedən yol da Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışından başlayıb. Ümummilli Lider adını tarixə müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı kimi, cənab İlham Əliyev isə Ulu Öndər siyasətinin layiqli davamçısı, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan və torpaqlarımızın Xilaskarı kimi yazdı. Ulu Öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin son 21 ildə Prezident İlham Əliyev tərəfindən uğurlu davamının nəticələri göz önündədir. Azərbaycanın iqtisadi, siyasi və hərbi gücünün artırılması, xalq-iqtidar birliyinin möhkəmləndirilməsi, torpaq, Vətən sevgisinin böyüklüyü fonunda 44 günlük İkinci Qarabağ savaşında qalib olduq. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan Ordusu tarix yazaraq 30 ilin işğalına son qoydu, ərazi bütövlüyümüzü təmin etdi. Azərbaycan xalqı bir daha yenilməz, məğrur xalq olduğunu dünyaya nümayiş etdirdi.

Ölkəmizin həyatında yeni mərhələ başlayıb. İşğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri geniş vüsət alıb. 30 il torpaq həsrəti ilə yaşayan soydaşlarımızın Böyük qayıdışı sürətlə davam edir.

Nə qədər ki, Azərbaycan var, Ulu Öndərin adı, əməlləri və siyasi kursu yaşayacaq, Azərbaycanın inkişafına yeni-yeni çalarlar bəxş edəcəkdir. Zəmanəmizin dahi şəxsiyyəti adını qazanmış Ulu Öndər Heydər Əliyevin parlaq xatirəsi bütün zamanlarda Azərbaycan xalqının mübarizə yoluna nur saçacaqdır.

***Natiq QULUZADƏ,***
***YAP Zəngilan rayon təşkilatının sədri***

# İlk rübün makroiqtisadi göstəriciləri açıqlanıb

## Rəqəmlər sosial-iqtisadi inkişafın dinamikliyindən xəbər verir

**Dövlət Statistika Komitəsi (DSK) cari ilin ilk rübünün makroiqtisadi göstəricilərini açıqlayıb. Məlum olub ki, ötən 3 ayda ölkə üzrə 29,1 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 4 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 6,7, neft-qaz sektorunda 0,4 faiz artmışdır.**

DSK-nın hesabatına görə, ilin ilk rübündə ÜDM-in 39,3 faizi sənaye, 9,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,9 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 5,9 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə, 20,4 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,9 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 2856,5 manat əlavə dəyər düşmüşdür.

Rüb ərzində ölkə üzrə 15,7 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ümumilikdə bu dövrdə məhsul istehsalı sənayenin qeyri-neft-qaz sektorunda 7,8, neft-qaz sektorunda 0,2 faiz artmışdır. Sənaye məhsullarının 64,5 faizi mədənçıxarma, 29 faizi emal, 5,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 6 faiz azalmış, əmtəəlik qaz hasilatı 5,4 faiz artmışdır.

Emal sektorunda metallurgiya sənayesi məhsullarının istehsalı 49,7, mebel istehsalı 39, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 37,3, tikinti materiallarının istehsalı 34,4, rezin və plastik kütlə məmulatlarının istehsalı 26,2, içkilərin istehsalı 24,5, geyim istehsalı 21,1, elektrik avadanlıqlarının istehsalı 16,8, kimya sənayesi məhsullarının istehsalı 16,7, tütün məmulatlarının istehsalı 15,6, toxuculuq sənayesi məhsullarının istehsalı 9, kompüter, elektron və optik məhsulların istehsalı 7,9, neft məhsullarının istehsalı 5,4, kağız və karton istehsalı 2, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 1,3, əczaçılıq məhsullarının istehsalı 0,9 faiz artmış, hazır metal məmulatlarının istehsalı 0,1, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 0,4, qida məhsullarının istehsalı 2,6, poliqrafiya məhsullarının istehsalı 4, maşın və avadanlıqların istehsalı 19,5, ağacın emalı və ağacdan məmulatların istehsalı 16,3, sair nəqliyyat vasitələrinin istehsalı 45,1, sair sənaye məhsullarının istehsalı isə 46,9 faiz azalmışdır.

Azalma (5,2 faiz) həmçinin qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda qeydə alınmışdır. Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 6,6 faiz artım olmuşdur.

Dövlət Statistika Komitəsininn açıqlamasına görə, cari ilin yanvar-mart aylarında əsas kapitala 3 milyard 809,2 milyon manat vəsait yönəldilmişdir. Bu, 2023-cü ilin ilk rübündəkindən 4 faiz çoxdur. İstifadə olunmuş ümumi vəsaitin 55,7 faizi məhsul istehsalı və 38,2 faizi xidmət obyektlərinin, 6,1 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 79,4 faizi daxili sərmayələr olan vəsaitin 70,4 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir. Bu dövrdə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,7, qeyri-neft-qaz sektoruna sərf edilən vəsaitin həcmi isə 4,8 faiz artmışdır.

Sosial sahəyə, daha dəqiq desək, muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqına gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə üzrə yanvar-fevral aylarında bu göstərici 2023-cü ilin eyni dövrünə nisbətən 10,8 faiz artaraq 946,8 manata çatmışdır. Əhalinin ümumi gəlirləri isə yanvar-mart ayılarında 5 faiz artaraq 19,4 milyard manat olmuşdur.

DSK-nın hesabatında həmçinin bildirilir ki, ilin ilk rübündə pərakəndə ticarət şəbəkəsindən əhaliyə 13 milyard 474,2 milyon manatlıq məhsul satılmış, 2 milyard 827,4 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. 2023-cü ilin ilk rübü ilə müqayisədə əmtəə dövriyyəsi 3,1, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 5,8 faiz artmışdır.

Yanvar-mart aylarının nəticələrinə əsasən, ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 766,4 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 74,1 faizindən əhali istifadə etmişdir. Rüb ərzində bu xidmətlərin həcmi 10,4 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 83,5 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda da göstəricilər müsbətdir: ötən rüb ölkə üzrə 54,6 milyon ton yük, 452,9 milyon nəfərdən çox sərnişin daşınmışdır ki, bu da 2023-cü ilin eyni dövrünə nisbətən yük daşınması üzrə 4,7, sərnişin daşınması üzrə 6,9 faiz çoxdur.

Sonda istehlak qiymətləri barədə: cari ilin yanvar-mart aylarında ötən ilin eyni dövrü ilə müqayisədə istehlak qiymətləri 101, o cümlədən qida məhsulları, içki və tütün məmulatları üzrə 99,7, qeyri-qida malları üzrə 101,4, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 102,5 faiz olmuşdur.

***"Azərbaycan"***

# Türkiyə və Moldovanın sosial müdafiə qurumları ilə ikitərəfli əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadilələri aparılıb

**Beynəlxalq Sosial Təminat Assosiasiyasının Avropa Regional Sosial Təminat Forumu (Portuqaliya) çərçivəsində əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə Türkiyənin sosial müdafiə qurumunun sədri Raci Kayanın görüşü olub.**



Görüşdə Azərbaycan və Türkiyə arasında dostluq, qardaşlıq və xalqların birliyi amilinə əsaslanan münasibətlərin iki qardaş ölkənin dövlət başçılarının birgə səyləri nəticəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb.

Ölkələrimiz arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində də əlaqələrin daim inkişaf etməkdə olduğu diqqətə çatdırılıb. Hər iki ölkədə sosial müdafiə sahəsində aparılan islahatlar prosesi barədə məlumatlar verilib. Bu sahədə davamlı xarakter alan təcrübə mübadilələrinin xüsusi önəm kəsb etdiyi bildirilib.

Əməkdaşlıq əlaqələrinin qarşıdakı dövrdə də daim genişlənməkdə davam edəcəyinə əminlik ifadə olunub, bu istiqamətdə qarşılıqlı olaraq səylərin göstərildiyi qeyd edilib.

Moldovanın Əmək və Sosial Müdafiə Nazirliyinin dövlət katibi Korina Ajder və həmin ölkənin Milli Sosial Sığorta Kassasının Baş direktoru Yelena Tsıbırne ilə də görüş olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Moldovanın Əmək və Sosial Müdafiə Nazirliyinin əməkdaşlıq istiqamətləri üzrə 2023-2024-cü illərə dair fəaliyyət planı üzrə görülən işlərdən bəhs olunub.

Həmçinin DOST təcrübəsinin Moldovada da tətbiqi ilə bağlı aparılan hazırlıq işləri diqqətə çatdırılıb. Fəaliyyət planına əsasən, bu məqsədlə iki qurum arasında ardıcıl təcrübə mübadilələrinin həyata keçirildiyi vurğulanıb.

Görüşlərdə ikitərəfli əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadilələri aparılıb.

# Azərbaycan UNESCO Klubları Assosiasiyası Çinin müvafiq qurumu ilə süni intellekt, elektron idarəçilik sahələrində əməkdaşlıq edəcək

**Azərbaycan UNESCO Klubları Assosiasiyası (AZUCA) ilə Çin Xalq Respublikasının Qansu Vilayətinin UNESCO Assosiasiyası (GSUNESCO) arasında anlaşma memorandumu imzalanıb.**



Bu barədə AZƏRTAC-a AZUCA-dan məlumat verilib.

Bildirilib ki, memorandum iki assosiasiya arasında təhsil, elm, innovativ düşüncə tərzinin inkişaf etdirilməsi, süni intellekt, elektron idarəçilik, "Luban Emalatxanaları" proqramı, mədəniyyət, gənclərin inkişafı və digər sahələrdə əməkdaşlığı nəzərdə tutur.

# Gözəlliklər məskəni, qəhrəmanlar diyarı

## Lənkəranı artıq Azərbaycan mirvarisi hesab etmək olar

**"Cənub mirvarisi" Lənkəran - şəninə nə qədər şeirlər yazılıb, nəğmələr bəstələnib. Hüsnünü görənlər heyran olub sənə. Bir də qonağın olmağı arzulayıb ürəyində. İstəyib bir tərəfdən yamyaşıl dağlar, digər bir tərəfdən mavigözlü Xəzərlə əhatə olunan təkrarsız mənzərələrini, ətirli limon, naringi, portağal bağlarını, yamyaşıl çay plantasiyalarını, flora və faunası ilə zəngin olan Hirkan Milli Parkını bir də görüb seyr etsin, qonaqpərvər insanların və ziyalılarınla görüşüb həmsöhbət olsun, limonlu çayından içsin, dadlı-ləzzətli süfrənin ləvəngisindən, plovundan dadsın.**



Böyük Yaradanın sənə bəxş etdiyi sərvətlərindir bunlar. Lakin bunların hamısının başı sənin Vətən, torpaq qədri bilən qeyrətli övladlarındır. Onlar hər yerdə, hər zaman lənkəranlı adını uca tutmağa, ona layiq olmağa çalışırlar. Saysız-hesabsız nəsillər gəlib, yaşayıb, köç edib qoynunda. Hər biri də özündən sonra bir nişanə, yadigar qoyub gedib. Onlarca abidələrin, daş kitabələrin, qalaların da onların - o igid sələflərin bu günümüzə gəlib çıxan əmanətləridir.

Lənkəran xanının yaşadığı sarayda bu gün rayon Tarix-Diyarşünüslıq Muzeyi fəaliyyət göstərir. Əsaslı təmirdən sonra əvvəlki görkəmini alan muzeydə Lənkəranın tarixinə dair toplanmış sənədlər, qiymətli əşyalar, eksponatlar bu diyarın qədimliyini, zəngin keçmişə, adət-ənənələrə malik olduğunu əks etdirir. Muzeydəki xatirə kitabında xarici ölkələrdən təşrif gətirən ali qonaqların, görkəmli dövlət adamlarının, şair və yazıçıların, digər məşhur şəxslərin Lənkəran haqqında yazdıqları sözləri, xoş ifadələri oxuduqca qürur hissi keçirirsən. Onlardan biri rus xalqının böyük şairi Nikolay Tixonovun bu diyarı "Cənub mirvarisi" adlandırdığı məşhur kəlamdır.

Lakin tarixin müəyyən dönəmlərində Lənkəran da bir çox çətinlik və əzab-əziyyətlərlə qarşılaşmışdır. Ağıllı, müdrik, uzaqgörən kişilərinin qətiyyətli mövqeyi, iradəsi sayəsində problemlər həll edilmiş, hər iş yoluna qoyulmuşdur. SSRİ-nin süqutundan sonra da belə olmuşdur. Bəzi separatçı ünsürlər Lənkəranın adına, şöhrətinə xələl gətirmək istəsələr də, bu, baş tutmadı. Zamanın gərdişini başa düşən rayon ağsaqqalları, ziyalıları buna yol vermədilər. Böyük siyasətçi Heydər Əliyevin yenidən respublika rəhbərliyinə gəlməsi üçün haqq səslərini ucaltdılar. 1993-cü il iyunun 15-i ölkəmizin həyatında dönüş günü oldu. Ulu Öndər Azərbaycanı dağılmaq, məhv olmaq təhlükəsindən xilas etdi. Problemlər addım-addım həllini tapdı, nəticədə sabitlik yarandı, ardınca bütün sahələrdə islahatlar başladı, dövlətin maddi imkanı artdıqca regionlar da inkişaf etdi. Bu, 2004-cü ildən başlayaraq İlham Əliyevin sərəncamları ilə təsdiqlənən 5 illik 4 regional inkişaf dövlət proqramı sayəsində mümkün oldu.

Həmin inkişafdan Lənkərana da pay düşdü. Rayonda yeni istehsal sahələri yaradıldı, yollar təmir olundu, qaz, işıq, su problemləri həll edildi, sahibkarlığın inkişafı ön sıraya çəkildi, dövlət tərəfindən verilən subsidiyalar, güzəştli kreditlər aqrar sahədə ciddi dönüş yaratdı, illərlə istifadəsiz qalan çay plantasiyalarına, sitrus meyvə bağlarına yeni can verildi, eyni zamanda əlavə plantasiyalar və bağlar salındı, çay, meyvə emalı müəssisələri fəaliyyətə başladı. Bütün bunlar isə əhalinin gün-güzəranının, sosial vəziyyətinin yaxşılaşmasına səbəb oldu.

2019 - 2023-cü illəri əhatə edən dördüncü regional inkişaf dövlət proqramı çərçivəsində, o cümlədən ötən il də Lənkəranda bir çox mühüm işlər görülmüşdür. Faktlara müraciət edək. Keçən il rayonda məhsul buraxılışı əvvəlki illərlə müqayisədə 5,6 faiz artmış, həmin sırada mühüm infrastruktur layihələri həyata keçirilmiş, sənayedə, kənd təsərrüfatında, tikintidə, yolların abadlaşdırılmasında xeyli işlər görülmüşdür. Həmçinin Lənkəran şəhərində "Laran" MMC Qənnadı fabrikinin tikintisini başa çatdıraraq istifadəyə vermiş, "Lənkəran Konserv" MMC-də ketçup və tomat, "Lənkəran Konserv" ASC-də tomat istehsalı üçün yeni avadanlıqlar quraşdırılmışdır.

Aqrar sektora gəldikdə, keçən il rayon üzrə 543,7 hektar çay plantasiyasından 334,3 ton yaşıl çay, 945 hektar sitrus meyvə bağlarından 9 min 714 tondan çox məhsul əldə edilmişdir. Həmin məhsullar həm yerli bazarlara göndərilmiş, həm də xarici ölkələrə ixrac olunmuşdur. Sitrus meyvəçiliyində isə "Lenk Fruit" MMC-nin uğurları daha çox diqqətçəkəndir. MMC-də bağların ümumi ərazisi 150 hektardan çoxdur. Bağlarda qardaş Türkiyədən gətirilən 141 min sitrus meyvə ağacı əkilmişdir. Ümumi dəyəri 10,7 milyon manat olan layihə üçün Sahibkarlığın İnkişafı Fondu tərəfindən müəssisəyə 1 milyon manat güzəştli kredit və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 148 min manat faizsiz kredit verilmişdir. Ən müasir aqrotexniki xidmətlərin göstərildiyi bağlarda damcı üsulu ilə müasir suvarma şəbəkələrindən istifadə olunur. Hazırda təsərrüfatda 110 hektar sahədə naringi və limon, 20 hektarda şaftalı, 5 hektarda nektarin və 7 hektarda giləmeyvə bağı mövcuddur. Yaxın gələcəkdə hər hektardan 30-40 ton məhsul əldə olunacağı gözlənilir. Ənənəvi sahə olan çəltikçiliyin inkişafı ilə bağlı görülən tədbirlər də nəticəsiz qalmamışdır. Keçən il çəltik əkilmiş 832,1 hektar sahədən 2 min 143,1 ton məhsul yığılmışdır. Paralel olaraq çiyələyə də maraq ildən-ilə artır. Bu, sahənin yaxşı qazanc verməsi ilə bağlıdır.









Rayonda yerli əhəmiyyətli, eləcə də kəndarası avtomobil yollarının tikintisi, yenidən qurulması və əsaslı təmiri də davam edir. Təkcə ötən il Lənkəran şəhərinin 12 küçəsinə asfalt döşənmiş, habelə 55 kilometrlik Lənkəran-Lerik və 7 kilometrlik Hirkan-Mamusta-Siyavar avtomobil yolunun tikintisi başa çatdırılmışdır. Ötən dövr ərzində həmçinin Lənkəran və Liman şəhərlərinin daxili yollarına asfalt örtüyü döşənmiş, 36,6 kilometrlik Səpnəkəran-Baba Şürük-Kosalar-Kərgəlan-Lüvəsər-Bəlləbur-Qurumba kəndarası avtomobil yollarında əsaslı təmir işləri aparılmışdır.

O ki qaldı elektrik enerjisi, təbii qaz və su ilə təchizata, ötən il rayon üzrə 20,3 min metr SİP kabel çəkilmiş, 1202 yeni SMART kart tipli sayğac quraşdırılmış, 11 yeni transformator məntəqəsi yaradılmış, 59 transformator gücü daha çox olanla əvəz edilmişdir. Əhalinin təbii qazla təchizatı sahəsində də xeyli işlər görülmüşdür. 340 yeni quraşdırılmış məişət qaz sayğacı və 363 SMART tipli sayğac istismara qəbul edilmiş, 2,8 min istismar müddəti bitmiş məişət qaz sayğacları yenisi ilə əvəzlənmiş, daxili imkanlar hesabına müxtəlif diametrli borularla ümumilikdə 10,3 min p/m qaz xətti çəkilmişdir. Dördüncü Dövlət Proqramı çərçivəsində rayon ərazisində 55,2 min p/m qazlaşdırma işi həyata keçirilmişdir. Ötən illər ərzində rayon əhalisinin içməli su təminatı da xeyli dərəcədə yaxşılaşmışdır. Belə ki, Lənkəran şəhərinin ayrı-ayrı küçə və məhəllələrinə yeni su xətləri çəkilmiş, bir çox primitiv qurğular və xətlər ləğv edilmişdir. Eyni zamanda əkinçilərin su təminatı ilə bağlı bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir ki, bu da məhsuldarlığa müsbət təsir göstərmişdir.

Şəhid ailələrinin, qazilərin, şəhər əhalisinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, digər tikinti-quruculuq və abadlıq işləri də unudulmur. Keçən il məcburi köçkünlər üçün inşa edilən beşmərtəbəli yaşayış evi şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə verilmişdir. Bundan əlavə, Lənkəran şəhərində qəzalı vəziyyətdə olan 4 çoxmərtəbəli binada bərpa-gücləndirmə və əsaslı təmir işləri görülmüş, 1 çoxmərtəbəli bina isə tam qəzalı vəziyyətə düşdüyündən sökülərək yerində yenisi inşa edilmişdir. Lənkəran şəhər büdcəsi hesabına çoxmənzilli binaların fasadları rənglənmiş, girişlərinə plastik qapılar qoyulmuş, pilləkənlərə baxan pəncərələr dəyişdirilmişdir. Habelə 90 çoxmənzilli yaşayış binasının dam örtüyü dəyişdirilmiş, 2 binada 3 lift yenidən qurulmuşdur.

Rayondakı Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən işsiz, xüsusilə əmək qabiliyyətli ünvanlı sosial yardım alan, habelə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin özünüməşğulluq proqramına cəlb olunması çərçivəsində keçən il 5,9 min nəfər işaxtaran kimi qeydiyyata alınmış, 3,4 min nəfərə işsiz statusu verilmiş, 880 nəfər işlə təmin olunmuşdur. 44 nəfər isə haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir.

Lənkərandan söz açıb, turizmə toxunmamaq mümkün deyil, xüsusən də turizmin inkişafı üçün ana təbiət Lənkərandan səxavətini əsirgəməyibsə. Bu sahədəki konkret faktlara keçək. "Carnaval" hotelində əsaslı təmir və genişləndirmə işləri aparılaraq o, "Mona hotel and cotteges" adı ilə yenidən fəaliyyətə başlamışdır. Sözügedən hotelin qarşısında müasir tələblərə cavab verən çimərlik də yaradılmışdır. İstisu qəsəbəsindəki "Starowoy hotel" də əsaslı təmir olunmuş, buradakı termal su vannalarında mühüm yeniliklər aparılmış, sağlamlıq ocağı öz xidmət sahələrini və imkanlarını genişləndirmişdir. Bunlardan əlavə, Haftoni qəsəbəsində "Dad House" restoranı nəzdində yeni 20 kotec, Daştatük kəndində ümumi sahəsi 1090 kvadratmetr olan üçmərtəbəli "Green Forest" istirahət mərkəzi turistlərin istifadəsinə verilmişdir. "Şəhərdən kəndə" layihəsi çərçivəsində aqroturizmin inkişafı üçün isə lazımi avadanlıqlar alınmış, habelə əyləncə guşəsi yaradılmışdır. Çay plantasiyalarına və sitrus meyvə bağlarına ekoturizm səyahəti üçün tədbirlər də həyata keçirilmişdir. "Yaşıl çay" fermer təsərrüfatında 22 nəfərlik "Nilado hotel"in və talış üslubunda hotel tipli kənd evlərinin tikilməsi başa çatdırılmışdır. Bunlarla bərabər, Rvo kəndində "Rivo Hille Resert Lankaran" hotel-restoran kompleksi, Lənkəran şəhəri Qala xiyabanı küçəsində "Salyut" hoteli, "Lankaran Sprinys Wellness Resort" (İstisu Sağlamlıq Mərkəzi), "Dəniz Hotel", "Restaurant" və "Hirkan Park Otel" hotel-restoran kompleksləri qapılarını turistlərin üzünə açmışdır.



Ümumiyyətlə, Lənkərana gələndə hər dəfə bir yeniliklə rastlaşırsan. Şəhərin mərkəzində - Heydər Əliyevin adını daşıyan memorial parkın yanında sovet dövründən qalma və bu yaxınlaradək bərbad halda olan keçmiş zabitlər evi indi - təmir və yenidənqurmadan sonra başqa görkəm alaraq ətrafa gözəllik qatır. Şəhərin, habelə rayonun ayrı-ayrı qəsəbə və kəndlərində də quruculuq işləri səngimir.

***Seyran CAVADOV, "Azərbaycan"***







# Tariximizin qanlı səhifələrindən biri olan Başlıbel faciəsindən 31 il ötür

**Son 200 ildə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti tariximizin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir.**



Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, əzəli Azərbaycan ərazilərində uydurma "böyük Ermənistan" dövləti yaratmaq olub. Ermənilərin xalqımıza qarşı vəhşiliklərindən biri də 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndində törədilib. Bu gün həmin faciədən artıq 31 il ötür.

AZƏRTAC Başlıbel faciəsi ilə bağlı bəzi məqamlara nəzər salır.

1993-cü il aprelin əvvəllərində Kəlbəcərin ermənilər tərəfindən işğalından sonra 2 minə yaxın əhalisi olan rayonun Başlıbel kəndinin 62 sakini evlərini vaxtında tərk edə bilməmiş və düşməndən qorunmaq üçün dağlara çəkilmişdi. Onlar burada kahalarda cəmi 18 gün gizlənə bilmişdilər. Aprelin 18-də ermənilər sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra onların üzərinə silahlı hücuma keçərək 18 nəfəri qətlə yetirdilər, 14 nəfəri isə girov götürdülər.

Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini tez-tez dəyişərək, yalnız gecələr hərəkət etməklə 113 gündən sonra gizli dağ yolları ilə Ermənistan ordusunun mühasirəsindən çıxa bildilər. Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən biri olan Başlıbelin tarixi, mədəni və dini obyektləri işğal zamanı dağıdılaraq məhv edildi.

Ötən müddət ərzində Başlıbel faciəsinin araşdırılması, tədqiqi dövlətimiz tərəfindən diqqətdə saxlanılıb. 2017-ci ildə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə" layihəsi əsasında eyniadlı kitab nəşr edilib. Azərbaycan və ingilis dillərində buraxılan nəşrdə Başlıbel kəndində törədilmiş qırğın haqqında canlı şahidlərin, mühasirədə qalanları xilas etmək üçün böyük fədakarlıq göstərmiş şəxslərin xatirələri yer alıb. Başlıbel faciəsi ilə bağlı məlumatlar ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Hüquqları və Əmək Bürosunun 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatına da daxil edilib.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini, ermənilərin öz havadarlarının köməyi ilə iki yüz il ərzində xalqımıza qarşı törədilmiş genosid siyasətinin ağır nəticələrini üzə çıxarmaq imkanı yarandı. Soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövləti bütün zəruri addımları atmağa başladı. Bu sahədə məqsədyönlü fəaliyyət Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlandı. Xalqımıza qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" Prezident fərmanı imzalandı. Bununla da dəhşətli soyqırımlarına, faciələrə hüquqi-siyasi qiymət verilmiş oldu.

Bu siyasəti uğurla davam və inkişaf etdirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində xalqımız böyük Zəfər qazandı. Ermənilərin tarixboyu xalqımıza qarşı törətdikləri bütün cinayətlərin cavabı məhz 44 gün davam edən Vətən müharibəsində və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatında verildi. Soyqırımı qurbanlarının, şəhidlərimizin qisasını Azərbaycan Ordusu döyüş meydanında alaraq düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Beləliklə, Kəlbəcər rayonu bir güllə atılmadan, şəhid vermədən düşmən tapdağından azad edildi. Baş planı təsdiq olunmuş Kəlbəcərdə hazırda geniş tikinti-quruculuq işləri həyata keçirilməkdədir.

Faşist ideologiyasına xidmət edən erməni şovinistləri Azərbaycan və türk xalqına qarşı hər zaman düşmən mövqedə olublar. Onlar müxtəlif dövrlərdə xalqımıza qarşı kütləvi qətliamlar törədib, soyqırımı aktları həyata keçiriblər. Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpərdən səhnələri üzə çıxır. Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar genişləndirilir, təkzibolunmaz arxiv sənədləri, soyqırımları və ermənilərin digər cinayətlərini təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır. Belə ki, 2021-ci ilin fevralında Şuşa rayonunun Daşaltı kəndində 7 nəfərin basdırıldığı kütləvi məzarlıq tapılıb. 2021-ci ilin aprelində Başlıbeldə də belə məzarlıq, 2022-ci ilin martında Xocalı rayonunun Fərrux kəndində meyit qalıqları aşkar edilib. Həmin ilin sentyabrında Xocavənd rayonunun Edilli kəndində 18 nəfərə aid meyit qalıqları aşkar edilərək kütləvi məzarlıqdan çıxarılıb. Bu il fevralın 21-də isə Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı kütləvi şəkildə basdırılmış insan qalıqları aşkarlanıb.

Bütün bu faktlar, həmçinin Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyindən hələ də xəbər olmaması ermənilərin insanlıq əleyhinə ağır cinayətlərindən xəbər verir. Bu cinayətlərə görə erməni vandalları və terrorçuları mütləq beynəlxalq hüquq və ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar.



◆ Yeni nəşrlər

# Erməni vəhşiliklərini əks etdirən ensiklopedik kitab

**Bu günlərdə Azərbaycan Milli Onkologiya Mərkəzinin əməkdaşı, həkim-onkoloq, tibb elmləri üzrə fəlsəfə doktoru, respublikanın Əməkdar həkimi Elçin Mansurovun "Kim üzr istəməlidir?" adlı ensiklopedik kitabı işıq üzü görüb.**








Milli Onkologiya Mərkəzinin konfrans zalında respublikanın müxtəlif profilli alimlərinin, millət vəkillərinin, elm və incəsənət xadimlərinin, media nümayəndələrinin iştirakı ilə yeni nəşrin təqdimat mərasimi keçirilib. İnanırıq ki, bu kitab hər bir Azərbaycan vətəndaşının, hər bir ailənin stolüstü kitabına çevriləcəkdir.

Kitabın əsas leytmotivini XX əsrin sonlarında erməni separatçılarının Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı cinayətləri və onların nəticələri haqqındakı dolğun məlumatlar təşkil edir. Bununla yanaşı, nəşrdə Qarabağın tarixinə, ermənilərin 200 il bundan əvvəl məqsədyönlü şəkildə Azərbaycan torpaqlarına yerləşdirilmələrinə, hayların tədricən Azərbaycan torpaqlarını assimilyasiyaya uğratmalarına, SSRİ dövründə isə bu prosesin daha intensiv şəkildə həyata keçirilməsinin qeyri-qanuniliyinə, açıq-aşkar işğalçılıq hərəkatının güclənməsinə də xüsusi diqqət yetirilmişdir.

Müəllif 30-35 il bundan əvvəl - 1988-1993-cü illərdə həm Qərbi Azərbaycanda, həm Qarabağın qeyri-qanuni muxtariyyət verilən dağlıq hissəsində - Şuşada, Xankəndidə, Xocalıda, Ağdərədə, Kosalarda, Xocavənddə, Hadrutda, Malıbəylidə, Quşçularda və digər yurd yerlərimizdə, eləcə də Qarabağın həmin hissəsinə aidiyyəti olmayan bölgələrdə - Kəlbəcərdə, Ağdamda, Füzulidə, Zəngilanda, Laçında, Qubadlıda, Cəbrayılda hayların törətdikləri amansız qırğınları, deportasiyaları, torpaqların işğalını təsvir etməklə kifayətlənmir. O həm də işğalçıların bütün cinayətkar əməllərini dəlil-sübutlarla, təkzibedilməz faktlarla ortaya qoyaraq ümumiləşdirilmiş və xeyli dərəcədə yumşaldılmış şəkildə "Kim üzr istəməlidir?" sualını səsləndirir və hər dəfə saysız-hesabsız olan hər bir cinayətin şərhindən sonra bu suala məntiqli cavab tələb edir. Suallar verilib, lakin Fransa, ABŞ, Kanada, eləcə də bir sıra digər Avropa ölkələri başçılarının qeyri-konstruktiv mövqe tutmaları, cinayətkarları açıq-aşkar, vicdan əzabı çəkmədən müdafiə etmələri, haqqın yox, haqsızlığın tərəfində dayanmaları sayəsində "Kim üzr istəməlidir?" sualına cavabın alınmasına imkan verilmir, buna qeyri-insani - vicdandankənar münasibət göstərilir.

Kitabı oxuyarkən hər bir oxucu dərk edir ki, erməni cinayətkarları özbaşına bu suallara nəinki cavab vermək iqtidarında deyillər, onlar bu ritorik suala heç vaxt özbaşına cavab verməyəcəklər.

Bu suallara düzgün cavabı yalnız dinindən, irqindən, dilindən, ictimai vəziyyətindən asılı olmayaraq, həqiqəti, obyektivliyi qoruyan Haaqa məhkəməsi verməlidir və ümid edirik ki, gec-tez verəcəkdir. Təbii ki, həqiqətin qələbəsi də onda olacaqdır. Əgər bunu Haaqa məhkəməsi də etməsə, Azərbaycanın Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyev özü bu məhkəməni təşkil edəcək və ədalətli məhkəmədə onlara bu suallar mütləq veriləcəkdir. Artıq bu prosesə də start verilmişdir. Müzəffər Ali Baş Komandanın apardığı düzgün istiqamətli müdrik siyasət nəticəsində Xankəndidə at oynadan bir qrup cinayətkar 23 saatlıq antiterror əməliyyatından sonra həbs edilərək Bakıya gətirilib və onlar haqq-ədalət məhkəməsi qarşısında cavab verməyə başlayıblar. Deməli, artıq hay cinayətkarlarının müəyyən hissəsinin törətdikləri əməllərə görə cavab vermələrinin təməli qoyulub. Onların sırasında qatı cinayətkar, milyarder Ruben Karlenoviç Vardanyan da yer alıb. Baxın, Bakıda təcridxanada olan cinayətkarı cəzalandırmaq əvəzinə himayədarları - cinayət tərəfdarları onu yeni cinayətlərə şirnikləndirir, "Nobel "sülh" mükafatı"na namizəd etməyə hazırlaşırlar. Budur ikiüzlülük, budur naqislik, budur haqsızlıq və riyakarlıq.

Bu kitab təkcə dünənə və bu günə aid olan kitab deyil. Bu həm də gələcəyə işıq saçandır, kimliyindən asılı olmayaraq, ürəklərə yatan, qəlblərə yol tapan kitabdır. Elçin Mansurovun zərif həkim ürəyinin incə tellərindən süzülüb gələn hər bir cümlə bir yerə cəmləşərək qaynar bulağı xatırladır. Onun "Qurani-Kərim"ə, "İncil"ə, "Tövrat"a müraciəti də XXI əsrin ən böyük sərkərdəsi Prezident İlham Əliyevin Azərbaycana bəxş etdiyi yenilməz zəfərlərin major notlarının təntənəsinin təsdiqləyicilərindəndir.

Əsəri vərəqlədikdə onun elmiliyinə də diqqət yetirməkdən yan keçmək olmur. Kitab sözün həqiqi mənasında əsl monoqrafiya stilində yazılmış elmi əsəri xatırladır. Burada qarşıya qoyulan giriş, aktuallıq, məqsəd, material və metodlar, nəticələr, elmi-praktik əhəmiyyət kimi müddəalar geniş araşdırılıb, onların hamısına yüksək səviyyədə anlaşıqlı cavablar verilib. Fikrimizcə, yüksəkkeyfiyyətli orijinal illüstrasiyalarla müşayiət olunan 347 səhifəlik kitab həm də mükəmməl bir elmi əsər səviyyəsindədir. Bu nəşr xarici dillərə də tərcümə olunacaq.

Belə əsərlər heç də hər vaxt hər yerdə yaranmır. Bunun üçün əlverişli şəraitin olması əsas amillərdəndir. Faktiki dəlillərlə zəngin olan belə bir dolğun salnamənin işıq üzü görməsində dünyaşöhrətli alim, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əziz oğlu Əliyevin müstəsna xidmətləri olub.

Çox istərdik ki, Azərbaycanda elmin, təhsilin inkişafına, istedadların parlamasına, şəxsiyyətin hərtərəfli inkişafına münbit şərait yaradılan, hər kəsə əsl qayğı göstərilən belə müəssisələrin sayı və sanbalı bu nümunədən qaynaqlanaraq daha da artsın. Bu, Azərbaycan elminin, mədəniyyətinin, incəsənətinin bütün sahələrinin parlaq gələcəyi, gənclərin boyartımı, şaxələnməsi, proqresləşməsi naminə çox vacibdir.

*Mübariz ALLAHVERDİYEV,*
*ATU-nun professoru,*
*Əməkdar müəllim, Xocalı sakini*

# Ölkəmizə qarşı uydurma yalanlar reallıqdan çox uzaqdır

## Qərbi Azərbaycan İcması bunu bəyanatında dünya ictimaiyyətinə çatdırır

**Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi məqsədilə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan Qayıdış Konsepsiyasının müddəa və tələblərinin icrasının fəaliyyət coğrafiyasını artırır. Redaksiyaya daxil olan müraciətlərdən, məktub və teleqramlardan, internet mesajlarından göründüyü kimi, icmanın fəaliyyəti əhalidə məmnunluq doğurur. Xüsusən də xarici ölkələrdə yüksək tribunalarda Azərbaycanın haqq işinə qara yaxmağa çalışanların, işğalçı və terrorçu ermənilərin müdafəsinə qalxanların arxiv materiallarına əsaslanan rəsmi sənədlər, fakt və rəqəmlər əsl həqiqətin kimin tərəfində olduğuna bariz nümunədir.**

Avropa İttifaqının (Aİ) sözçüsü Peter Stanonun "Azadlıq" radiosunun erməni xidmətinə aprelin 6-da verdiyi müsahibəsində ifadə etdiyi təxribatçı fikirlərə cavab da bu yöndə görülən işlərdən biridir, Qərbi Azərbaycan İcması yaydığı bəyanatda müsahibənin həqiqətdən uzaq olduğunu və təxribatçı mövqedən hazırlandığını dünya ictimaiyyətinə açıqlamışdır. Avropa İttifaqının rəsmisi Ermənistana dair sualın cavabında ərazi bütövlüyü prinsipinin əhəmiyyətindən geniş danışıb və bununla da guya beynəlxalq hüquqa əhəmiyyət verdiklərini göstərməyə çalışıb. O, müsahibəsində etnik ermənilərin Azərbaycana qayıtmasına şərait yaradılması məsələsini də qaldırıb.

"Sadə sual meydana çıxır - görəsən, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayanda Aİ hara baxırdı? Avropa səkkiz Azərbaycan kəndinin Ermənistan tərəfindən işğalının davam etməsinə niyə hələ də susur? Nə üçün Aİ Ermənistandan sonuncu etnik təmizləmə dalğasında qovulmuş 300 mindən artıq azərbaycanlının qayıtması məsələsini və Ermənistanda Azərbaycan mədəni irsinin kütləvi şəkildə dağıdılması məsələsini qaldırmır?

Belə çıxır ki, Ermənistandan azərbaycanlıların qovulmasının üstündən müəyyən müddət keçdiyi üçün onların qayıdış hüquqları daha aktual görünmür?

Bütün bunlar Aİ-nin etnik və dini ayrı-seçkiliyini sübut edir. Aİ nə insan haqları, nə də beynəlxalq hüquqla bağlı səmimi deyil. Hazırda Aİ-nin siyasəti Azərbaycandakı ermənilərin "hüququ" kimi köhnə alətdən istifadə edərək Ermənistanı Azərbaycana qarşı təhrik etməkdən ibarətdir.

Biz Aİ-nin təxribatçı yanaşmasını qəti şəkildə rədd edir və buna son qoyulmasını tələb edirik", - deyə icmanın bəyanatında vurğulanıb. Həmçinin qeyd olunub ki, qayıdış məsələsində ayrı-seçkiliyə yol verilməməli, qarşılıqlılıq prinsipinə riayət edilməli və 30 ildən artıq tarixi yurdlarına dönüşün intizarında olan qərbi azərbaycanlıların qayıdışı prioritet məsələ kimi həll edilməlidir.

Avropa İttifaqının sözçüsü Peter Stanonun "Azadlıq" radiosunun erməni xidmətinə verdiyi müsahibənin üstündən çox keçməmiş Amerika Birləşmiş Ştatlarının (ABŞ) Ermənistandakı səfiri Kristina Kvien Azərbaycandan köçmüş ermənilərin təhlükəsiz şəkildə geri qayıtmaq məsələsini qaldırıb və bu məsələnin qapanmadığını bildirib.

"Qayıdış hüququndan danışan səfir ilk növbədə akkreditə olunduğu ölkədə bu sahədə vəziyyətə dair fikrini bildirməlidir. Görəsən, səfir Kvien Ermənistandan azərbaycanlıların qovulması, onların mədəni irsinin dağıdılması və qayıdış hüququnun Ermənistan tərəfindən təmin edilməməsi barədə niyə bir dəfə də olsun danışmayıb?

Biz ABŞ hökumətinə bir daha müraciət edərək, onu Ermənistandan qovulmuş azərbaycanlılara qarşı etnik və dini zəmində ayrı-seçkiliyə son verməyə və onların sülh yolu ilə, ləyaqətli və təhlükəsiz şəkildə geri qayıtmalarına dəstək verməyə çağırırıq", - deyə bəyanatda vurğulanıb.

Xatırladaq ki, aprelin ikinci ongünlüyündə ABŞ-də fəaliyyət göstərən, özünü demokratiya və insan hüquqlarının keşikçisi kimi qələmə verən "Freedom House" təşkilatı illik hesabat dərc edib. "Xalqlar keçiddə 2024" adlı hesabatda beynəlxalq aləmdə cərəyan edən geosiyasi qarşıdurmaya ideoloji rəng verməyə çalışılıb.

Hesabatın müəllifləri açıq-aşkar qızışdırıcı mövqe tutaraq, diplomatiya və qarşılıqlı anlaşmaya qarşı çıxır, habelə ayırıcı xətləri dərinləşdirərək dövlətləri bu və ya digər düşərgəyə aid edirlər. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini, müstəqil siyasət yürütməsini həzm edə bilməyən hesabatın sifarişçiləri 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş antiterror tədbirlərinin guya insan hüquqlarını pozduğunu iddia edirlər.

Bu barədə icmanın Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski bildirdi ki, ABŞ-də fəaliyyət göstərən, əslində, muzdlu hökumət aləti olan, özünü "demokratiya və insan hüquqlarının keşikçisi" kimi qələmə verən "Freedom House" təşkilatı bu məqsədlər üçün dövriyyəyə buraxılıb. Dünya ictimaiyyətinə yalan sırımağa çalışan "Freedom House"un illik hesabatı reallıqdan uzaqdır. Bu barədə icmanın bəyanatında da vurğulanır ki, təşkilatın "Xalqlar keçiddə 2024" adlı zərərli və yanlış olan məlumatında Azərbaycanın xüsusi hədəfə alınması "Freedom House"da kök salmış, vitse-prezident Anni Boyacıyan daxil olmaqla çoxsaylı radikal erməni funksionerlərinin fəaliyyətinin nəticəsidir. "Freedom House"un erməni əməkdaşları insan hüquqları kimi ali dəyəri müdafiə etmək əvəzinə milli təəssübkeşlikdən çıxış edərək Azərbaycana qara yaxırlar.

Prezident İlham Əliyev hələ ötən il iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibəsində "Freedom House" və digər oxşar təsisatları ifşa etmiş və bildirmişdir ki, "Hamımız bilirik onlar müstəqil deyil. Kim deyə bilər ki, "Human Rights Watch", "Amnesty İnternational" və "Freedom House" müstəqildirlər. Baxın, onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar".

"Freedom House"un "Xalqlar keçiddə 2024" adlı hesabatı, bu sənəddə dünyanı "bizdən və bizdən olmayan" bloklara bölən, açıq formada ayrı-seçkilik və nifrət dili təşviq edilməsi fonunda Azərbaycan Prezidentinin fikirlərində nə qədər haqlı olduğunu bir daha görürük.

Belə olan halda icmanın bu barədə bəyanatında deyildiyi kimi, "Freedom House"un erməni təəssübkeşliyi sadəcə ikrah doğurur.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# REGİONLAR

## İşğaldan azad olunmuş ərazilərdə 13 məktəb tikilir

**"Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində azad olunan ərazilərdə hazırda 5 ümumi təhsil müəssisəsi fəaliyyət göstərir".**

Bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov keçirdiyi hesabat tədbirində deyib. Onun sözlərinə görə, 13 məktəbin təmir-tikintisi davam edir, 2-si yekunlaşıb, 6-nın isə təmir-tikintisinə başlanılacaq.

"Bundan başqa, azad olunan ərazilərdə hazırda 2 uşaq bağçası fəaliyyət göstərir: "4-nün təmiri davam edir, 4-nün də təmir-tikintisinə başlanılacaq", - deyə E.Bağırov bildirib. O həmçinin deyib ki, Qarabağ və Şərqi Zəngəzurda hazırda 2 uşaq bağçası fəaliyyət göstərir. "4-nün təmiri davam edir, 4-nün isə təmir-tikintisinə tezliklə başlanılacaq", - deyə agentliyin rəhbəri vurğulayıb.

## Ağdamdan Əsgərana yeni yol çəkilir

**Bərdə-Ağdam avtomobil yolunun 40-cı kilometrini Əsgəran qəsəbəsi ilə birləşdirən (Ağdam şəhərinin dairəvi yolu) və uzunluğu 18 km olan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla II texniki dərəcəyə uyğun olaraq inşa edilir.**

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin inşası da aparılır.

Yeni avtomobil yolu imkan verəcək ki, Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlər Ağdam şəhərinə daxil olmadan bu dairəvi yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etdirsinlər.

***L.QULİYEV,***
***"Azərbaycan"***

# Kənd təsərrüfatı məhsullarının istehsalı artıb

## Artım həm bitkiçilik, həm də heyvandarlıq məhsulları üzrə olub



**Prezident İlham Əliyevin bölgələrə növbəti səfərləri, Şirvan suvarma kanalının təməlini qoyması, Qarabağ suvarma kanalının yenidən qurulması barədə sərəncam imzalaması aqrar sektorun inkişafının daim diqqətdə olduğunu bir daha təsdiq etdi. Sahədə aparılan işlərin davamlı olması isə təbii ki, öz müsbət nəticələrini göstərir.**

Ölkənin kənd təsərrüfatı getdikcə irəliləyir, unudulmuş, tənəzzülə uğramış sahələr dirçəldilir, məhsuldarlıq artır. Şirvan suvarma kanalının təməlini qoyarkən dövlətimizin başçısı demişdir: "Mən bir həftə bundan əvvəl Hacıqabul rayonunda yerləşən aqroparkın fəaliyyəti ilə tanış olmuşam. Mənə məlumat verildi ki, burada 4 mindən çox hektarda taxıl əkini aparılmışdır və məhsuldarlıq hər hektardan buğda üzrə 7 tona yaxın olmuşdur. İndi müqayisə üçün deyim ki, ölkəmizdə orta məhsuldarlıq hər hektardan 3 tondan bir qədər çoxdur. Burada - Hacıqabulda heç vaxt o sahələrdə əkin aparılmamışdır - nə sovet vaxtında, nə müstəqillik dövründə. Çünki su yox idi və torpaq da o qədər münbit deyil. Su olanda, yeni texnologiyalar tətbiq ediləndə, texnika, dövlətin dəstəyi, özəl sektorun fəaliyyəti - bütün bu amillər birləşəndə, bax, biz bu nəticəni görürük - Hacıqabulda hər hektardan 7 ton. Amma torpağı daim münbit olan yerlərdə bu rəqəm daha da arta bilər".

Məqsəd də budur. Hədəf həm də təkcə bir məhsul növü üzrə deyil, kənd təsərrüfatının bütün sahələrində yüksək göstəricilərə nail olmaqdır. Bəs Azərbaycan kəndlisi bu ilin birinci rübünə necə yekun vurub? Hazırda kənddə hansı işlər görülür? Bu ilin bol məhsulu barədə nikbin proqnoz vermək olarmı? Dövlət Statistika Komitəsinin təqdim etdiyi fakt və rəqəmlərə nəzər salaq.

Bu ilin yanvar-mart ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1 milyard 444,6 milyon manat təşkil edib. Bunun 1 milyard 368,5 milyon manatı heyvandarlıq, 76,1 milyon manatı bitkiçilik məhsullarının payına düşüb. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 1,1, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1, bitkiçilik məhsulları istehsalı 2,9 faiz artıb.

Hazırda ölkədə yaz-tarla işləri gedir və ilin ötən 3 ayında 121,5 min hektar sahədə və ya keçən ilin eyni dövrü ilə müqayisədə 8,6 faiz çox yazlıq bitkilərin səpini aparılıb. Bu dövrdə 20,7 min hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 3 min hektarı dən üçün qarğıdalı), 27,1 min hektar sahədə kartof, 27,3 min hektar sahədə tərəvəz, 3,5 min hektar sahədə bostan bitkiləri, 1,6 min hektar sahədə dən üçün günəbaxan, 1,3 min hektar sahədə şəkər çuğunduru, 36,5 min hektar sahədə çoxillik otlar və 3,5 min hektar sahədə birillik otlar əkilib.

Təsərrüfatlarda yanvar-mart aylarında 96,6 min ton, yaxud keçən ilin eyni dövrünə nisbətən 2,7 faiz çox tərəvəz məhsulları yetişdirilib.

Mal-qaranı və qoyun-quzunu qışlamadan salamat çıxaran heyvandarlarımız da ilin əvvəlindən yaxşı nəticələr əldə etməyə səy göstəriblər. Belə ki, yanvarın 1-dən martın sonunadək quş əti də daxil olmaqla diri çəkidə 139,2 min ton ət, 504,5 min ton süd, 571,7 milyon ədəd yumurta istehsal edilib. Bununla da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 0,6, süd istehsalı 0,6, yumurta istehsalı 5,2 faiz artıb.

Aprelin 1-i vəziyyətinə ölkədə 7 milyon 206 min baş qoyun və keçi, 2 milyon 512,8 min baş iribuynuzlu mal-qara, o cümlədən 1 milyon 238,8 min baş inək və camış, 4965 baş donuz mövcud olub. İribuynuzlu mal-qaranın 49,3 faizini inək və camışlar təşkil edir.

Cari ilin yanvar-mart aylarında quşçuluq müəssisələrində diri çəkidə 20,9 min ton quş əti və 296,6 milyon ədəd yumurta istehsal olunub. Ümumilikdə bu müəssisələrdə cəmi quşların sayı 10 milyon 607,5 min baş olub və hər yumurtlayan toyuqdan orta hesabla 73 ədəd yumurta alınıb.

Nə xoş ki, artıq işğaldan azad edilmiş ərazilərimizdə də məhsul istehsal olunur. Prezident İlham Əliyev Şirvan suvarma kanalının təməlini qoyarkən indi Qarabağ və Şərqi Zəngəzur torpaqlarında quruculuq işləri ilə bərabər, kənd təsərrüfatının inkişafının da geniş vüsət aldığını qeyd etmişdir: "Oraya qayıdan vətəndaşlar artıq bu imkanlardan istifadə edirlər. Eyni zamanda ən müasir texnologiyaların tətbiqi nəticəsində orada həm taxılçılıq, həm meyvəçilik, bostançılıq, üzümçülük geniş vüsət alacaq. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ən gözəl yerlərindən biridir və kənd təsərrüfatı üçün yararlı torpaqların, su resurslarının - çayların, bulaqların, yaylaqların mövcudluğu həm heyvandarlıq, həm də bitkiçilik üzrə çox böyük imkanlar yaradır. Biz hər şeyi planlı şəkildə edirik ki, hər qarış torpaqdan maksimum məhsuldarlıq, maksimum səmərə götürək və bunu edəcəyik".

Görülən genişmiqyaslı işlər, həyata keçirilən önəmli layihələr bizi kənd təsərrüfatı məhsullarının idxalından imtina edəcəyimiz günə yaxınlaşdırır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ağcabədi - aqrar inkişaf "qatar"ının lokomotivi

## Ötən il rayon fermerləri pambıqçılıqdan 16,5 milyon manat xalis gəlir əldə etmişlər

**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi, müzəffər sərkərdə qətiyyəti ilə ordumuz, qəhrəman Azərbaycan əsgəri nankor qonşularımızın 30 il işğal altında saxladıqları, odlara qalayıb viran qoyduqları Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edərək Azərbaycanın dövlətçilik tarixinə qürurverici parlaq səhifələr yazdı.**





Dünən döyüş meydanında Ermənistan silahlı qüvvələrini darmadağın edib təslimçilik aktına qol çəkməyə məcbur edən Azərbaycan indi işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa, quruculuq işləri aparır. Bu gün Qarabağ və Şərqi Zəngəzur başdan-başa böyük inşaat meydanıdır. Faşist xislətli ermənilərin xarabaya çevirdikləri kəndlər, şəhərlər yenidən qurulur, yollar çəkilir, körpülər salınır, infrastruktur yaradılır. Ardınca isə böyük qayıdış başlayır. Doğma yurda, həsrət qaldıqları isti yuvalarına qovuşan ailələrin sayı sürətlə artır. Bu adamların isti nəfəsi, hərarətli əlləri, doğma baxışları Qarabağa, Şərqi Zəngəzura yenidən həyat verir. Uzun müddət sahiblərinin həsrətini çəkən kənd və şəhərlərimiz doğmalarını durnagözlü bulaqlarının şirin zümzüməsiylə, gözoxşayan yaşıl yamacları, əlvan gülləri, çiçəkləri ilə qarşılayır.

İkinci Qarabağ savaşının böyük zəfərlə sonuclanmasına Ağcabədinin də sanballı töhfələri olmuşdur. Ermənistan silahlı qüvvələrinin atdığı raketlər, artilleriya mərmiləri Ağcabədinin yaşayış məntəqələrinə xeyli ziyan vurmuş, çox sayda evlər, sosial obyektlər dağılmış, mülki insanlar həlak olmuşdur. Ön xətdə düşmənlə döyüşdə gerçək qəhrəmanlıq, əsl fədakarlıq göstərən ağcabədili igidlərin böyükləri isə arxa cəbhədə çalışmış, qələbənin yaxınlaşmasına töhfələrini vermişlər.

İndi yaz-tarla işlərinin qızğın çağıdır. Günəşin isti nəfəsini duyan torpaq yavaş-yavaş canlanır. Ağcabədili fermerlər təsərrüfatlarda çiyid səpininə mütəşəkkilliklə başlamışlar. Taxıl zəmilərində isə aqrotexniki tədbirlər həyata keçirilir - zəmilərə yemləmə gübrəsi verilir, alaq otlarına qarşı mübarizə aparılır, sahələr suvarılır.

Ölkədə aqrar sektorun inkişafında son illər Ağcabədinin seçilməsini cəsarətlə demək olar. Rayonda yaradılmış sağlam mənəvi-psixoloji mühit qazanılan uğurlarda gerçək bir stimula çevrilib. Rayon icra hakimiyyətində (RİH) vətəndaşların ərizə və şikayətlərinə, təklif və müraciətlərinə baxılması mütərəqqi qaydalar əsasında təşkil olunub. Bu məqsədlə yaradılmış qurum öz səmərəli fəaliyyəti ilə RİH-ə üz tutanlarda məmnunluq yaradır. Zəruri avadanlıqlarla (avtomobil, kompüterlər, planşetlər) təchiz olunmuş qurum hər bir müraciəti diqqətlə araşdırır, operativ tədbir görür və nəticədə hər kəs razı qalır. Beləcə vətəndaş-məmur münasibətlərinin arzuolunan səviyyədə formalaşması reallaşır. O da qeyd edilməlidir ki, vətəndaş müraciətlərinə baxılmasına bu cür yanaşılması sayəsində rayondan mərkəzi icra orqanlarına, ayrı-ayrı dövlət qurumlarına göndərilən şikayətlərin sayı xeyli azalmışdır.

Ağcabədi ölkənin qabaqcıl kənd təsərrüfatı rayonlarındandır. Burada taxılçılığın, pambıqçılığın, heyvandarlığın, baramaçılığın inkişafına böyük önəm verilir. Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrin inkişafı ilə bağlı tapşırıq və tövsiyələrinə Ağcabədi rayonunda son dərəcə məsuliyyətlə yanaşılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsi məmnunluq doğurur. Məsələn, götürək pambıqçılığı. Keçən il rayonda 11493 hektarda pambıq əkilmiş, 36250 ton məhsul istehsal edilmiş, hər hektarın məhsuldarlığı 31,5 sentner olmuşdur ki, bu da ölkə üzrə yüksək göstəricilərdən sayılır.

Pambıq strateji məhsuldur. Dövlət onun istehsalında maraqlıdır və ona görə də pambıq əkib-becərən kəndlinin maraqlarını da yüksək səviyyədə nəzərə alır. Rəqəmlərə müraciət edək. Ötən il tədarük edilən pambığın qarşılığında rayon fermerləri 9,5 milyon manat gəlir əldə etmişlər. Dövlət büdcəsindən ayrılan subsidiyanın məbləği isə 7 milyon manat olmuşdur. Bütövlükdə keçən il rayon üzrə pambıqçılıqdan əldə olunan xalis gəlir 16,5 milyon manata çatmışdır. Bu, yetərincə yüksək gəlirdir və kəndlinin güzəranına, dolanışığına əhəmiyyətli dərəcədə təsir göstərdiyi şübhəsizdir. Yeri gəlmişkən, qeyd edək ki, pambıq əkib-becərən kəndlinin keçən il orta hesabla hər hektardan gəliri 1435 manat olmuşdur.

Rayon icra hakimiyyətinin başçısı, idarəetmədə və təsərrüfat işlərində zəngin təcrübəsi olan Rafil Hüseynov söhbət zamanı cari ilin qayğılarından, qarşıda duran vəzifələrdən də danışdı. Dedi ki, Ağcabədi böyük potensiala, geniş iqtisadi imkanlara malik rayondur: "Dövlətin hər cür dəstəyini gündəlik işində hiss edən Ağcabədi kəndlisi maddi nemətlər bolluğu yaratmaqda maraqlıdır. Rayonda torpaq münbit, insanlar əməksevər və işgüzardır. Qalır bu potensialı doğru istiqamətə yönəltmək. Aprelin 4-də rayon mədəniyyət mərkəzində pambıqçıların geniş tərkibdə müşavirəsini keçirdik. Müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin və onun Elmi İnnovasiya Mərkəzinin, Aqrar Xidmətlər və Dövlət Su agentliklərinin, pambıqçılıqla məşğul olan şirkətlərin, Aqrar Sığorta Fondunun, Qida Təhlükəsizliyi Agentliyinin və digər əlaqədar təşkilatların məsul əməkdaşları iştirak edirdilər. Geniş fikir mübadiləsi apardıq, məsləhətləşmələr etdik. İndi zaman başqadır. Elmi yenilikləri, mütərəqqi texnologiyaları tətbiq etmədən hədəfə çatmaq mümkün deyil. Müşavirədə səslənən faydalı məsləhətlər heç şübhəsiz öz bəhrələrini verəcək. Bu il 13 min hektardan artıq sahədə pambıq əkiləcək. Hədəfimiz məhsuldarlıqda rekordu təzələməkdir".

R.Hüseynovun söhbətindən o da aydın oldu ki, çiyid səpini yüksək aqrotexniki qaydalar əsasında aparılır. İndiyədək 3 min hektardan çox sahəyə çiyid səpilib. Bol məhsula etibarlı bünövrə qoymaq üçün indidən zəruri tədbirlər görülür. Ağcabədidə qabaqcıl pambıq ustaları çoxdur. Keçən il pambıq əkən fermerlərdən 188 nəfəri 50 sentnerdən yüksək məhsuldarlığa nail olmuşdur. Ötən təsərrüfat ilində fərqlənmiş fermerlər Famil Quliyev, İskəndər Hüseynov, Etibar Şirinov və Abdulla Həsənov indi çiyid səpinində də nümunə göstərirlər.

Ağcabədi həm də iri taxılçılıq rayonudur. Ötən təsərrüfat ilində 26664 hektardan 120 min 714 ton taxıl biçilmiş, orta məhsuldarlıq 45,3 sentner olmuşdur. Bu ilin məhsulu üçün isə 32129 hektarda taxıl yetişdirilir. Aqrotexniki qaydalarla becərilən zəmilər bol məhsuldan xəbər verir.

Rayonun kümçüləri də yeni mövsümə inamla hazırlaşırlar. Keçən il 700 qutu ipəkqurdundan 34450 kiloqram barama tədarük edən kümçüləri indi həmin göstərici qane etmir. Builki hədəf hər qutu ipəkqurdundan 50 kiloqramdan çox barama istehsal etməkdir. Bunun üçün kümxanalar təmir edilərək hazır vəziyyətə gətirilib. Çəkil bağlarına qulluq da öz yerində.

Baharın gəlişi çöllərin sükutunu pozub. Əl içi kimi hamarlanmış sahələrdə şırımlar açan texnikalar sanki ana torpağa bərəkət nəğməsi oxuyur. Yaz mehi toxunduqca dəniz kimi dalğalanan zümrüd donlu zəmilər bu il də təknəmizin boş qalmayacağından soraq verir. Niyyəti bolluq, istəyi firavanlıq olan hünərvər Ağcabədi kəndlisi yaradır bu ürəkaçan mənzərəni.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Qazaxda Aqrar Biznes Festivalı keçirilib

**Qazaxda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və Sahibkarlığın İnkişafı Fondu, İstehlak Mallarının Ekspertizası Mərkəzi və Sahibkarlar Konfederasiyasının tərəfdaşlığı ilə Aqrar Biznes Festivalı keçirilib.**

Rayon Olimpiya İdman Kompleksinin ərazisində təşkil edilən festivalda Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri tabeli qurumları, bank və bank olmayan kredit təşkilatları iştirak ediblər. Türkiyə, Özbəkistan və Qazaxıstanın Azərbaycandakı səfirləri, Şimali Kipr Türk Cümhuriyyətinin ölkəmizdəki nümayəndəsi də festivalı ziyarət edib, şirkətlərin təqdim etdiyi məhsul və xidmətlərlə tanış olublar.

Tədbirdə çıxış edən natiqlər fermerlərin maarifləndirilməsi istiqamətində bu cür tədbirlərin əhəmiyyətinə toxunub, kənd təsərrüfatı istehsalçılarının aqrar innovasiyalara və maliyyə mənbələrinə çıxışını əlçatan edən bu festivallarda əməkdaşlıq imkanlarının geniş olduğunu vurğulayıblar.

Festivalda dövlət qurumları, aqrar sahədə fəaliyyət göstərən özəl şirkətlər fermerlər üçün ən yaxşı qabaqcıl kənd təsərrüfatı təcrübələrini bölüşüblər. Festivalın sərgi bölməsində kənd təsərrüfatlı təyinatlı müasir texnikalar, yeni suvarma texnologiyaları və resurslara qənaət edən effektiv əkin üsulları, bitki mühafizə vasitələri, müxtəlif bitki və tərəvəz toxumları nümayiş olunub. Festivalda Qazax, Ağstafa, Tovuz, Şəmkir, Samux, Göygöl və Gədəbəy rayonlarından fermerlər iştirak edib.

Festival çərçivəsində keçirilən kredit yarmarkasında Aqrar Kredit və İnkişaf Agentliyi, Sahibkarlığın İnkişafı Fondu, bank və bank olmayan kredit təşkilatları tərəfindən fermerlərə güzəştli kreditlər təklif edilib. Fermerlərə aqrar təyinatlı kreditlər və müxtəlif kredit məhsulları barədə ətraflı məlumat verilib.

Fermerlərin maarifləndirilməsi istiqamətində Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu Publik Hüquqi Şəxs və Aqrar Xidmətlər Agentliyi Yanında Aqrar Təlim Mərkəzi tərəfindən təlimlər həyata keçirilib. Təlim zamanı mütəxəssislər tərəfindən "Kartofun müasir üsullarla becərilməsi", "Payızlıq taxıl əkiləcək sahələrin səpinə hazırlanması" mövzularında təqdimatlar keçirilib. Mövzu ətrafında müzakirələr aparılıb, fermerlərin sualları cavablandırılıb.



2024-cü ildə ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) tədbirinin çağırışlarının təşviqatı məqsədilə festivalda təbiətqoruyucu və iqliməşdost texnologiyalar nümayiş olunub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***






# Gənclik







**● Qarabağ Azərbaycandır!**



# Vətən sevgisi və müqəddəs amal

**Gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, təhsili, istedadlarının inkişaf etdirilməsi cəmiyyət üçün əsas vəzifələrdəndir. Onlar hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı qüvvədir. Təsadüfi deyil ki, müasir dövrdə gənclər sahəsində qazanılan uğurlar dövlətlərin ümumi inkişaf səviyyəsini, potensialını müəyyənləşdirən vacib meyarlardan sayılır. Dünyanın bütün sivil cəmiyyətlərində onların hərbi-vətənpərvərlik, mənəvi-ideoloji tərbiyəsinə, sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Gənclər bizim sabahımızdır. Bir neçə ildən sonrakı dövrün ictimai mənzərəsi indi böyüməkdə olan nəslə yaradılmış şəraitdən, inkişaf mühitindən asılı olacaq. Bu baxımdan sağlam düşüncəli, savadlı nəslin yetişdirilməsi cəmiyyət üçün mühüm məsələdir.**

## İntellektual potensial yüksəlişin əsas təminatıdır

Bu gün ictimai mühitdə elmin və ziyalılığın, qabaqcıl texnologiyaların böyük əhəmiyyəti təbliğ edilir, milli modernləşmə hamı tərəfindən dərk olunan hədəfə çevrilir. Eyni zamanda cəmiyyətimizdə innovativ və texnoloji yeniləşmə zərurətinin irəli sürülməsi, peşəkar kadr ehtiyatının formalaşması dövlət rəhbərinin bu istiqamətdəki ardıcıl və qətiyyətli siyasi xəttidir. Azərbaycan Prezidentinin sərəncamı ilə 2019-cu ildən reallaşdırılan "Yüksəliş" müsabiqəsi cəmiyyətdə böyük maraq doğurmuşdur. Məqsəd intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

Kadr ehtiyatı sisteminin yaradılması dünyanın müxtəlif ölkələrində tətbiq olunan müsbət təcrübədir. Azərbaycan belə bir təcrübəni formalaşdırmaq üçün demək olar ki, ideal yol seçib. Bu sahədə mütərəqqi ənənələri və xarici təcrübədə özünü doğrultmuş ən yaxşı nümunələri götürərək milli sistemini yaradır. Şəffaflıq, ədalətlilik, obyektivlik, hər kəsə bərabər imkanlar mühitinin yaradılması burada əsas prinsiplərdir. "Yüksəliş" müsabiqəsi də eyni prinsiplərə xidmət edir.

Son illərdə bir çox uğura imza atmış, böyük qələbələr qazanmış Azərbaycanın mühüm nailiyyəti "qara qızılı", yəni ölkəmizin əsas təbii sərvətlərindən olan nefti insan kapitalına çevirməyi bacarmasıdır. Müasir dünyada rəqabətə tab gətirmək üçün ilk növbədə zəngin biliklərə, bacarıqlara, səriştə və vərdişlərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır. Azərbaycan Prezidenti İlham Əliyev məhz bu reallıqdan çıxış edir və böyük yüksəlişin təmin olunmasına çalışır.

Bu il keçirilən növbəti "Yüksəliş" müsabiqəsi sayca dördüncü müsabiqədir. Qeyd edək ki, 2019-2021-ci illərdə keçirilən ilk müsabiqənin 27, 2022-ci ildə keçirilən ikinci müsabiqənin 22 və 2023-cü ildə keçirilən müsabiqənin 22 qalibi olub. Qaliblərin adı kadr ehtiyatı bankına daxil edilməklə yanaşı, onlar idarəçi rəhbərlər tərəfindən birillik fərdi inkişaf planı və hər biri 20 min AZN məbləğində özünüinkişaf mükafatı əldə ediblər. "Yüksəliş" müsabiqəsini kadr islahatlarında yeni bir mərhələnin başlanğıcı saymaq olar.

## Yüksək vətənpərvərlik ruhu

Azərbaycan gəncliyi ən yüksək münasibətə layiqliyini, doğma torpaq, yurd sevgisini, cəsarət və fədakarlığını Vətən müharibəsində sübuta yetirdi. Bu müharibə böyük milli potensialımızı üzə çıxardı. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil xalqın milli maraqlarının pozulmasına heç zaman yol verməz, haqqımız olanın əlimizdən alınması ilə barışmaz. Canı-qanı bahasına da olsa, Azərbaycanın adının, bayrağının ucalarda olmasını təmin edər.

Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad edən rəşadətli ordumuzun sıralarında minlərlə gəncimiz mətanətlə vuruşaraq qəhrəmanlıq salnaməsi yazdı. Məhz onların igidliyi, haqq yolundan dönməzliyi sayəsində ərazi bütövlüyümüz bərpa edildi, otuzillik həsrətdən sonra əzəli-tarixi yurd yerlərimizə qovuşduq. Budur, vətənpərvərlik əzmi, ümidi doğrultmaq, azərbaycançılıq ruhunu qorumaq!

Azərbaycan gəncliyi hazırda Vətən naminə səylə çalışır, azad edilmiş torpaqlarımızı qarlı-şaxtalı səngərlərdə göz bəbəyi kimi qoruyur. Azərbaycan dövləti ən müasir standartlara uyğun və ən güvənli sərhəd infrastrukturunun qurulması istiqamətində ardıcıl işlər aparır. Sərhədlərimizin möhkəmliyi, onun etibarlı şəkildə qorunması bizi xarici risklərdən mühafizə edir. Azərbaycan Prezidentinin də bəyan etdiyi kimi, bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Ona görə də təhlükəsizlik tədbirlərinin bundan sonra da davam etdirilməsi vacib vəzifə kimi müəyyənləşdirilir. Bu da, təbii ki, səbəbsiz deyil. Azərbaycan dövləti təxminən 200 illik erməni layihəsinin ömrünə son qoyaraq ərazi bütövlüyünə nail olmaqla, elə planları puça çıxarıb ki, ölkəmizə qarşı ideoloji təxribatlar bundan sonra da tez-tez gözləniləndir. Azərbaycan dövlətinin haqq işinə kölgə salınması meyillərini, bizə qarşı ayrı-seçkilik təzahürlərini, ölkəmiz haqqında əsassız və yalançı, mənfi imic yaradılması cəhdlərini gündəlik həyatımızda hamımız görürük.

Bu cəhdlərdən doğan ciddi bir risk də var ki, bunun hədəfi adətən gənc nəslin təmsilçiləri olurlar. Bu, ideoloji risklərdir. İdeoloji risklər isə xüsusilə indiki mürəkkəb şəraitdə heç bir sərhəd tanımır. Ona görə də burada ən böyük öhdəlik yenə də vətəndaş məsuliyyətinin üzərinə düşür. Vətəndaş olaraq hər birimizdən tələb edilən məsuliyyət gənclərimizin vətənpərvərlik, milli ənənələr ruhunda tərbiyə olunmasıdır.

Gənclərimiz dövlət rəhbərimizin yürütdüyü siyasətə dəstəyi, gələcək qarşısında məsuliyyət hissi, öyrənməyə, müasir dövrümüzün çağırışlarına uyğun yeni bilik və bacarıqlar əldə etməyə böyük meyli ilə inkişaf proseslərinin önündə addımlayırlar. Bu, qalib Azərbaycan gəncliyidir!

## Böyük hədəflərə doğru

Azərbaycan dövləti gənclərin beynəlxalq dialoquna, bəşəriyyəti narahat edən qlobal problemlərin birgə həllərinin axtarılmasına hər zaman xüsusi önəm verir. Bu, Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin yaradılmasında, həmin şəbəkənin Bakı konfransının keçirilməsində, paytaxtımızda Hərəkata üzv olan 60-dan çox ölkənin təmsilçilərinin iştirakı ilə Gənclər sammitinin təşkilində bir daha öz ifadəsini tapmışdı.

Prezident İlham Əliyevin sammit iştirakçılarına ünvanladığı təbrik müraciətindəki fikirlər Azərbaycan gəncliyinə və onların timsalında müasir dünyamızda bu fəal təbəqənin yerinə və roluna münasibətin göstəricisi kimi böyük maraq doğurur. "Çağırışlarla dolu müasir dünyada fəal və yaradıcı gənclər arasında dialoq bəşəriyyətin üzləşdiyi problemlərin müzakirəsinin, onların həllinə dair ideya və baxışların bölüşməsində vacib rol oynayır" deyən dövlət rəhbərimiz müraciətində bildirirdi: "Milli dəyərlərə hörmət ruhunda böyümüş gənclərimiz 30 il işğal altında olmuş torpaqlarımızın azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində əvəzsiz xidmətlər göstəriblər. Biz belə gənclərimizlə fəxr edirik".

Bu fikirlərdə həm də gənc nəslə qayğının zəruriliyi, onlara öz potensiallarını reallaşdıra bilmələri üçün şəraitin yaradılması məsələləri aktuallaşdırılır. Eyni zamanda bəşəri problemlərin həllində müxtəlif ölkələrdən olan gənclər arasında dialoqun təmin edilməsinin əhəmiyyətinə diqqət yönəldilir. Həmçinin Ali Baş Komandanın əmri ilə 44 günlük Vətən savaşında torpaqlarımızı işğaldan azad edən, bizi böyük qələbəyə qovuşduran və bu gün də dövlət sərhədlərimizin keşiyində dayanan Azərbaycan gəncliyinin misilsiz qəhrəmanlığı, Vətən sevgisi qiymətləndirilir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

**● "Gənclər paytaxtı 2024"**

# Bu il Şuşada gənclərin möhtəşəm tədbirləri keçiriləcək

**Prezident İlham Əliyev aprelin 17-də "Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı. Sərəncama əsasən, Nazirlər Kabinetinə Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı fəaliyyət planı hazırlayıb həyata keçirmək və bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırıldı.**

İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının ötən il noyabrın 10-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) "Gənclər paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilib. Həmin iclasda İƏT Gənclər Forumunun həyata keçirdiyi "Gənclər paytaxtı 2024" beynəlxalq proqramının seçim komissiyasının üzvləri bu qərarın lehinə yekdilliklə səs veriblər.




Bu layihənin əsas məqsədi dünya gənclərini bir araya gətirməkdir. İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtında - Şuşada bu il təşkil ediləcək tədbirlərdə iştirak etmək üçün müxtəlif ölkələrdən gənclər gələcək. Onlar bu tarixi şəhərin dastanlara sığmayan azad olunması, həmyaşıdları olan qəhrəman Azərbaycan oğullarının yenilməzliyi, cəsurluğu barədə geniş məlumat alacaqlar. Öyrənəcəklər ki, Qarabağın incisi Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də Ermənistan silahlı qüvvələrinin otuz ilə yaxın davam edən işğalından azad edilməsi Azərbaycan tarixinin heç zaman yaddan çıxmayacaq qəhrəmanlıq səhifələrindəndir. Bu böyük Zəfərin qazanılmasında şəhərin azadlığı uğrunda şücaət göstərmiş gənclərimizin rolu misilsizdir.

Qeyd edək ki, bu il Şuşa islam dünyasının həm gənclər, həm də mədəniyyət paytaxtıdır. Belə ki, islam dünyasının mədəniyyət paytaxtı adına namizədliyinin irəli sürülməsi məqsədilə Şuşada olmuş ICESCO-nun müvafiq missiyası tərəfindən şəhərdə həyata keçirilən quruculuq işləri yüksək dəyərləndirildi. Ötən il sentyabrın 25-də Qətər dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Qarabağın incisi Şuşa şəhərinin bu il - 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı elan olunmasına yekdil qərar verildi.

Prezident İlham Əliyev keçən il noyabrın 21-də imzaladığı Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamında bildirilir ki, bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub, islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və islam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır.

İşğaldan azad olunduqdan sonra bir sıra möhtəşəm beynəlxalq tədbirlərə, böyük mədəniyyət layihələrinə evsahibliyi edən Şuşa şəhərini bu il də unudulmaz günlər gözləyir...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Güclü cəmiyyətin zərif simaları"

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Regional İnkişaf İctimai Birliyinin əməkdaşlığı ilə birgə "Güclü cəmiyyətin zərif simaları" adlı layihə həyata keçirir.**

Layihənin məqsədi gənc qızların şəxsi inkişafına təkan vermək və onların fəallığını artırmaqdır. Layihə çərçivəsində ölkəmizdə müxtəlif sahələrdə uğur qazanmış qadınlarla regionlarda yaşayan gənc qızlar arasında TEDx formatında görüşlərin keçirilməsi planlaşdırılır.

Görüşlərin 2024-cü il ərzində Şəki, Sumqayıt, Mingəçevir, Gəncə şəhərlərində və Quba, Xaçmaz, Şəmkir, Qax, Zaqatala, Masallı rayonlarında keçirilməsi nəzərdə tutulub.

# "Qızıl Şah" çempionatında seçim mərhələsi başa çatıb

**Mayın 15-dən 17-dək keçiriləcək "Qızıl Şah" çempionatında iştirak edəcək tələbələri müəyyənləşdirmək məqsədilə təşkil olunan daxili yarışlar başa çatıb.**



Peşə Təhsili üzrə Dövlət Agentliyindən bildirilib ki, sonuncu daxili yarış Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində təşkil olunub. Yarışda iştirak edən tələbələr 45 dəqiqə müddətində bir növ ana yemək, ona uyğun qarnir və sous hazırlayıblar. Tələbələr münsiflər heyəti tərəfindən iş prosesi zamanı gigiyena qaydaları və ardıcıllığa düzgün riayət edilməsi, yeməyin dadı və resepturaya uyğun olması, yeməyin düzgün şəkildə servis və dekor edilməsi nominasiyalarına uyğun olaraq qiymətləndirilib.

Çempionatın nəticəsinə görə ilk 3 yerin qalibi - Kübra Həsənova, Nihad Ağayev, Gülnar Dadaşov fəxri fərman, digər iştirakçılar isə təşəkkürnamə ilə təltif olunublar.

**● Sağlam nəsil, sağlam gələcək**

# Yetirmələrimlə qürur duyuram

**Əsl müəllim üçün dərs dediyi tələbələrinin sevgisindən böyük mükafat yoxdur. Belə bir sevgini qazananlardan biri də "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı" ilə təltif edilən Ülviyyə Kərimovadır. Hər bir tədbirin sonunda tələbələri onu gül-çiçək yağışına qərq edirlər. Ətrafına toplaşan gənc oğlan və qızların üzlərindəki sevinc hissini təsəvvür etmək çətin olur. Bəs gənc müəllimi tələbələrinə bu qədər doğmalaşdıran, sevdirən görəsən nədir?**

Redaksiyamızın budəfəki qonağı Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Riyazi iqtisadiyyat kafedrasının baş müəllimi, riyaziyyat üzrə fəlsəfə doktoru Ülviyyə Kərimova ilə söhbətə bu yöndən körpü saldıq. Ülviyyə müəllimə deyir ki, mənim qənaətimə görə, insanlar sonradan müəllim olmur. Əsl müəllimlər elə dünyaya gələndə müəllim kimi doğulurlar. Anamın ən böyük arzusu məni "ağ xalatlı həkim" görmək olsa da, öyrətmək həvəsim bu peşəyə qalib gəldi... Daim axtarışdayam. Elmi istiqamətdə inkişaf etməyə çalışıram. İş təcrübəmdə tələbələrimlə səmimi davranışa, hər birinə fərdi yanaşmaya üstünlük verirəm. Bu münasibət bizi daha da yaxınlaşdırır, doğmalaşdırır.

Ülviyyə Yasin qızı Kərimova Biləcəri qəsəbəsində dəmiryolçu ailəsində anadan olub. Binəqədi rayonu 300 saylı orta məktəbdə təhsil alıb. 2003-cü ildə Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin bakalavr pilləsini riyaziyyat istiqaməti üzrə fərqlənmə diplomu ilə bitirib. Elə həmin il Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin ehtimal nəzəriyyəsi və riyazi statistika istiqaməti üzrə magistr pilləsinə qəbul olunub. Ülviyyə Kərimova 2011-ci ildə AMEA-nın Kibernetika İnstitutunun həmin sahə üzrə doktorantura pilləsinə qəbul olunub. 2016-cı ildə "Müsbət axınlı, mənfi sıçrayışlı semimarkov dolaşma prosesinin tədqiqi" mövzusunda dissertasiyasını müdafiə edərək riyaziyyat üzrə fəlsəfə doktoru elmi adını alıb.

2012-ci ildən Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Riyazi iqtisadiyyat kafedrasında "İnformasiya iqtisadiyyatı", "Riyazi statistika", "Ekonometrika", "İqtisadi informatika", "Statistika" istiqamətləri üzrə müəllimlik fəaliyyətinə başlayan Ülviyyə Kərimova hazırda BDU-da baş müəllim vəzifəsində çalışır.



Ülviyyə Kərimova ilə universitetdə olan görüşümüzü xatırladanda dedi ki, həyatda baş verən proseslərin çoxu təsadüfi xarakter daşıyır. Ehtimal nəzəriyyəsi riyazi elm olub, təsadüfi təzahürlərin qanunauyğunluqlarını öyrənir. Orta məktəb illərindən bu sahəyə böyük həvəsi olub. Ali təhsil aldığı müddətdə professor Tamilla Nəsirovanın rəhbərliyi ilə buraxılış işini bu istiqamət üzrə seçib... Və ehtimal nəzəriyyəsi üzrə tədqiqatlarını davam etdirmək istəyi qalib gəlib...

Ehtimal nəzəriyyəsi "Maliyyə riski", "Risk menecmenti", "Sığora məsələləri" və digər istiqamətlər üzrə dünyada uğurla tətbiq olunur. Təəssüf ki, bu sahədə mütəxəssislərin sayı azdır.

Ülviyyə Kərimova 2018-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli Qrant müsabiqəsində "Markov proseslərinin və xüsusi halda semi-Markov proseslərinin tətbiqi ilə tsiklik iqtisadi proseslərin enmə, artma nöqtələrinin müəyyən edilməsi, uyğun iqtisadi interpretasiyaların verilməsi" layihəsi üzrə qaliblərdən biridir. Onun müasir gəncliyə olan münasibətini öyrəndikdə dedi ki, təəssüf ki, müasir dövrdə bəzi gənclər milli-mənəvi dəyərlərimizə yad olan hərəkətlərə yol verirlər. İnformasiya bolluğu, texnologiyanın əlçatan olması gənclərin qarşısında geniş imkanlar açır. Bu gün dərs dediyim tələbələrin arasında ağlının, zəkasının nuru ilə gələcəyimizə işıq saça biləcək gəncləri görəndə Vətənimin xoşbəxt gələcəyinə olan inamım daha da artır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Məktəblilərin STEAM İnnovasiya Mərkəzinə ekskursiyaları başa çatıb

**Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib. Bildirilib ki, STEAM İnnovasiya Mərkəzində məktəblilər aviasiya məkanı, klassik Nyuton, uşaqlar üçün Nyuton, konfrans, oyun, konstruksiya, "Heureka Classics" otaqları, robotların hazırlanması laboratoriyası, "3D holoqram", VR zonaları ilə tanış olublar.**



Mərkəzə gələn şagirdlər eksponatlar haqqında məlumatlandırılıb, bələdçilərin köməyilə müxtəlif komandalara bölünərək oyunlar oynayıb, əylənib və öyrəniblər. Həmçinin şagirdlər onlara verilən təlimatlar əsasında eksperimentlər aparıb, məktəbdə tədris prosesində öyrəndiklərini mərkəzdə əyani şəkildə görmək imkanı qazanıblar.

Ekskursiya çərçivəsində müxtəlif yaş kateqoriyasından olan məktəblilər yeni elmi məlumatlar əldə ediblər, XXI əsr bacarıqları - kreativlik, əməkdaşlıq, müxtəlif proqramlaşdırma dilləri əsasında İKT avadanlıqlarından istifadə qabiliyyətlərini təkmilləşdiriblər. Ekskursiya zamanı STEAM İnnovasiya Mərkəzinin əsas məqsədinin şagirdlərin potensialını və maraqlarını cəmiyyətə xidmət işinə yönəltməkdən, onları öyrənməyə həvəsləndirməkdən ibarət olduğu bildirilib.

# Karate üzrə dünya çempionu



**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) İqtisadiyyat və menecment fakültəsinin I kurs tələbəsi Nicat Kərimli karate üzrə dünya çempionu olub.**

Bu barədə ADNSU-dan məlumat verilib. Bildirilib ki, N.Kərimli Bolqarıstanın Albena şəhərində Şotokan Karate-do (WSF) üzrə gənclər arasında keçirilən 14-cü dünya çempionatında 75 kiloqram çəki dərəcəsində hər iki kateqoriyada mübarizə apararaq dünya çempionu olub.

# Bu həftə 60-cı Venesiya Biennalesində Azərbaycan pavilyonunun açılışı olacaq

**Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyinin və Azərbaycanın İtaliyadakı səfirliyinin dəstəyi ilə 60-sı Venesiya Biennalesində təmsil olunacaq. Ölkəmiz müasir incəsənət sahəsində dünyanın məşhur platformalarından olan Venesiya Biennalesində 2007-ci ildən iştirak edir.**




AZƏRTAC xəbər verir ki, bu il aprelin 20-dən noyabrın 24-dək davam edəcək 60-cı Venesiya Biennalesi "Əcnəbilər hər yerdədir" ("Foreigners Everywhere") şüarı altında keçiriləcək.

Biennalenin kuratoru Adriano Pedros mövzunu təsadüfən seçməyib. Biennalenin dünyada insanların müxtəlif ölkələrə köçməsi ilə bağlı böhranlar fonunda fəaliyyət göstərdiyini bildirən Adriano Pedros bunun müxtəlif fərqliliklər və çətinliklərlə müşayiət olunduğunu qeyd edir. "Əcnəbilər hər yerdədir" ifadəsi iki mənada verilir. Birincisi, hara getməyimizdən asılı olmayaraq hər yerdə əcnəbilərlə rastlaşırıq - onlar (biz) hər yerdədir. İkincisi isə, istənilən yad bir yerə getsək həmişə əcnəbiyik.

XVI əsrin heyrətamiz memarlıq abidələrindən olan Campo della Tanada yerləşən Azərbaycan pavilyonu isə Venesiya sərgisində "Xəzərdən Çəhrayı Planetə. Mən buradayam" ("From Caspian to Pink Planet: I Am Here") mövzusunda təşkil olunub və biennalenin şüarını özündə əks etdirir.

Müasir incəsənət sahəsi üzrə tənqidçi, sənətşünaslıq professoru, 53-cü Venesiya Biennalesində İtaliya pavilyonunun kuratoru olmuş Luka Beatrisin (Luca Beatrice) kuratorluğu ilə yaradılan pavilyonumuzda Əməkdar rəssamlar İrina Eldarova, Rəşad Ələkbərov, rəssam Vüsalə Ağaraziyevanın əsərlərinin zəngin palitrası vasitəsilə əcnəbilik mövzusu tədqiq ediləcək - səfərlər, səyahətlər, mühacirətin hər zaman fərdi identiklik və incəsənətə təsiri göstəriləcək. Şəxsi təcrübələrinə əsaslanan müəlliflər əsərlərində əcnəbilik mövzusunun Azərbaycan üçün aktuallığını çatdırır, insanla onun yaşadığı məkan arasındakı dərin bağları əks etdirir, eyni zamanda incəsənət vasitəsilə digərinə hörmətlə yanaşmağın vacibliyini bəyan edirlər. Ziyarətçilər əsərlərə müxtəlif bucaqlardan baxaraq fərqli mədəniyyətlərin ahəngini seyr edib, ümumbəşəri qarşılıqlı anlaşma ideyasının zəruriliyini görə biləcəklər.

# Vitaminsiz qalmayaq

**İnsan orqanizminin normal inkişafı üçün tələb olunan vacib elementlərdən biri də vitaminlərdir. Əsasən bitkilər tərəfindən sintez edilən vitaminlər maddələr mübadiləsini sürətləndirmək və immunitet sistemini dəstəkləməkdən, sağlam dərini qorumaq və qidanı enerjiyə çevirməyə qədər bir çox bədən funksiyasında mühüm rol oynayır.**



Vitamin çatışmazlığı ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Bu, qanazlığı və həzm problemləri kimi sağlamlığa təsir edən müxtəlif fəsadlara gətirib çıxarır.

## D vitamini əskikliyi dövrün "tələbi"dir

Mütəxəssislər bildirirlər ki, A, B, C, D, E və K vitaminlərinin hər biri dəyərlidir, ancaq prioritet D vitaminidir. Möcüzəli molekul olan D vitamini həm bədənə, həm də ruha dərindən təsir edir və sağlamlığı hərtərəfli yaxşılaşdırır. Onun sayəsində beyin sağlamlığından ürək sağlamlığına, immunitet gücündən sümüyə, dişlərə, əzələ və oynaq gücünə, emosional və fiziki enerjiyə qədər bir çox funksiya yerinə yetirilə bilər.

D vitamini ehtiyacını, təəssüf ki, yalnız qida ilə, süd məhsulları, yumurta və ya balıq yeməklə ödəmək mümkün deyil. Qidalar gündəlik D vitamini ehtiyacının ən çox 2-3 faizini ödəyə bilir. Qalanını isə dərini günəşə verməklə qazanmaq olar. Günəş işığı ilə dərimizdə istehsal olunan və körpəlikdə ana südü sayəsində əldə etdiyimiz vitamin ən təhlükəsiz və zəmanətli D vitamini molekullarıdır. İnək südündəki D vitamini də təbii və mükəmməldir, lakin süd bəzi sənaye proseslərinə məruz qaldıqda əhəmiyyətli dərəcədə zədələnir.

Günəşin köməyi ilə orqanizmdə istehsal edilən təbii D vitamini sulfatlıdır. Ona görə də həm suda, həm də yağda həll olunmaq qabiliyyətinə malikdir. Nəticədə bədənin hər hüceyrəsinə, hər toxumasına və orqanına asanlıqla daxil ola bilir. Süni D vitamini isə sulfatsızdır. Buna görə də ilk seçim günəşdən alınan təbii D vitamini olmalıdır.

Bəzən belə bir halla rastlaşırıq ki, bir müddət öncə D vitamini səviyyəmiz 50-dən yuxarı olduğu halda sonradan 15-20-yə düşüb. Bunun səbəbi D vitamininin digər vitaminlər kimi daim istifadə olunan və istehlak edilən komponent olmasıdır. Hüceyrələrimiz öz funksiyalarını yerinə yetirərkən ondan xammal kimi istifadə edirlər. Bu sərfiyyat vaxtında bərpa edilməlidir. Orqanizmimizə daxil olan D vitamininin miqdarı istifadə olunan miqdardan aşağı olmamalıdır. Xüsusilə qış aylarında günəşdən uzaq durduğumuz üçün istehsal ya dayanır, ya da minimuma enir. Bu hal xroniki xəstəlikləri olanlarda, kök və tünd dərili insanlarda özünü daha çox büruzə verir. Əgər D vitamini əskikliyi yaşayırıqsa və bunu günəş işığı ilə bərpa edə bilmiriksə, həkim təyinatı ilə müvafiq dərmanların qəbulu həyata keçirilməlidir.

## A vitamini yalnız qida vasitəsilə orqanizmə daxil olur

Sağlamlıq üçün önəmli olan vitaminlərdən biri də A vitaminidir. O, görmə, dəri, saç, dırnaq və dişlərin normal inkişafı üçün vacibdir. A vitamini çatışmazlığı özünü ən çox gözün fəaliyyətində göstərir. Bu zaman gözün qidalanması və görmə qabiliyyəti zəifləyir.

İnsan orqanizmi A vitamini istehsal edə bilmir. Bu vitamin yalnız qida vasitəsilə orqanizmə daxil ola bilir. Kök, balqabaq, kabak, ispanaq, bibər, kahı, pomidor, sarı meyvələr, yumurta sarısı, balıq və mal qaraciyərini gündəlik qida rasionuna əlavə etməklə bu vitamin əskikliyini bərpa etmək mümkündür. Əgər bu effekt verməsə, kapsula təyin olunur. Amma unutmayın ki, A vitamini qəbul edən zaman E vitamini də olmalıdır ki, bağırsaqda retinolun turşulaşmasının qarşısını alsın. Bu vitaminin az miqdarda bitki yağı ilə birgə qəbul olunması məsləhət görülür.

## E və C vitaminləri orqanizmin normal fəaliyyəti üçün vacibdir

Bədənin normal fəaliyyəti üçün E vitamini mühüm əhəmiyyət kəsb edir. O, yağda həll olunan ən vacib vitaminlərdən biridir və bədəndə qaraciyərdə olur. Bu vitamin güclü antioksidantdır və orqanizmi həm zəhərli təsirlərdən, həm də sərbəst radikallardan qoruyaraq, daha güclü hüceyrə quruluşunu təmin edir. E vitamini xalq arasında pis xolesterol adlanan LDL xolesterolunun oksidləşməsinin qarşısını alaraq, orqanizmi xərçəng və buna bənzər pis xəstəliklərdən qoruyur. Onun çatışmazlığı az inkişaf etmiş populyasiyada və tarazsız qidalanmalarda özünü daha çox göstərir.

İmmunitetin gücləndirilməsi üçün isə C vitamininin qəbulu vacibdir. Yüksək dərəcədə antioksidant olan bu vitamin orqanizmdə E vitamini ilə birləşərək güclü qoruyucu təsirə çevrilir. Daha çox qreyfurt, limon, portağal, kivi, naringi kimi sitrus meyvələrin tərkibində mövcuddur. Qırmızı acı, şirin, yaşıl bibər C vitamini qaynaqlı tərəvəzlərdən hesab edilir. Mövsümü yaxınlaşan qarpız və çiyələyin tərkibində az da olsa, bu vitamin mövcuddur.

Son illərdə C vitamininin diabet üzərindəki effektiv təsiri haqqında məlumatlar geniş yayılıb. İnsulin bu vitaminin hüceyrəyə daxil olmasını təmin edir. Bu səbəbdən diabet və insulin müalicəsində C vitamini əhəmiyyətli rola sahibdir. Astma, yüksək təzyiq, infeksiyalar, ekzema, hepatit, mədə yarası, katarakta kimi bir çox xəstəliklərdə məhz bu vitaminin azlığı müşahidə edilir.

Streslər və emosional gərginliklər də immun sisteminin zəifləməsinə səbəb olur. Unutmamalıyıq ki, hər bir insan özünün həkimi olmalıdır. Sağlam həyat tərzinə və balanslı qida rasionuna əməl edilsə, orqanizm xəstəliklərdən xilas olar və ya onun qarşısı tamamilə alınar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

İnformasiya Texnologiyaları (İT) sahəsinin müstəqil auditi xidmətlərinin satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 aprel 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***


# Bəzi dağlıq və dağətəyi ərazilərdə havanın arabir yağıntılı olacağı gözlənilir

**Azərbaycanda aprelin 19-na gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-16°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 millimetr civə sütunu olacağı proqnozlaşdırılır. Nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 25-30° isti olacağı gözlənilir.

Xankəndi şəhəri, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacağı güman edilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, dağlıq ərazilərdə 3°-dək, gündüz 17-22° isti olacaq.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan, Füzuli rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gündüz əsasən dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 25-30° isti olacağı güman edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək, lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi gecə və səhər bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 23-28° isti, dağlarda gecə 9-14°, gündüz 22-27° isti olacağı proqnozlaşdırılır.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 25-30° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 23-28° isti, dağlarda gecə 10-14°, gündüz 19-24° isti olacağı güman edilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**"Edu Soft" MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.**

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin sabiq deputatı, "91-lər"dən

**İSGƏNDƏR QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Milli Məclisinin sabiq deputatı, Əmək və sosial siyasət komitəsinin keçmiş sədri

**HADİ RƏCƏBLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Milli Məclisin sabiq deputatı

**HADİ RƏCƏBLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin sabiq deputatı, Əmək və sosial siyasət komitəsinin keçmiş sədri

**HADİ RƏCƏBLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4250
Sifariş 819

Qiyməti 60 qəpik